Xalqın qəzeti!

# Xalq qəzeti

№ 76 (30480) 17 aprel 2024-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

## Güclü lider və dövlətçilik amalı – Azərbaycanın uğur təminatı



Səhifə ⇨ 3

## Uzaq Kanada Qafqazda nə axtarır?



Səhifə ⇨ 4

## Sumqayıt – tərəqqi və sabaha inam ünvanı



Səhifə ⇨ 8

## Başabəla Ermənistan, Botsvana, Kot-di Vuar və Kosta-Rika…

Səhifə ⇨ 5

## Bakı–Supsa kəməri: Xəzərdən Qara dənizə “qara qızıl” axını



Səhifə ⇨ 7

# Ölkəmizin su təchizatı dövlətin sosial-iqtisadi siyasətində önəmli hədəfdir

## Prezident İlham Əliyev Hacıqabulda Şirvan suvarma kanalının təməlini qoyub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Hacıqabul rayonunda yenidən qurulacaq Şirvan suvarma kanalının təməlini qoyub və çıxış edib.**

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verdi.

Qeyd edək ki, 1958-ci ildə istifadəyə verilən və ölkənin ikinci ən böyük kanalı olan torpaq məcralı Yuxarı Şirvan suvarma kanalı başlanğıcını Mingəçevir su anbarından götürür. Yuxarı Şirvan kanalı Şirvan düzündə yerləşən Yevlax, Ağdaş, Göyçay, Zərdab, Ucar, Kürdəmir, İsmayıllı və Ağsu rayonlarının 112 min hektardan çox əkin sahəsini suvarma və yaşayış məntəqələrini məişət suyu ilə təmin edir.

Suötürmə qabiliyyəti saniyədə 78 kubmetr və uzunluğu 122 kilometr olan kanalın 65 ildən artıq fasiləsiz istismar edilməsi, illik su itkilərinin kəskin artması və qurğuların qəzalı vəziyyətə düşərək funksiyalarını itirməsi nəticəsində torpaqların meliorativ vəziyyəti pisləşərək deqradasiyaya uğrayıb. Bütün bunlar mövcud əkin sahələrinin vegetasiya dövründə suvarma suyu ilə təminatında çatışmazlıqlar yaradıb, bölgənin suya daim artan tələbatının ödənilməsindəki gərginliyi daha da dərinləşdirməklə ekoloji tarazlığın pozulmasına gətirib çıxarıb.

Yuxarı Şirvan suvarma kanalının infrastrukturunun bərpası, habelə mövcud təsərrüfatların su təminatı məsələlərinin vaxtında və səmərəli şəkildə həllinin dəstəklənməsi, su ehtiyatlarından daha səmərəli istifadə olunması, magistral kanalın suburaxma qabiliyyətinin artırılması məqsədilə aprelin 8-də Prezident İlham Əliyev Şirvan suvarma kanalının yenidən qurulması haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Yuxarı Şirvan suvarma kanalının adı dəyişdirilərək Şirvan suvarma kanalı adlandırılıb.

Prezident İlham Əliyev yenidən qurulacaq Şirvan suvarma kanalının təməlini qoydu.

Bildirildi ki, agentliyin sifarişi ilə Türkiyənin “Su Yapı” məsləhətçi şirkəti tərəfindən Yuxarı Şirvan kanalının yenidən qurulması üzrə texniki-iqtisadi əsaslandırma sənədləri və 4 mərhələdə işçi layihə hazırlanıb. Kanalın müasir tələblər səviyyəsində yenidən qurulması və tikintisi mərkəzləşdirilmiş SCADA sistemi yaratmaqla su ehtiyatlarından daha səmərəli istifadəyə və optimal idarəetməyə, yaşayış məntəqələrinin məişət su təminatının yaxşılaşdırılmasına, 230 min hektar torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsinə, o cümlədən 110 min hektardan çox mövcud əkin sahələrinin su təminatının yaxşılaşdırılmasına və 116 min hektar əkinə yararlı torpaqların dövriyyəyə cəlb olunmasına, təqribən 346 milyon kubmetr su itkisinin qarşısının alınmasına, Hacıqabul gölünün, ətraf ərazilərin ekoloji və torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılmasına, yüksək məhsuldarlığın əldə olunmasına, iri təsərrüfatlara məxsus əkin sahələrini suvarma suyu ilə təmin edən nasos stansiyalarının fəaliyyətinin dayandırılmasına və Pirsaatçay su anbarının nasos stansiyasının qidalandırılmasına imkan verəcək.

Sonra dövlətimizin başçısı tədbirdə çıxış etdi.

**(ardı 2-ci səhifədə)**

## Paşinyan və uydurma “erməni soyqırımı”

Səhifə ⇨ 4



## “Əsrə bərabər gün”ün fantastik realizmi

Səhifə ⇨ 10





## Dünya Bankının Azərbaycan nikbinliyi

**Azərbaycanın uğurla əməkdaşlıq etdiyi beynəlxalq maliyyə qurumları sırasında Dünya Bankı (DB) xüsusi yer tutur. Respublikamızda bankın göstərdiyi texniki yardım və maliyyə dəstəyi layihələri daim yüksək qiymətləndirilir. Bu gün ölkəmizin DB ilə əlaqələrində özəl sektorun diaqnostikası, innovasiyalar, idarəetmə texnologiyalarının inkişafı, bərpaolunan enerji və digər sahələrdə əlaqələrin getdikcə möhkəmlənməsi, qabaqcıl beynəlxalq təcrübənin tətbiqinə xüsusi önəm verilməsi daha qabarıq nəzərə çarpır.**

Respublikamızda gerçəkləşdirilən iqtisadi strategiyanın, eləcə də DB ilə əməkdaşlıqda xüsusi önəm verilən layihələrin uğurlu nəticələri qurumun proqnozlarında, hesabatlarında daim yer alır. Xüsusilə bankın hesabatlarında respublikamızın vergi və gömrük strukturlarında mühüm yeniliklərə imza atılması, reallaşdırılan islahatlarda əsas məqsədin sahibkarların vergi yükünün optimallaşması, vergi bazasının genişləndirilməsi, leqallaşma, rəqəmsallaşma və vergi-gömrük administrasiyası ilə sahibkarların münasibətlərinin daha da sivil səviyyəyə qaldırılması kimi məsələlər yüksək qiymətləndirilir.

DB-nin Avropa və Mərkəzi Asiya iqtisadiyyatlarına dair açıqladığı aprel hesabatında da bu barədə ətraflı bəhs edilib. Sənəddə Azərbaycanın ortamüddətli perspektivdə cari əməliyyatlar hesabının profisitinin ÜDM-in 7,5 faizi həcmində proqnozlaşdırıldığı, buna isə əlverişli enerji qiymətlərinin təsiri, eyni zamanda idxal artımının sabitləşdirilməsi ilə nail olunduğu bildirilib. Bankın keçən ilin oktyabr ayı proqnozunda həmin rəqəmin 2024-cü ildə ÜDM-in 13,5 faiz, 2025-ci ildə isə ÜDM-in 13 faiz səviyyəsində təşkil edəcəyi vurğulanıb.

**(ardı 7-ci səhifədə)**

## Füzuliyə bu dəfə 156 ailə köçürüləcək

Səhifə ⇨ 6

# Prezident İlham Əliyev Hacıqabulda Şirvan suvarma kanalının təməlini qoyub



(əvvəli 1-ci səhifədə)

## Prezident İlham Əliyevin çıxışı

– Mən bir neçə gün bundan əvvəl Şirvan suvarma kanalının yenidən qurulması haqqında sərəncam imzalamışam, bu gün isə kanalın təməli qoyulur. Bu, çox əlamətdar hadisədir. Son illər ərzində Azərbaycanda həyata keçirilən infrastruktur layihələri arasında bu layihənin xüsusi əhəmiyyəti vardır. Çünki Yuxarı Şirvan suvarma kanalı uzun illərdir fəaliyyət göstərir. Kanal torpaq məcralıdır və illər keçdikcə kanalın böyük hissəsi sıradan çıxmışdır. Təbii olaraq bu da itkilərə səbəb olub, su itkiləri kifayət qədər çoxdur. İtkilərə və su sızmalarına görə ətraf torpaq sahələri şoranlaşmış, əkin üçün yararsız vəziyyətə düşmüşdür.

Yuxarı Şirvan kanalı 1958-ci ildə inşa edilmişdir və bu gün kanalın, – artıq bu kanal Şirvan kanalı adlandırılır, – yeni mərhələsi başlayır. Faktiki olaraq kanal yenidən inşa ediləcək və beləliklə, minlərlə insan bu layihədən faydalanacaq. 120 kilometrlik kanalın uzunluğu, təxminən, iki dəfə artırılacaq və 200 kilometrdən çox olacaq.

Əkin sahələrinə gəldikdə isə o da iki dəfədən çox artırılacaq. İcra ediləcək yeni layihə

Ölkəmizin gələcək inkişafının əsas istiqamətləri bundan ibarətdir, çünki qeyri-neft sektorunun inkişafı, kənd təsərrüfatının inkişafı, məşğulluğun artırılması, vətəndaşların rifah halının yaxşılaşdırılması və su ehtiyatlarımızdan səmərəli şəkildə istifadə edilməsi - bütün bu amillər gördüyümüz işlərdə əks olunur.

İqlim dəyişikliyi ilə bağlı dünyada böyük narahatlıq var, o cümlədən Azərbaycanda. Biz indi görürük ki, bu il faktiki olaraq əvvəlki illərdən fərqlənirdi. Bu il kifayət qədər qar, yağış yağmışdır və bizim su hövzələrimizdə, su anbarlarında kifayət qədər su var. Ancaq əvvəlki illərdə biz hər il quraqlıqla üzləşirdik. Bizim dağlarımıza daha az qar yağırdı. Çaylarımızda suyun səviyyəsi əvvəlki illərdə aşağı düşürdü, bəzi hallarda əsas çaylarımız quruyurdu. Xəzər dənizinin dayazlaşması göz önündədir. Bunu hər kəs görə bilir. Belə olan halda su ehtiyatlarından səmərəli şəkildə istifadə etmək bizim başlıca vəzifəmizdir.

Mən bir daha demək istəyirəm ki, Azərbaycanda bir çox infrastruktur layihələri öz həllini tapmışdır. Qazlaşdırmanın səviyyəsi 96 faizə çatıb. Elektrik enerjisi ilə təminat və yeni elektrik stansiyalarının yaradılması geniş vüsət alıb və əhəmiyyətli dərəcədə irəliləyişə nail olmuşuq. Bütün ölkəmiz yeni, müasir yollarla əhatə olunur. Ona görə növbəti illərdə hökumətin qarşısında duran əsas infrastruktur layihələri arasında başlıca vəzifə içməli su layihələri və suvarma layihələri olacaqdır.

Artıq genişmiqyaslı proqram işlənib hazırlanıb. Şirvan və Qarabağ kanalları Taxtakörpü kanalı ilə birlikdə ən böyük suvarma kanalları olduğu üçün bu layihələrə xüsusi əhəmiyyət verilir. Ancaq artıq qəbul edilmiş proqram əsasında Azərbaycanda 10-dan çox su anbarı inşa ediləcəkdir. Məsələn, Qəbələ rayonundakı Yengicə Su Anbarının inşasına artıq start verilmişdir. O anbar inşa ediləndən sonra orada bu günə qədər suvarılmayan 10 min hektar torpaq, əkin sahələri suvarılacaq. Əgər bizim suvarma ilə bağlı ümumi layihələrimizi götürsək görərik ki, bir neçə ildən sonra, ən azı, 500 min hektardan çox torpağa su veriləcəkdir. Eyni zamanda, müasir idarəetmə sistemləri, itkilərin azaldılması – indi Şirvan kanalında itkilər 30 faizə yaxındır. İndi beton məcralı kanal inşa ediləndən sonra itkilər maksimum 5 faiz olacaq. Yəni, suya qənaət hər birimizin işidir, ilk növbədə, dövlətin və biz bu işi görürük.

Bunlar ancaq Azərbaycanın bir hissəsinə aid olan layihələrdir. Əgər biz işğaldan azad olunmuş ərazilərdə layihələri əlavə etsək, mənzərə daha ürəkaçan olacaq. Çünki Vətən müharibəsi və antiterror əməliyyatı nəticəsində biz bu gün öz su mənbələrimizə tam sahib olmuşuq. Vaxtilə Ermənistan təkcə bizim torpaqlarımızı yox, bizim su resurslarımızı da işğal etmişdir. Qarabağ və Şərqi Zəngəzurda mövcud olan su resursları bizim ümumi su resurslarımızın 25 faizini təşkil edir. Bu su resurslarının əsas xüsusiyyəti, müsbət tərəfi odur ki, bunlar daxili mənbələr hesabına formalaşan su resurslarıdır. Çünki bildiyiniz kimi, bizim əsas çaylarımız xaricdən gəlir – Kür çayı, Araz çayı, Samur çayı. Bizim əsas çaylarımız xaricdən gəlir, ona görə Qarabağın və Şərqi Zəngəzurun su resursları daxili mənbələr olduğu üçün bunun xüsusi əhəmiyyəti var. Biz qısa müddət ərzində böyük infrastruktur layihələrini icra etmişik və bu işlər davam etdirilir.

Bir müddət bundan əvvəl Ağdam rayonunda Xaçınçay Su Anbarının açılışı olmuşdur. Füzuli rayonundakı Köndələnçay Su Anbarının yaxın gələcəkdə açılışı olacaqdır. Hazırda Zabuxçay Su Anbarının inşası gedir. Suqovuşan Su Anbarı demək olar ki, yenidən qurulub və o anbardan çıxan iki kanalın biri artıq tam təmir edilib, ikinci kanal da təmir ediləcək və beləliklə, erməni işğalına görə sudan məhrum olmuş bir neçə rayona artıq su veriləcək. Yeni əkin sahələrinin həcmi 100 min hektara yaxın olacaq. Ona görə mən deyəndə ki, ən azı 500 min hektar torpağa su veriləcək, bunu nəzərdə tuturam. Nəzərə alsaq ki, Azərbaycanda suvarılan əkin sahələrinin həcmi o qədər böyük deyil, bu layihələrin xüsusi əhəmiyyəti var. Qarabağ və Şərqi Zəngəzurda digər böyük suvarma layihələri nəzərdə tutulur. Həkəriçay, Bərgüşadçay su anbarlarının və kanalların inşa edilməsi nəzərdə tutulur. İndi texniki-iqtisadi əsaslandırmalar hazırlanır və hesab edirəm ki, gələn ildən biz bu layihələrin icrasına da başlaya bilərik.

Təbii ki, bütün bunlar böyük vəsait tələb edir. Azərbaycan dövləti güclü dövlətdir, öz gücünə, öz imkanlarına arxalanan dövlətdir. Biz Qarabağda və Şərqi Zəngəzurda elə genişmiqyaslı işlər görürük ki, bunun dünyada misli-bərabəri yoxdur. Həm yaşayış evləri, infrastruktur layihələri, suvarma layihələri, dəmir yolları, tunellər, hava limanları – cəmi üç il ərzində görülmüş işlər dövlətimizin gücünü, hökumətimizin və dövlətimizin iradəsini göstərir. Dediyim bu layihələrin hamısı icra ediləcək. Hələ bunlardan başqa bir çox layihələr olacaq ki, sadəcə, onlar işin həcmi nöqteyi-nəzərdən daha kiçikdir. Amma hər bir layihənin əhəmiyyəti var və beləliklə, su ehtiyatları məhdud olan Azərbaycan bu sahədə də özünü tam təmin etmiş olacaq.

Bir layihəni də qeyd etməliyəm. İndi bu layihə üzərində iş aparılır. Bu da Xəzər dənizinin suyunun duzsuzlaşdırılması layihəsidir. Bu layihə həyata keçiriləndən sonra biz Xəzər dənizinin suyundan da həm suvarma üçün, həm içməli su kimi istifadə edəcəyik. Dünyanın bir neçə ölkəsi duzsuzlaşdırma sahəsində böyük təcrübəyə malikdir və bizim də Xəzər dənizi kimi böyük su hövzəmiz var. Təbii ki, biz bu imkandan da istifadə edəcəyik. Beləliklə, bu gün təməlini qoyduğum kanalın yaxın gələcəkdə çox böyük müsbət nəticələri olacaq.

Mən bir həftə bundan əvvəl Hacıqabul rayonunda yerləşən aqroparkın fəaliyyəti ilə tanış olmuşam. Mənə məlumat verildi ki, burada 4 mindən çox hektarda taxıl əkini aparılmışdır və məhsuldarlıq hər hektardan buğda üzrə 7 tona yaxın olmuşdur. İndi müqayisə üçün deyim ki, ölkəmizdə orta məhsuldarlıq hər hektardan 3 tondan bir qədər çoxdur. Burada - Hacıqabulda heç vaxt o sahələrdə əkin aparılmamışdır – nə sovet vaxtında, nə müstəqillik dövründə. Çünki su yox idi və torpaq da o qədər münbit deyil. Su olanda, yeni texnologiyalar tətbiq ediləndə, texnika, dövlətin dəstəyi, özəl sektorun fəaliyyəti – bütün bu amillər birləşəndə, bax, biz bu nəticəni görürük – Hacıqabulda hər hektardan 7 ton. Amma torpağı daim münbit olan yerlərdə bu rəqəm daha da arta bilər. Ancaq mən sizə deyim ki, hər hektardan taxıl üzrə 7 ton məhsuldarlıq - bu, inkişaf etmiş ölkələrin səviyyəsidir. Özü də bu, ərzaqlıq buğdadır ki, bizə ən çox lazım olan ərzaqlıq buğdadır. Biz hələ ki, idxaldan asılıyıq. Əgər bu texnologiyalar təkcə Şirvan kanalı boyunca, bax, orada göstərilən, yerləşən ərazilərdə tətbiq olunsa, onda biz idxaldan asılılığı böyük dərəcədə azaldacağıq. Sadaladığım digər layihələr icra edildikdə biz bəlkə də nə vaxtsa idxaldan, ümumiyyətlə, imtina edəcəyik.



230 min hektar əkin sahəsini əhatə edəcək. Bunun böyük hissəsi yeni suvarılacaq əkin sahələridir. Əgər əvvəlki dövrlərdə bu kanal 8 rayonu əhatə edirdisə, indi 10 rayonu əhatə edəcək və kanalın son nöqtəsi, bax, arxamdakı Hacıqabul gölü olacaq. Hacıqabul gölü də 10 ildən çoxdur ki, tamamilə quruyub. Kanal istifadəyə veriləndən sonra göl də dolacaq və bunun da təbiətə çox müsbət təsiri olacaqdır.

Bu layihə bir daha onu göstərir ki, Azərbaycanda həyata keçirilən infrastruktur layihələrinin əsas məqsədi ölkəmizin sürətli inkişafını təmin etmək, insanların rifah halını yaxşılaşdırmaq, xüsusilə bölgələrdə yaşayan insanların məşğulluğu üçün şərait yaratmaqdır. Son illər ərzində əsas infrastruktur layihələri icra edilmişdir. Azərbaycanda həyata keçirilmiş infrastruktur layihələri ölkəmizi tamamilə yeni bir səviyyəyə qaldırmışdır. Elektrik enerjisi, avtomobil yolları, dəmir yolları, su kəmərləri, içməli su layihələri, o cümlədən suvarma ilə bağlı olan layihələr artıq öz səmərəsini göstərir. Əvvəlki illərdə bu sahəyə aid bir çox böyük layihələr icra edilmişdir. Onların arasında, ilk növbədə, Taxtakörpü–Ceyranbatan suvarma kanalını qeyd etməliyəm. Taxtakörpü Su Anbarının tikintisi də xüsusi əhəmiyyətə malik olan layihə idi. Şəmkirçay Su Anbarı da çox böyük infrastruktur layihəsi idi. Beləliklə, həm Şimal, həm Qərb bölgələrində əkin üçün yararlı olan torpaqların həcmi və sahəsi böyük dərəcədə artırılmışdır.

Şirvan kanalının əhəmiyyəti də göz önündə olacaqdır. Bu, bizim ən böyük – suyun həcminə və əkin sahələrinin əhatəsinə görə ən böyük layihəmiz olacaqdır. Əminəm ki, yaxın gələcəkdə 10 rayon üzrə yerləşən məntəqələrdə bu yeni kanalın əhəmiyyətini hər kəs görəcək.

Bu layihə ilə biz bu sahəyə yeni nəfəs gətiririk. Eyni zamanda, Qarabağ kanalının da, – vaxtilə bu, Yuxarı Qarabağ kanalı adlandırılmışdır, indi isə bunun adı Qarabağ kanalıdır, – inşası ilə əlaqədar sərəncam imzalanıb, texniki-iqtisadi əsaslandırma aparılacaq və bu işin nəticəsində yeni layihə işlənib hazırlanacaq. Biz Qarabağ kanalının inşasına gələn ildən başlamalıyıq. Bu da 115 min hektarı əhatə edəcək kanaldır. Orada da əhatə olunan rayonların sayı 9-a bərabərdir. Yəni, burada 10 rayon Şirvan kanalı vasitəsilə, 9 rayon isə Qarabağ kanalı vasitəsilə suvarılacaq.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur torpaqlarında indi quruculuq işləri ilə bərabər, kənd təsərrüfatının inkişafı geniş vüsət almışdır. Oraya qayıdan vətəndaşlar artıq bu imkanlardan istifadə edirlər. Eyni zamanda, ən müasir texnologiyaların tətbiqi nəticəsində orada həm taxılçılıq, həm meyvəçilik, bostançılıq, üzümçülük geniş vüsət alacaq. Qarabağ və Şərqi Zəngəzur Azərbaycanın ən gözəl yerlərindən biridir və kənd təsərrüfatı üçün yararlı torpaqların, su resurslarının - çayların, bulaqların, yaylaqların mövcudluğu həm heyvandarlıq, həm də bitkiçilik üzrə çox böyük imkanlar yaradır. Biz hər şeyi planlı şəkildə edirik ki, hər qarış torpaqdan maksimum məhsuldarlıq, maksimum səmərə götürək və bunu edəcəyik.

Əminəm, Azərbaycan xalqı da tam əmindir ki, dediyimiz bütün sözlər, verdiyimiz bütün vədlər hər zaman yerinə yetirilir və bu gün dediyim, bu layihələrin icrası da tam təmin ediləcək. Biz üç ildən sonra – uzaqbaşı 2027-ci ilin sonuna qədər Şirvan kanalının da açılışını qeyd edəcəyik.

**AZƏRTAC**

# Azərbaycan–Serbiya əməkdaşlığı qarşılıqlı dəstəyə əsaslanır



Aprelin 16-da Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib və son dövrlərdə Serbiyanın məruz qaldığı təzyiqlər haqqında məlumat verərək dost Azərbaycan xalqının dəstəyini xahiş edib.

Prezident İlham Əliyev Azərbaycan və Serbiyanın qarşılıqlı surətdə həmişə bir-birilərinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədiklərini bildirərək bundan sonra da bu mövqenin davam etdiriləcəyini vurğulayıb. Bu xüsusda, iki ölkənin beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığı qeyd olunub.

Dövlətimizin başçısı Serbiya Prezidentini BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Bakıda keçiriləcək 29-cu sessiyasına dəvət edib.

Prezident Aleksandar Vuçiç dəvəti məmnuniyyətlə qəbul edib.

Söhbət zamanı Azərbaycan və Serbiya arasında əlaqələrin strateji tərəfdaşlıq xarakteri daşımasından məmnunluq ifadə olunub və ölkələrimiz arasında əlaqələrin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyəti bildirilib.

***Prezidentin Mətbuat Xidməti***

## “Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Türkiyə Respublikasının Ali Təhsil Şurası arasında Türkiyə–Azərbaycan Universitetinin (TAU) yaradılmasına dair Anlaşma Memorandumu”nun təsdiq edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2024-cü il fevralın 19-da Ankara şəhərində imzalanmış “Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Türkiyə Respublikasının Ali Təhsil Şurası arasında Türkiyə–Azərbaycan Universitetinin (TAU) yaradılmasına dair Anlaşma Memorandumu” təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkiyə Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 16 aprel 2024-cü il**

## F.Ə.Adıgözəlovun Azərbaycan Respublikası Dövlət Reklam Agentliyinin İdarə Heyətinin sədri təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fərhad Əsgər oğlu Adıgözəlov Azərbaycan Respublikası Dövlət Reklam Agentliyinin İdarə Heyətinin sədri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 16 aprel 2024-cü il**

## A.M.İbadovun Azərbaycan Respublikası Dövlət Reklam Agentliyinin İdarə Heyətinin sədri vəzifəsindən azad edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Aydın Münsüf oğlu İbadov Azərbaycan Respublikası Dövlət Reklam Agentliyinin İdarə Heyətinin sədri vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 16 aprel 2024-cü il**

# Ölkəmiz Avropa İttifaqının etibarlı yaşıl hidrogen tədarükçüsü olacaq

**Energetika naziri Pərviz Şahbazov Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında Əbu-Dabi Dayanıqlılıq Həftəsi çərçivəsində keçirilən Yaşıl Hidrogen Sammitində iştirak edib.**



“Yaşıl Hidrogen İqtisadiyyatlarını Sürətləndirmək üçün Milli Strategiyalar və Siyasətlər” üzrə Nazirlər Panelində energetika naziri hidrogenin Azərbaycanın transformativ inkişaf və enerji təchizatçısı gündəliyinin əsas komponentlərindən olduğunu qeyd edib. Xəzər dənizində 157 qiqavat külək enerjisi potensialı əsasında 28 qiqavatdan çox yaşıl enerji layihələri üzrə “Masdar”, “ACWA Power”, BP, “Fortescue” və digər beynəlxalq enerji şirkətləri ilə imzalanmış əməkdaşlıq sənədlərində yaşıl hidrogen istehsalının da nəzərdə tutulduğu vurğulanıb. Hazırda hidrogenin istehsalı ilə yanaşı, ixracı aspektində “Xəzər dənizi-Qara dəniz-Avropa”, “Mərkəzi Asiya-Azərbaycan-Avropa” yaşıl enerji dəhlizləri çərçivəsində beynəlxalq tərəfdaşlarla əməkdaşlıq edildiyi bildirilib.

“Yaşıl hidrogen ölkəmizin enerji təchizatında yeni mənbə və dəhlizlərlə mövqeyini möhkəmləndirməsi, həmçinin 2050-ci ilədək karbon emissiyalarını 40 faiz azalda bilməyimiz üçün mühüm əhəmiyyət daşıyır.“Xəzər-Qara dəniz-Avropa” yaşıl enerji dəhlizi vasitəsilə Azərbaycan yaşıl hidrogen üzrə də Aİ üçün etibarlı tədarükçü olacaq”, – deyə nazir əlavə edib.

***XQ***



# Güclü lider və dövlətçilik amalı – Azərbaycanın uğur təminatı

## *Tarixi paralellər*

**"XX əsr bu baxımdan xalqımız üçün çox böyük faciələr gətirmişdir. 1918-ci ildə təzə yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti özünün ilk qərarlarından birində bizim tarixi şəhərimizi – Yerevanı Ermənistana faktiki olaraq bağışlamışdır. Bu, bağışlanmaz bir addım idi, bu, xəyanət idi və cinayət idi. Bunu biz hamımız yaxşı bilirik, xalqımız da bunu bilməlidir. Biz heç vaxt tariximizi təhrif etməməliyik". Prezident İlham Əliyev bu fikri 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olarkən, həmin bölgənin bir qrup ziyalısı ilə görüşündə dilə gətirmişdi. Dövlətimizin başçısının dedikləri tariximizin acı reallığıdır. Elə bir reallıqdır ki, onun səslənməsində dərin ibrət yükü var.**

Müasir Azərbaycan hazırda öz tarixinin ən şanlı və əzəmətli dövrünü yaşayır. Bəzən bu əzəmət səhnələri fonunda baş verənlər insana yuxu kimi gəlir. Keçmiş barədə düşüncələrə dalır, gözlərimiz önündə gəldiyimiz yolun ayrı-ayrı mərhələləri canlanır. O zaman necə idik, indi necəyik? Azərbaycan hara, dünyanın siyasət nəhəngləri ilə bir sırada dayanmaq hara? Ancaq düşüncə və sualların ortaq nöqtəsi var – Azərbaycan haqqı çatana sahiblənib və sahiblənməkdədir.

Özünün çoxəsrlik dövlətçilik ənənələrini bərpa edən Azərbaycan bu ənənələri dövrün, zamanın tələblərinə uyğun zənginləşdirməyi bacarıb. Artıq onlar dövlətçilik ruhumuzun qidasıdır. O ruhun ki, onun sarsılmazlıq xüsusiyyətlərinin tərənnümü və təcəssümü baxımından iki böyük şəxsiyyətin obrazını canlandırmaq mümkündür – ulu öndər Heydər Əliyevin və onun siyasi kursunun layiqli davamçısı, Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin.



Güc amili həmişə öz sözünü deyib. Azərbaycanın dövlətçilik tarixinin təhlili göstərir ki, xalqımız güclü siyasi liderlərin mövcud olmadığı dövrlərdə məhrumiyyətlər yaşayıb, məşəqqətlərlə üzləşib. Nəticə etibarilə dövlətçilik ruhumuz da sındırılıb. Milli mənlik hissimizi çeynəyənlər bizə tarixən mövcud olmuş dövlətlərimizi unutdurmağa çalışıblar. Həlledici anlarda dövlət sükanını idarə etməyə, yaranmış vəziyyətdən optimal çıxış yolu tapmağa qadir güclü siyasi liderlərimizin olmaması öz sözünü deyib. Xalqımız ayrı-ayrı şəxslərin yol verdikləri tarixi səhvlərin əziyyətini çəkmək, həmin səhvlərin gətirdiyi məhrumiyyətlərə qatlaşmaq, acı səhnələrinin ağır yükünü çiyinlərində daşımaq məcburiyyətində qalıb.

Tarix ona sırf mühakimə nöqteyi-nəzərindən yanaşılmasını sevmir. Fəqət, baş verənlərdən nəticə çıxarılması şərtdir. Buna görə isə həqiqət öz adı ilə çağırılmadır. Yəni, xalq özünə faydalı olanı görmək üçün səhvləri mütləq şəkildə nəzərdən keçirməlidir. Güclü liderlər isə səhvə yol vermirlər. Çünki həmin səhvdən xalqın taleyinin asılı olduğunu bütün varlıqları ilə dərk edirlər. Onlar obyektiv amillərin yaratdığı durumları düzgün dəyərləndirib itkiləri minimallaşdırmağa çalışırlar.

Bəli, qətiyyətlə deyə bilərik ki, ulu öndər Heydər Əliyevin istər respublikamıza sabiq SSRİ zamanı, istərsə də müstəqil Azərbaycana rəhbərliyi dönəmi həm də tarixi səhvlərdən sığortalanma dövrüdür. Heydər Əliyev Vətənimizi yalnız səhvlərdən qorumadı, eyni zamanda, usta gedişləri ilə onların yaşanmaması üçün baza formalaşdırdı. Elə bir baza ki, həm də Azərbaycanın gələcək müstəqilliyi üçün mükəmməl idarəçilik formuluna çevrildi. Dövlətçilik təfəkkürünü əsas tutan formula. Şanlı ənənələrinə baxmayaraq, AXC dövrünün təhlili isə göstərir ki, həmin vaxt məhz dövlətçilik təfəkkürü son dərəcədə zəif olub. Nəticədə daxili çəkişmələr pik həddə çatıb, xəyanətkarlara qarşı lazımi tədbirlər görülməyib ki, bundan Azərbaycan xalqı zülm və zillət çəkib. Son nəticədə xalqın qanı –canı bahasına əldə edilmiş böyük uğur – uzun fasilədən sonra dövlətçiliyin bərpası öz məntiqi davamını tapmayıb, müstəqillik yollarında təlatümlər yaşanıb. Bütün bunlar iflas durumunu şərtləndirib. İndi XX yüzilliyin ikinci onilliyində yaşananlara nəzər salarkən, bu nəticəyə gəlmək mümkündür ki, torpaq güzəşti ritorikası – İrəvanın paytaxt kimi Ermənistana verilməsi ilə fəaliyyətə başlamış AXC-ni iflas perspektivinin yaxalamasında acı qanunauyğunluq var. Çünki bu güzəşt dövlətçilik ruhunun təslimiyyətidir. Prezident İlham Əliyevin əvvəldə diqqətə çatdırdığımız tarixin təhrifinin yolverilməzliyi məntiqindəki başlıca qayə budur.

Ancaq dövlətimizin başçısı mövzuya bir qədər əhatəli toxunması ilə də diqqət çəkib. Prezident bu il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində haqqında söz açdığımız torpaq güzəştinin həm tarixi cinayət motivləri üzərində dayanıb, həm həmin güzəştin digər bəlaların start nöqtəsi olduğunu vurğulayıb, həm də dolayısı ilə o zaman dövlət millətinə çevrilə bilməmənin, dövlətçilik təfəkkürünün mövcud olmamasının labüd trayektoriyasını cızıb: "1918-ci ildə Azərbaycan Demokratik Respublikası yaranandan bir gün sonra, əfsuslar olsun ki, İrəvan şəhəri Ermənistana verildi. Halbuki bunun heç bir əsası yox idi. Bu, qədim Azərbaycan şəhəridir. Azərbaycan xalqı əsrlər boyu orada yaşayıb və İrəvanın tarixi, yəni, bu gün silinməkdə olan tarixi görkəmi Azərbaycan memarlıq abidəsinin mövcudluğunu, çoxəsrlik mövcudluğunu təsdiqləyir. İrəvan o şəhərlərdəndir ki, sanki orada köhnə şəhər yoxdur, sadəcə olaraq, Azərbaycan şəhəri olub, o da sökülüb, dağılıb. O qərara gəldikdə isə mən hesab edirəm və yəqin ki, hamı mənimlə razılaşar, o böyük bir tarixi cinayət idi, səhv yox, cinayət. Birincisi, İrəvanda o vaxt yaşayan azərbaycanlılardan soruşulmadı. İkincisi, nə qaçaqaç idi? Hara tələsirdilər? Yəni, 28 Mayda respublika elan olunur, 29 mayda İrəvan Ermənistana verilir. Onun da izahatı heç bir məntiqə sığmır ki, bunu verməklə Ermənistan Azərbaycana qarşı ərazi iddialarından əl çəkir. Əl çəkdimi? Yox, daha da azğınlaşdı. İrəvandan olan nümayəndələrin – o vaxt Azərbaycan Xalq Cümhuriyyətində təmsil olunmuş nümayəndələrin etirazı nəzərə alınmadı. Yəni, o, böyük tarixi cinayət idi və o, bir başlanğıc idi".

Heydər Əliyevin AXC dövrü dövlət xadimlərinin səhvləri, sovet hakimiyyəti illərində Azərbaycana rəhbərliyi həyata keçirmiş şəxslərin səriştəsizliyi və laqeydlikləri səbəbindən ağır məhrumiyyətlər yaşamış – taleyinə acı səhifələr yazılmış, Zəngəzurun, Dərələyəzin itirilməsini, sürgünləri görmüş və daha neçə-neçə ərazi itkisi ilə üzləşməyə məcbur olan xalqa rəhbərliyi miras götürməsi XX əsr tariximizdəki dönüş nöqtəsi idi.

Qətiyyətlə deyə bilərik ki, itirdiyimiz dövlətçilik ənənələrinin bərpasına doğru yola məhz 1969-cu il iyulun 14-dən qədəm qoyduq – dahi şəxsiyyətin respublikamıza rəhbərliyə başladığı gündən. Həmin gün xalqımız Heydər Əliyevin simasında uzun illər arzusunda olduğu güclü siyasi liderini tapdı. O lider isə keçmiş SSRİ dövrünün bütün maneələrinə baxmayaraq, Azərbaycanı qabaqcıl mövqelərə çatdırdı. Ən əsası isə Ulu öndər Ermənistana, Prezident İlham Əliyevin təbirincə desək, "torpaq hədiyyələrinin" qarşısını aldı: "1920-ci ilin aprelində sovetləşmədən sonra noyabr ayında artıq sovet hökuməti Qərbi Zəngəzurun böyük hissəsini Azərbaycandan qoparıb Ermənistana vermişdir. Bu da tarixi faktdır, xəritələr var, XX əsrin əvvəlinin xəritələri var. Azərbaycan Xalq Cümhuriyyətinin xəritəsi var və orada Zəngəzur, – şərqi, qərbi yoxdur, – bütün Zəngəzur Azərbaycan ərazisidir və bu, sovet dövründə baş verib. Belə torpaq hədiyyələri illər keçdikcə davam edirdi. Sonuncu torpaq hədiyyəsi 1969-cu ilin may ayında edilmişdir. O vaxta qədər hissə-hissə bizim torpaqlarımız Ermənistana verilirdi və təxminən 100 min kvadratkilometrdən, – mən Azərbaycan Xalq Cümhuriyyətinin ərazisini nəzərdə tuturam, – 86,6 min kvadratkilometrə düşdü. Heydər Əliyev 1969-cu ilin iyul ayında rəhbər seçiləndən sonra artıq bu torpaq hədiyyələri, bu proses dayandı. O vaxta qədər hissə-hissə verilirdi".

Bəli, ulu öndər Heydər Əliyevin SSRİ-dəki hakimiyyət olimpindən uzaqlaşdırılması Azərbaycanın faciələrinə yol açdı, erməni avantürizmi yeni və daha azğın mərhələsinə qədəm qoydu, Qarabağ problemi baş qaldırdı, o zamankı Bağırov, Vəzirov, Mütəllibov kimi "oyuncaq liderlər" isə mövcud duruma təsir göstərmək gücünə malik olmadılar, onların fəaliyyətsizliyi xalqı fəlakətə sürüklədi. Fəlakət ssenarisi XX əsrdə ikinci dəfə qazandığımız müstəqilliyin dadını damağımızda qoydu. Belə bir məqamda xalqın təkidi ilə Heydər Əliyevin hakimiyyətə dönüşü siyasi liderlik örnəyinə çevrilməklə yanaşı, xəyanətlərin qarşısını aldı, Azərbaycanı məhvdən xilas etdi.

Böyük düha sahibi, ümumi şəkildə ifadə etsək, beş mühüm vəzifənin reallaşdırılmasına başladı. Birincisi, millətə dövlət təfəkkürünü aşıladı, insanlarımız dövlət millətinə sahiblik ruhuna kökləndilər. İkincisi, növbəti itkilərin qarşısına xətt çəkdi, Birinci Qarabağ müharibəsindəki uğursuzluq dayandırıldı. Üçüncüsü, dahi lider xəyanət sindromunu aradan qaldırdı, dövlətə qarşı baş qaldıran elementləri sıradan çıxardı. Dördüncüsü, Azərbaycanı sabit inkişaf yoluna çıxardı. Beşincisi və ən başlıcası Qarabağ məsələsini xalq davası şəklinə gətirdi. O, nəinki yerli əhalini, eyni zamanda, xarici aləmi də davanın müqəddəsliyinə, haqqa söykəndiyinə, ədalətə tapındığına inandırdı. Bu dahi şəxsiyyət elə bir beynəlxalq platforma və tribuna olmadı ki, orada Qarabağ həqiqətlərindən bəhs etməsin, respublikamıza münasibətdəki destruktiv yanaşmaları puça çıxarmasın. Dünya Heydər Əliyevin şəxsində güclü və qətiyyətli Azərbaycan liderini gördü. Onun rəhbərliyi Azərbaycan üzərindəki qoruyucu çətir oldu. Lakin müdafiədən hücuma keçməyin də vaxtı yetişmişdi.

Nəzərə alaq ki, real siyasət məhz Heydər Əliyev şəxsiyyəti kimi liderlərin davranışlarına, bütövlükdə, cəmiyyət həyatına təsir göstərən praqmatik və rasional qərarlarına istinad edir. Hakimiyyəti xalqa güvənən, onun dəstəyini daim hiss edən ləyaqətli, peşəkar siyasətçi idarə edəndə dövlət daha qüdrətli olur, inanılmaz nəticələr qazanır. İstər bu amilə, istərsə də 2003-cü ildən sonra Azərbaycanda yaşanan proseslərə diqqət yetirərək, tam əminliklə deyə bilərik ki, Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin böyük siyasət meydanındakı məğlubedilməzlik təminatıdır.

İlham Əliyev Ulu öndər obrazındakı möhkəm iradənin zamanın yeni şərtlərinə məharətli şəkildə uyğunlaşma formuludur. Görünür, elə buna görə də Ümummilli lider 2003-cü ilin 15 oktyabr prezident seçkiləri ərəfəsində – oktyabrın 1-də Azərbaycan vətəndaşlarına ünvanladığı müraciətində demişdi: "...Üzümü Sizə – həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Ümummilli liderin bütün hesablamaları düz çıxdı. Siyasət meydanındakı məğlubedilməzlik də məhz budur. Prezident İlham Əliyev həyata keçirdiyi daxili və xarici siyasət kursu ilə müdafiədən hücuma keçmək üçün möhkəm zəmin formalaşdırdı. Azərbaycana qarşı beynəlxalq miqyasda ikili standartların mövcudluğu şəraitində qarşıya qoyulmuş məqsədin gerçəkləşdirilməsi son dərəcə çətin idi. Bu yolda axına qarşı üzmək də tələb olunurdu, nəbzi tutaraq irəliləmək də. İlham Əliyev özünün liderlik keyfiyyətləri, xalqının və dövlətinin maraq və mənafelərini hər şeydən üstün tutmaq potensialı ilə nəhəng siyasət burulğanındakı təlatümləri aradan qaldırdı.

Güclü siyasi lider xarakterinə malik İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan nəinki regional, eyni zamanda, qlobal faktordur. İndi ölkəmizlə hesablaşırlar. Daha kimsə, heç bir qüvvə düşünə bilməz ki, Cənubi Qafqaz coğrafiyasından Azərbaycan dövləti adlı varlığı silib-süpürmək, onu yox etmək mümkündür. 1991-ci ildə əldə etdiyimiz müstəqilliyin ən böyük bəhrəsi də elə qeyd etdiyimiz bu statusa yiyələnməkdir.

Əlbəttə, hazırkı mövqeni heç də asanlıqla qazanmamışıq. Dünyanın güc amili ilə hesablaşdığı şəraitdə həmin gücün ideyasının, mənəvi platformasının, məfkurəvi strukturunun mövcudluğu şərtdir. Bu amil gücə müqəddəslik formulu qatır. Heydər Əliyev şəxsiyyəti Qarabağ davamızı haqq və ədalət mübarizəsi kimi təqdim etdiyi kimi, mübarizəyə müqəddəslik libası da biçmişdi. Prezident İlham Əliyev Ulu öndərin Qarabağ davasına qazandırdığı müqəddəslik görkəmindəki haqq və ədalət cizgilərini daha da dolğunlaşdırdı, müqəddəslik libasına zamanın diktəsinə uyğun prinsipiallıq və qətiyyət naxışları gətirdi.

Beləliklə, 2003-cü ildən başlayaraq, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi altında hər gün Qarabağ hədəfinə doğru irəlilədi. Dövlətimizin başçısı diplomatik təcrübəsi, erudik təfəkkürü sayəsində hədəfə aparan yoldakı maneələri yüksək məharətlə aradan qaldırmağı bacardı. Məhz belə sistemli yanaşmanın nəticəsi idi ki, ölkəmiz iki yüz illik erməni planını cəmi 44 gündə alt-üst etdi. Azərbaycan tarixində neçə əsrdən sonra bir ilk yaşandı – biz bizə aid olanı özümüzə qaytarmağa müvəffəq olduq.

Prezident İlham Əliyevin simasında xalqımız qələbələrini qoruyur və inkişaf etdirir. İlham Əliyev şəxsiyyətinin yaratdığı qalib xalq obrazı müstəqil dövlətçiliyimiz üçün əbədi təminat faktorudur. Bu təminat xalqın öz liderinə güvənməsindən nəşət alan bənzərsiz nümunədir, nəsillərə miras qalacaq misilsiz nemətdir. Belə etimadın nəticəsidir ki, Azərbaycan dünyanın inkişaf etmiş ölkəsinə çevrilmək üzrədir. Əminik ki, güclü siyasi lider kimi İlham Əliyevin müdrikliyi xalqımızı bundan sonra da qələbələrdən –qələbələrə aparacaq.

***Əvəz CAHANGİROĞLU***
***XQ***

# Uzaq Kanada Qafqazda nə axtarır?

## *Destruktiv qüvvələrin bölgəyə müdaxiləsi Ermənistana yaxşı heç nə gətirməyəcək*

**Kanadanın xarici işlər naziri Melani Joli keçən ilin oktyabrında İrəvana səfərində Avropa İttifaqının Ermənistanla Azərbaycan sərhədində yerləşdirilmiş mülki missiyasına ölkəsinin də qoşulacağı barədə verdiyi vədə əməl etdi. Kanadalı ilk ekspert Aleksandr Qruşevski Aİ-nin Ermənistandakı mülki missiyasının sıralarına qoşulub. Bu barədə "X" sosial platformada paylaşım edən "ekspert" yeni səlahiyyətindən çox məmnun qaldığını sevincək şəkildə qeyd edib. Missiyanın İrəvandakı ofisinin "X" sosial şəbəkəsində dərc olunan bəyanatında isə deyilir: "Kanada bu missiyanı dəstəkləyən ilk üçüncü ölkədir (yəni, Aİ üzvü olmayan, kənar ölkə – red.)".**



Bunun erməni lobbisinin anti–Azərbaycan kampaniyasına cəlb etdiyi Ottavanın birinci və axırıncı "qələti" olmadığı şübhəsizdir. Okeanın o tayındakı uzaq və soyuq Kanadanın isti Cənubi Qafqazda baş verənlərdən xəbərsiz Azərbaycana qarşı qərəzli davranışına daha təəccüblənmirik. Bu qərəzin bariz nümunəsini ölkənin xarici işlər naziri Melani Joli keçən il oktyabrın 25-də İrəvana səfəri zamanı "nümayiş etdirmişdi". Diqqətli oxucuların yadında olar. Həmin səfəri zamanı xanım Joli ölkəmizə qarşı yalan və iftiralar səsləndirməklə kifayətlənməmiş, həddini aşaraq, Azərbaycana sanksiyaların tətbiqi variantının da istisna olunmadığını demişdi. Azərbaycanla təhdid dilində danışmağa cürət edən ermənipərəst Melani Jolinin Qarabağdan könüllü çıxanların Bakıdan geri qayıtmasına şərait yaratmaq tələbini, Azərbaycanı "etnik təmizləmə"də günahlandırmasını da unutmamışıq.

### Sülhə qənim kəsilənlər

Faktiki olaraq, ABŞ-ın ştatlarından biri hesab olunan, nəinki xarici siyasət kursunu, hətta diplomatik çıxışlarını belə Vaşinqtondan aldığı təlimatlara uyğun kökləyən Kanadanın Cənubi Qafqaza "müdaxiləsi" də həmin mərkəzin ssenarisinin tərkib hissəsidir. Məgər Ağ evin razılığı olmasaydı, nazir Joli altı ay bundan əvvəl Ermənistanın Azərbaycanla şərti sərhədinə baş çəkə bilərdi? Bəlkə də, o, bu hərəkəti ilə beynəlxalq konvensiyanın tələblərini pozduğunu heç anlamamışdı. Kanadanın beynəlxalq hüquqa saymaz münasibəti üçün, bu, ilk hal deyildi. Ölkəsindəki azsaylı xalqların hüquqlarının tanınmaması üçün hər cür oyundan çıxan, imzaladığı beynəlxalq sənəddən imtina edən dövlətdən ayrı nə gözləmək olar?

Bu gün Ottavanın Azərbaycana qarşı qərəzli davranışının arxasında, heç şübhəsiz, haypərəst Fransa dayanır. Məhz Parisin Kanadanı bölgəmizdəki məkrli oyunlarına ortaq edərək separatçıların dəyirmanına su tökməyə çalışdığı gün kimi aydındır.

"Ermənistanla Azərbaycanın şərti sərhədində İrəvanın törətdiyi təxribatlara göz yuman Avropa İttifaqının mülki missiyasına bir müşahidəçinin əlavə olunması heç nəyi dəyişməyəcək". **Mövzu ilə bağlı "XQ"-yə açıqlama verən Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxovun qənaətinə görə,** ka-



nadalının da qatıldığı o missiyadakıların məqsədi məlumat toplamaq, mövqelərimizə nəzarət etmək, eyni zamanda, öz ölkələrinə, İttifaqın rəhbərliyinə hesabat verməkdir: "Bəli, onların məqsədi kəşfiyyat xarakterli fəaliyyətdir. İndi, sadəcə olaraq, bu fəaliyyəti daha da genişləndirərək, məlumat bankını zənginləşdirməyə çalışırlar. Reallıq ondan ibarətdir ki, əgər sərhəddə sabitliyə nail olmaqdan ötrü missiyanı genişləndirməyi düşünürlərsə, ciddi yanılırlar. Çünki atdıqları addımlarla sabitliyə heç cür nail olmayacaqlar. İndi əsas məsələ iki ölkə arasında sülh sazişinin imzalanmasıdır. Bunu yaxşı anlasalar da, görünür, niyyətləri tamamilə başqadır. İrəvan buna razıdırsa, dünyanın bütün ölkələrindən Avropa missiyasına nümayəndələr cəlb eləsin. Onda Ermənistan hakimiyyəti nəyə nail olacaq?".

Tanınmış politoloq hazırkı durumda rəsmi İrəvanın bölgədəki kövrək sabitliyə və sülh danışıqlarına kölgə salmağa xidmət edən hərəkətlərinin son olaraq, özü üçün acınacaqlı nəticələrə gətirib çıxaracağına diqqəti çəkdi: "Sadəcə, rəsmi İrəvan nəticələri düşünmədən addımlar atır. Amma burada söhbət, ilk növbədə, sülh sazişindən, sərhədlərin delimitasiyasından getməlidir. Bu məsələlərin sırasında Ermənistanın hələ də nəzarətdə saxladığı bizim kəndlərin qaytarılması da var. İrəvan Avropa İttifaqına üzv olmayan Kanada kimi dövlətləri missiyaya cəlb etməklə heç nəyə nail olmayacaq. Çünki həmin missiya gündəlikdə durmayan, aktual olmayan məsələlərlə tərəfləri əsas hədəfdən yayındırmağa çalışır".

### "Bu, Ermənistana dəstək mesajıdır"



ABŞ, Fransa və Avropa İttifaqının Azərbaycan–Ermənistan münasibətlərinə müdaxiləsi bölgədə qeyri-sabitlik mühiti yaradır. Paris və Brüssel geosiyasi ambisiyaları rəhbər tutaraq, Vaşinqtonla birgə Cənubi Qafqazda sabitliyin pozulmasına səbəb olacaq "sülhyaratma missiyası"nı İrəvana "sırımaqda" davam edir. Bu zaman ön cəbhəyə Aİ-nin mülki missiyası çıxarılır.

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri Fərid Şəfiyev Aİ-nin müşahidə missiyasının fəaliyyəti və müddətinin Bakı ilə razılaşdırılmadığını bir daha nəzərə çatdırdı:**



"Bu barədə fikrimizi əvvəlcədən bildirmişdik. Ermənistana göndərilən Avropa İttifaqı missiyasının tərkibindən danışmaq lazımdır. Ondan başlayaq ki, əvvəlcə həmin missiyanın fəaliyyəti ilə bağlı Azərbaycanla məsləhətləşmələr aparıldı. Amma sonradan Bakı ilə heç bir müzakirə və razılaşma olmadan mülki missiyasının fəaliyyət müddətinin uzadılmasına qərar verildi. İkincisi, ümumiyyətlə, bu mülki missiyanın otuz il işğal altında qalmış sərhəd zolağında yerləşdirilməsi, Ermənistanın ərazi bütövlüyünü dəstəklədiyi barədə açıqlamaları siyasi mesajdır. Yəni, həmin mesaj ondan ibarətdir ki, biz bu münaqişədə birmənalı şəkildə Ermənistanı dəstəkləyirik".

F.Şəfiyev Aİ üzvü olmayan uzaq Kanadanın Ermənistanla Azərbaycanın şərti sərhədinə öz təmsilçisini göndərməsini İrəvana siyasi dəstək nümayişi kimi qiymətləndirdi: "İndi Kanada təmsilçisinin də şərti sərhəd zonasına göndərilməsi, sadəcə, siyasi mesajdır. Bəli, missiya Ermənistanı dəstəkləyə bilər, amma burada söhbət ondan gedir ki, əgər bu, Avropa İttifaqının missiyasıdırsa, Kanadanın orada nə işi var? Əlbəttə, bu, həm Avropa İttifaqının, həm də Kanadanın mesajıdır. Artıq aydın olur ki, vaxtilə işğala gözünü qapadan Avropa İttifaqı indi açıq-aydın Ermənistanı dəstəkləyir".

### İrəvan mövqesizliyinin altını çəkəcək

Ortada görünən çılpaq həqiqət həm də ondan ibarətdir ki, iki ölkə arasında üç il yarıma yaxındır davam edən normallaşma prosesinin ləngiməsi Ermənistan hakimiyyətinin ikibaşlı mövqeyi ilə birbaşa əlaqədardır. Sülhyaratma prosesində vasitəçilərin moderatorluğu ilə aparılan danışıqların nəticəsiz qalmasının səbəbi məhz rəsmi İrəvanın mövqesizliyidir. Bu gün sülhə sadiqliyini bildirən, sabah isə buna tərs mövqe nümayiş etdirən Paşinyan iqtidarı hələ də müstəqil qərar verməyə cürət eləmir. Amma bu "manipulyativ oyunların" fəsadlarını sonda özü çəkəcək.

**Siyasi icmalçı Tofiq Abbasov hesab edir ki,** Fransa Avropa İttifaqı və ABŞ-la birlikdə anti-Azərbaycan koalisiyasının tərkibini və təmsilçiliyinin sayını



artırmağa çalışır: "Amma nəzərə almırlar ki, həmin Avropa İttifaqında Azərbaycanın mövqeyi kifayət qədər güclüdür. Bu qurumun üzvü olan doqquz ölkə ilə ikitərəfli faydalı əməkdaşlığımız var. Onlar həm də bu səbəbdən Aİ daxilindəki separat danışıqlardan çəkinirlər. Belə təxribata qol qoyan Kanadanın isə bölgədəki proseslərə qətiyyən aidiyyatı yoxdur. Doğrudur, Ottava Helsinki aktına imza atıb, Avroatlantik məkanda baş verənlərə bu ölkəni də cəlb ediblər. Amma üzdə görünən odur ki, Bakıya qarşı siyasi kampaniyada ABŞ-ın, eləcə də Avropanın bir çox dövlətlərinin daxili müşkülləri var. Məhz öz problemlərini aradan qaldırmaq üçün, belə demək mümkünsə, "effektli təəssürat" yaratmağa, Azərbaycanda bunun inikasını meydana gətirməyə çalışırlar".

Rəsmi Bakının Qərbin bu tip avantürist fəaliyyətindən çəkinmədiyini dilə gətirən siyasi icmalçı Ermənistanın istənilən xarakterli naqolay hərəkətinə dərhal adekvat cavab veriləcəyinə əminliyini vurğuladı: "İndi Ermənistan ordusu "hücum" xarakterli təlimlər keçirir. Bu təlimlərə kifayət sayda zabit və əsgər cəlb olunub. Təbii ki, bütün bunlar faydasız güc nümayişidir. Aİ-nin müşahidəçilərinə gəldikdə isə, əgər Avropa və ABŞ bu işə xeyir-dualarını veriblərsə, istənilən halda həmin mülki missiyanı gücləndirməyə çalışacaqlar. Mənasız cəhdlərdir. Onlar, sadəcə, Ermənistan vasitəsilə Cənubi Qafqaza öz hərbi kontingentini gətirməyi hədəfləyirlər. Bu variantda loqistika və digər məsələlərdə, guya, mülki missiya öz rolunu oynayacaq. O cümlədən Azərbaycan–Türkiyə tandeminə təsir imkanlarını artırmaq barədə düşünürlər. Eləcə də Türkiyə ilə Rusiyanı, İranla Türkiyəni toqquşdurmaq planları üzərində də işləyirlər. Yəni, bu məkrli niyyətlərini reallaşdırmaqdan ötrü indi Qərbə bölgədə hərc-mərclik lazımdır".

Qərbin anti–Azərbaycan koalisiyası öz planlarını qurmaqda olsunlar, fəqət Bakı "Qafqaz evi"nin sakini, "3+3" formatının əsas oyunçusu kimi, üzərinə düşən vəzifəni, atılacaq addımları çox yaxşı bilir. Eləcə də digər oyunçular da artıq anlayıblar ki, istənilən risklərin, mənfi təsirlərin qarşısı birgə səylərlə alınmalıdır. Yeganə Ermənistandır ki, bu sağlam yanaşma ilə barışmaqda çətinlik çəkir. Amma onu da anlamamış deyil ki, Cənubi Qafqazdan, sözün hər mənasında uzaq olan Fransa və Kanada kimi destruktiv ölkələrin bölgəyə müdaxiləsi İrəvana heç bir dividend gətirməyəcək.

"Dünyanın o başında oturub bizə qarşı əsassız ittihamlar irəli sürənlər əl çəksinlər bizdən! Qoysunlar Cənubi Qafqaz rahat nəfəs alsın. Bu bölgə əsrlər boyu savaşlar, qanlı toqquşmalar məkanı olmuşdur. Yetər artıq! Biz bunu tələb edirik!". Azərbaycan Prezidenti İlham Əliyev 2023-cü il sentyabrın 20-də xalqa müraciətində bu sözləri məhz Kanada kimi riyakar ölkələrə ünvanlamışdı. İşğalçıya dəstək verən Qərbin bəzi dövlətlərinin Azərbaycana qarşı hüquqa və məntiqə söykənməyən ittihamlar irəli sürmələri, ermənisayağı avantüralar səsləndirmələri Cənubi Qafqazı yenidən hərb meydanına çevirməyə hesablanıb. Həmin aktorlar hələ də anlamaq istəmirlər ki, onların məkrli "ssenarinin" gerçəkləşməsini şərtləndirə biləcək zaman və reallıq amilləri artıq bölgədə mövcud deyil.

***İmran BƏDİRXANLI***
***XQ***

# Paşinyan və uydurma "erməni soyqırımı"

## *Mifdən imtina avantürizmə üstün gələcəkmi?*

**Ermənistanın hakim "Vətəndaş sazişi" partiyasının deputatı Andranik Koçaryanın söylədikləri ölkənin siyasi həyatında bomba effekti yaradıb, – desək, yanılmarıq. A.Koçaryan bildirib ki, baş nazir Nikol Paşinyan 1915-ci ildə Osmanlı İmperiyasından deportasiya zamanı 1,5 milyon ermənin öldüyünə inanmır: "Baş nazir Nikol Paşinyan 1915-ci ilə inanmır. Erməni "soyqırımı" (qondarma – red.) ilə bağlı tarixi faktlar dəqiq deyil. Bilinmir ki, Qərbi Ermənistanda (Türkiyədə) 1,5 milyon erməni həqiqətən də qətlə yetirilib, işgəncələrə məruz qalıb və öldürülüb. Paşinyanın, əslində, öz hökmü var. O, işgəncələrə məruz qalan ermənilərin şəxsi məlumatlarını tapmaq, oxumaq, saymaq və əmin olmaq istəyir. Tarixi faktlar, mövcud elmi əsərlər və qərarların çoxluğu onu qane etmir", – deyə deputat bildirib.**

Koçaryanın sözlərinə görə, Paşinyanın qondarma soyqırımı ilə bağlı real əsaslar qurmaq və daha obyektiv siyahı hazırlamaq məqsədi var: "İndi deyirik ki, 1,5 milyon erməni qırğına məruz qalıb. Arxivlərdən bu milyon yarımın ad və soyadını tapmalıyıq, "Soyqırımı muzeyi"nin divarlarına onların ad və soyadları vurulmalıdır".

Qeyd edək ki, Prezident Rəcəb Tayyib Ərdoğan, o cümlədən Türkiyə rəsmiləri dəfələrlə bildiriblər ki, qondarma soyqırımı iddiaları ilə bağlı bütün arxivlərin açılmasına razıdırlar. Lakin bu fikir Ermənistan rəhbərliyi tərəfindən nəzərə alınmayıb. Ölkənin N.Paşinyana qədərki iqtidarı, ümumən xaricdəki erməni lobbi və diaspor təşkilatları rəsmi Ankaranın yanaşmasına əhəmiyyət verməyərək, "erməni soyqırımı" iddiasını Türkiyəyə qarşı siyasi dividend kimi istifadə ediblər. Görünür, Nikol durumu dəyişmək niyyətindədir. O, çox yaxşı başa düşür ki, İrəvanın Ankara ilə münasibətlərinin sahmana salınması üçün başqa çıxış yolu yoxdur.

Məsələ ondadır ki, qondarma iddianın ilhamvericisi qismində həm də Fransa çıxış edir. Ölkədə, hətta, "erməni soyqırımı"nın kriminallaşdırılması da həyata keçirilib. Belə ki, saxta məsələni danan hər kəsin cinayət məsuliyyətinə cəlb olunması mütləqdir. Bu şəraitdə sual



yaranır: Arxivlər açılsa və rəsmi qaydada müəyyənləşsə ki, soyqırımı adlı şey olmayıb, o zaman Fransa nə edəcək?

Əslində, Qərbin "erməni soyqırımı"nı Türkiyəyə qarşı təsir vasitəsi kimi nəzərdə tutduğu və bununla bağlı oturuşmuş baxışın formalaşdığı hazırkı şəraitdə Paşinyanın A.Koçaryan tərəfindən ifadə olunmuş mövqeyi ilə bağlı suallar çoxdur. Onu da nəzərə alaq ki, məsələnin xəstə erməni ictimai rəyində ciddi müzakirə predmetinə çevrildiyi hazırkı şəraitdə Nikol axına qarşı üzmək potensialından uzaqdır. Baş nazirin yekunda cəmiyyətin avantürist fikirləri ilə hərəkət etdiyi də aşkar həqiqətdir. Yəni, Paşinyanın mövqeyi sürüşkəndir.

Yeri gəlmişkən, "xəstələr" artıq fəaliyyətə başlayıblar. Onlardan biri Ermənistanın xüsusi tapşırıqlar üzrə sabiq səfiri Edmon Marukyandır. Marukyan, necə deyərlər, açıb sandığı, töküb pambığı. O, ölkədə Azərbaycanın və Türkiyənin maraqlarına xidmət edən ekspertlərin adlarını açıqlamaqla diqqəti özünə yönəldərək, xüsusi tapşırıqlar üzrə səfir kimi çalışdığı dövrdə potensial "vətən xainlərini" müşahidə etdiyini bildirib. Kimdir həmin xainlər? Ekspert Armen Çibuxçyan və sosioloq Karen Sarkisyan: "Mən işlədiyim bütün dövr ərzində (xüsusi tapşırıqlar üzrə səfir – red.) müxtəlif şəxslərin özlərini ekspert və ya analitik adlandıraraq, Ermənistanın maraqlarına uyğun gəlməyən açıq təbliğat apardıqlarının və aparmağa davam etdiklərinin şahidi oldum. Onların dediklərinin 80 faizi açıq-aşkar yalan və təbliğat, qalanı isə yarı həqiqət və təbliğat toplusudur".

E.Marukyan vurğulayıb ki, tutduğu vəzifəyə görə Ankara və Bakının bölgədə nə istədikləri haqqında gözəl məlumata malikdir. "Bu adamlar (A.Çibuxçyan və K.Sarkisyan – red.) isə bütün çıxışlarında açıq-aydın Türkiyə və Azərbaycanın əldə etmək istədikləri üçün lobbiçilik ediblər", – deyən keçmiş səfir Bakı və Ankaranın potensial lobbiçilərinin adlarını davamlı olaraq açıqlayacağını diqqətə çatdırıb və hələlik A.Çibuxçyanın və K.Sarkisyanın adlarını çəkməklə kifayətlənib, qonaq olduğu yerli televiziyanın efirindən hər ikisinə ittiham yağdırıb. Onun sözlərinə görə, ekspertin və sosioloqun fəaliyyəti ictimai əhvali-ruhiyyənin düzgün formalaşmasına mənfi təsir göstərir. Bu da son nəticədə, guya, ölkəyə ziyan vura, qanla dolu ictimai-siyasi cərəyanların formalaşmasına gətirib çıxara bilərmiş...

E.Marukyan onu da bildirib ki, A.Çibuxçyan təhlillərini yarı həqiqətlər və yarı yalanlar əsasında təqdim edir. Onun fikrincə, belə yanaşma Ankaranın və Bakının maraqlarının gözəl tərtibatlı təbliğatıdır. Qeyd edək ki, A.Çibuxçyan 2017-ci ilə qədər Ermənistanda yaşayıb və həmin müddət ərzində "Yerkir Media" və "İkinci" telekanallarında işləyib. İndi ömrünü ABŞ-da davam etdirir. Daha doğrusu, Birləşmiş Ştatlarda özünün "YouTube" kanalını açaraq fəaliyyət göstərir. Marukyan onun nə müvafiq təhsilinin, nə də beyin mərkəzlərində işləmək təcrübəsinin olduğunu dilə gətirib. Keçmiş səfir, eyni zamanda, bildirib ki, özünü analitik kimi təqdim edən A.Çibuxçyan Azərbaycanın və Türkiyənin gündəliyini təbliğ etməklə pul qazanır. Marukyan Çibuxçyanı adi "macəraçı və fırıldaqçı" adlandırmaqdan da çəkinməyib.

İkinci personaj sosioloq K.Sarkisyana gəlincə, o, Ermənistanda yaşayır. Marikyan nə qədər çalışsa da, bu şəxsin tərcümeyi-halı ilə bağlı heç bir məlumat tapa bilmədiyini açıqlayıb. "Biz" blokunun tərkibində seçkilərdə iştirak edərkən verdiyi açıqlama onun işsiz olduğunu göstərirdi. Həqiqətən sosioloq kimi fəaliyyət göstərdiyini fərz etsək belə, qeyd edə bilərəm ki, o, akademik bilik bazasına maliklik baxımından aidiyyatı olmayan mövzuları təhlil edən şəxsdir. Lakin bu şəxs aktiv fəaliyyət göstərir. O, adi bir avantüristdir, amma 100 min baxış toplayır", – deyən E.Marukyan Sarkisyanın "Türkiyə bizim düşmənimiz deyil" kimi bəyanatlarının müəllifi kimi populyarlıq qazandığından söz açıb. Keçmiş səfir, həmçinin sosioloqun "Bizim düşmənimiz Rusiyadır. Türkiyə Böyük Yeğernin arxivlərini açanda çoxları şokedici məlumatlarla qarşılaşacaq" kimi bəyanatlarına diqqət çəkib.

Ən əsası isə Marukyan bildirib ki, istər A.Çibuxçyanın, istərsə də K.Sarkisyanın apardıqları təbliğat Türkiyənin üzərindən "erməni soyqırımı"nın törədilməsinə görə məsuliyyətin götürülməsinə hesablanıb. Onun fikrincə, bu işin gerçəkləşməsi başlıca məqsədə çatmaq üçün lazımdır: "Başlıca məqsəd Türkiyənin Ermənistanda hərbi bazasının yerləşdirilməsinə haqq qazandırmaq və "Zəngəzur dəhlizi" ideyasının gerçəkləşməsinə dəstək olmaqdır".

Göründüyü kimi, N.Paşinyanın "erməni soyqırımı" ilə bağlı mövqeyinə qarşı əks fikirlər baş qaldırmaqdadır. Baş nazirin dediklərini çatdıran A.Koçaryan isə vurğulayır ki, Ermənistan tərəfi 1,5 milyon ermənənin soyqırımına məruz qaldığını bildirirsə, həmin şəxslərin adlarını və soyadlarını təqdim etməlidir. "Yoxsa qarşı tərəf deyəcək ki, belə şey heç vaxt olmayıb. Elə deyirlər də…" fikrini bölüşən hakim partiyanın deputatının özünü də Türkiyəyə işləməkdə günahlandıranların aktiv hərəkətə keçdikləri məlumdur. Onlar Koçaryanın dilə gətirdiklərinin Ankaranın tezisləri olduğunu vurğulayır, beləliklə, həm Türkiyəyə, həm də Azərbaycana nifrət aşılayırlar. Bu qüvvələr revanşizmi və şovinizmi təbliğ etməklə, bütövlükdə Cənubi Qafqaz regionunda sülhün formalaşmasına əngəl yaradırlar.

Əvvəldə də bildirdiyimiz kimi, iradəsiz və prinsipsiz baş nazir N.Paşinyan və komandasının üzvləri nə qədər konstruktiv yüklü bəyanatlar versələr də, yekunda belə avantüristlərin çaldıqları havalara qol qaldırırlar.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Yeni tarixi mərhələdə milli ideya

**VIII MƏQALƏ**

**Hər bir xalqın özünün böyük milli ideyası var.**

**İvan Oxlobıstin**

Bundan əvvəlki məqalədə vurğuladığımız kimi, milli ideya ilə milli təhlükəsizliyin qarşılıqlı əlaqəsi kifayət qədər geniş faktorları əhatə edir. Onları iki qrupa – xarici (regional və qlobal miqyaslardan olan təsirlər) və daxili faktorlara bölmək olar. Daxili faktorları milli təhlükəsizlik kontekstində milli ideya stimullaşdıra bilər. Onun reallaşması isə güclü lider – güclü dövlət – güclü cəmiyyət vəhdəti sayəsində baş tutur. Burada aparıcı rol, təbii ki, güclü liderə məxsusdur. Çünki tarixən ən mürəkkəb situasiyalarda çıxış yolunu lider müəyyən edir və cəmiyyəti arxasında aparır. Hazırkı mərhələdə liderin rolu daha da artmışdır.

Beləliklə, milli təhlükəsizliyin təminatının daxili faktorları kimi güclü lider, güclü dövlət və güclü cəmiyyətin birgə fəaliyyəti üçün müvafiq "xarici mühit" olmalıdır. Burada "xarici mühit" və ya "ətraf mühit" dedikdə məsələnin geosiyasi kontekstini nəzərdə tuturuq.

## Milli ideyanın geosiyasi konteksti

Burada dövlətin güclü olması mühüm şərtdir. XXI əsrdə dövlətçiliklə bağlı aparılan tədqiqatlarda geosiyasi problemlərin zəif dövlətlərin mövcudluğundan qaynaqlandığı haqqında tezis xüsusi yer tutur. Bu kontekstdə Frensis Fukuyama yazır ki, "dövlət özünü yeniləşdirə bilməlidir" ki, real gücü dinamik olsun və istənilən dəyişən situasiyaya yaradıcı tərzdə uyğunlaşa bilsin. Eyni zamanda, F.Fukuyama güclü dövlət kontekstində siyasi identiklik və suverenlik kimi faktorların mütləq nəzərə alınmasını ayrıca vurğulayırdı.

Belə çıxır ki, müasir Qərb politoloji fikrində müstəqil dövlətin güclü olmasını regional və qlobal miqyaslarda ciddi təsiri olan faktor hesab edirlər. Burada bir neçə məqam ön plana çıxır: dövlətin özünü yeniləşdirməyi bacarması, siyasi və mədəni identiklik (özünütanıma) və suverenlik. Bu faktorlar XXI əsrdə dövlətin güclü və müstəqil olması üçün vacib şərtlərdir.

Buradan belə məntiqi nəticə alınır ki, hər bir müstəqil dövlətin gücünün mütləq geosiyasi konteksti vardır. Dövlətin özünü daim yeniləşdirə bilməsi, suverenlik və siyasi-mədəni identikliklə bağlılığı isə məsələni birbaşa milli ideyaya yönəldir. Bununla Azərbaycan üçün yeni tarixi mərhələdə güclü dövlətçiliklə milli ideyanın həyata keçməsi arasında əlaqənin təbiiliyi və geosiyasi əsaslılığı aydın olur.

Bunlarla yanaşı, milli ideyanın geosiyasi kontekstinin iki səviyyəsinin mövcudluğu aydınlaşır. Birincisi, cəmiyyət və dövlətdə özünüinkişaf (özünü gücləndirmə mənasında) potensialının daim aktuallaşması və reallaşması şəraitinin mövcudluğu. İkincisi, dövlətin regional və qlobal inteqrasiya proseslərində milli təhlükəsizliyi təmin etmək şərti ilə fəal iştirakı.

İkinci faktor birincidən qaynaqlanır. Çünki cəmiyyət və dövlət daim özünü gücləndirmək mexanizmlərinə malik deyildirsə, başlanğıcda uğurlu görünən nailiyyətlər hansısa məqamda "qırıla" bilər. Dövlət ətrafdan olan mənfi təsirləri neytrallaşdırmaq qüdrətini bununla itirə bilər. O halda milli ideyanın reallaşması proses olaraq dayanır və bütövlükdə, deqradasiya mərhələsi başlayır.

Deməli, dövlətin və cəmiyyətin daxili gücü və onun daim aktuallaşa bilməsi regional və qlobal inteqrasiyada milli maraqlardan və milli ideyalardan çıxış edərək, iştirakın bazasıdır. Bu daxili əlaqə praktikada konkret inteqrasiya modellərinə dövlətin milli ideyanın mahiyyəti kontekstində aktiv reaksiya verməsi və mümkün variantlardan ən uyğun olanını seçməsi məsələsi ilə sıx bağlıdır. Buradan Cənubi Qafqazda hazırda hansı geosiyasi inteqrasiya modellərinin özünü göstərdiyi məsələsini milli ideya kontekstində araşdırmağın vacibliyi özlüyündə aydın olur.



Öncə onu vurğulayaq ki, indiki mərhələdə regionda inteqrasiya Avropa İttifaqı, ABŞ, Rusiya (Avrasiya inteqrasiya modeli çərçivəsində), Çin və Türk Dövlətləri Təşkilatı layihələrinin rəqabəti şəraitində özünü göstərir. Bir sıra tədqiqatlarda son illərə qədər regionda inteqrasiya layihəsi kimi TDT-ni nümunə gətirmirdilər. Lakin artıq TDT qlobal miqyasda qəbul edilən güclü inteqrasiya layihəsidir. İndi TDT olmadan Cənubi Qafqaz da daxil olmaqla geniş geosiyasi məkanda (Avrasiyada) hansısa real inteqrasiya layihəsindən danışmaq mümkün deyildir. Bunun geosiyasi-nəzəri sübutu vardır.

Məsələyə H.J.Makkinderin "Heratland" (Yer kürəsinin "ürəyi") nəzəriyyəsi prizmasında baxsaq, Qafqaz və Mərkəzi Asiya qlobal geosiyasi proseslərin mərkəzi kimi təsəvvür edilə bilər. H.Makkinderin özü də Avrasiya kontekstində Xəzər hövzəsinə və Mərkəzi Asiyaya xüsusi qiymət verirdi.

Bundan başqa, Z.Bzejinski əsərlərində Azərbaycanı Qərblə Asiya arasında "əsas geosiyasi körpü" kimi təqdim edirdi. Henri Kissincerin də buna bənzər fikirləri mövcuddur.

Bu geosiyasi məkanda isə bir neçə türk dövləti yerləşmişdir. Avropanın cənubundan başlayaraq Qafqazdan keçməklə Mərkəzi Asiya və Çinə qədər geniş ərazidə, bir tərəfdən də şimalda Rusiya və cənubda İranla həmsərhəd məkanda türk dövlətləri yerləşir. Türk dövlətlərinin Avrasiya miqyasında geosiyasi yeri və rolu tam dəqiqləşmədən burada heç bir inteqrasiya layihəsi reallaşa bilməz. Buna görə də TDT-yə diqqət son zamanlar ayrıcadır.

Hazırda politoloqlar iki variantdan birinin reallaşacağı qənaətindədirlər. Birinci variant: mərkəzində TDT-nin olduğu geosiyasi inteqrasiya modeli, ikinci variant: TDT ilə yanaşı, Cənubi Qafqazda və Mərkəzi Asiyada pozitiv rol oynaya biləcək hansısa böyük geosiyasi gücün birgə iştirakı ilə yaranan inteqrasiya layihəsi. Hər iki variant üçün əsas rol oynayacaq dövlət Azərbaycandır. Çünki Azərbaycan həm coğrafi, həm geosiyasi, həm də mədəni aspektlərdə vurğulanan inteqrasiya layihələrinin mərkəzinə düşür.

Bütün bunlara baxmayaraq, mili ideya məsələsi olduqca geniş və strateji xarakterli faktordur və ona görə də indi mövcud olan hər bir inteqrasiya layihəsi konteksti araşdırılmalıdır.

## Cənubi Qafqazda Aİ-nin inteqrasiya strategiyası

Avropa İttifaqının müxtəlif coğrafi və geosiyasi istiqamətlərdə yeritdiyi siyasətdə qonşuluq siyasəti və genişlənmə bir-biri ilə sıx əlaqədə həyata keçirilir. Burada əsas məqsəd Aİ-nin Şərq və Cənub istiqamətlərində təsirini artırmaq və özünə sərf edən geosiyasi mühit yaratmaqdan ibarətdir. Bu məqsədlə "Şərq tərəfdaşlığı" adlı xüsusi proqram da hazırlanmışdır. Bu proqrama Cənubi Qafqazın üç dövləti də daxildir (Azərbaycan, Gürcüstan və Ermənistan). Şərqi Avropadan isə Ukrayna və Moldova.

Belə çıxır ki, Aİ qonşuluq və genişlənmə siyasətlərini yaxın qonşuları öz geosiyasi təsir orbitinə daxil etmək kimi strateji bir məqsədə çatmaq üzərində qurur. İllərdir ki, Aİ-nin Cənubi Qafqazdakı fəaliyyətində məhz bu məqam üstünlük təşkil edir. Lakin meydana bir sıra ziddiyyətlər çıxmışdır ki, onlar Aİ-nin Cənubi Qafqazda inteqrasiya layihəsinin tam olaraq uğurlu olacağına ciddi suallar meydana gətirir. Həmin sualların bir qismi "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində Azərbaycan tərəfindən səsləndirilmişdir.

Prezident İlham Əliyev "Şərq Tərəfdaşlığı"nın Vilnüs (2013-cü il) və Praqa (2014-cü il) sammitlərində Aİ-nin assosiativ üzvlüklə bağlı qoyduğu şərtlər daxilində əməkdaşlığın davam etməsinin Azərbaycan üçün məqsədəuyğun olmadığını ifadə etmişdir. Assosiativ üzvlüyün yalnız bir tərəfin maraqlarını nəzərə aldığı və suverenliyə ziyan vurduğu Bakı tərəfindən bildirilmişdir. Bunun əvəzində Azərbaycan rəhbərliyi Aİ-yə yeni əməkdaşlıq paketi təklif etmişdir.

Əvvəlcə müqavimətlə qarşılanan təkliflər paketinin 2020-ci ilə qədər 90 faizi razılaşdırılmışdır. Azərbaycan rəhbərliyinin gətirdiyi arqumentlər göstərir ki, başlıca suallar məhz milli maraqlar və milli ideyanın reallaşması perspektivləri ilə bağlıdır. Konkret olaraq, Azərbaycan suverenliyin təmini və ərazi bütövlüyünün bərpası üçün geniş imkanların yaradılmasını (həmin mərhələ üçün milli ideyanın əsas tezisi) ön plana çıxarmışdır.

Bu məqamda Aİ-nin Cənubi Qafqaz siyasətində yerli dövlətlərin milli maraqlar və milli ideya kontekstində başlıca şərtlərini nəzərə almaq istəməməsi aydın olur. Bu, o deməkdir ki, Brüsselin inteqrasiya layihəsinin daxili ziddiyyətləri vardır. Həmin ziddiyyətlər təşkilatın qonşuları hesabına genişlənməsi planları ilə bunu reallaşdırma mexanizmləri arasındadır. O cümlədən, Cənubi Qafqazda geosiyasi inteqrasiya bu ziddiyyətlər fonunda reallaşa bilməz.

2013-2014-cü il Rusiya-Ukrayna böhranı bu tezisin doğrulunu təsdiq edən faktlardandır. Bundan əvvəl – 2008-ci ildə Aİ-nin Rusiyanın Gücüstanın iki bölgəsini işğal etməsinin qarşısını ala bilməməsi də ciddi faktlardandır. Məhz bu hadisə Qərbin siyasi şüurunu, sözün həqiqi mənasında, şoka saldı və Qafqaz istiqamətində siyasətə düzəlişlər etmək zərurətini qəbul etdilər. Nəticədə 2015-ci ildə Aİ "Yeni Qonşuluq Siyasəti" adlanan sənədi hazırladı. Lakin bu sənəddə də Cənubi Qafqaza ədalətli yanaşma və real inteqrasiya yaratmaq ruhu görünmür. Bundan başqa, milli maraqların qorunmasına və suverenliyə tam təminat verən Azərbaycanın təkliflər paketi də neçə illərdir ki, tam olaraq razılaşdırılmır. Əsas maneəni də Azərbaycan tərəfi bəyan etmişdir: Brüssel enerji sahəsində Azərbaycanın milli maraqlarına və suverenliyinə cavab verən mövqe nümayiş etdirmir.

Beləliklə, Avropa İttifaqının Cənubi Qafqazda inteqrasiya layihəsi milli maraqlar, suverenliyin tam təmini və milli ideyanın reallaşması üçün zəruri olan şəraitin yaradılmaması səbəblərindən gerçək perspektivli model təsiri bağışlamır. II Qarabağ savaşından sonra Brüsselin Azərbaycana və regiona münasibətdə tutduğu mövqe də bu tezisi təsdiq edir. Aİ, faktiki olaraq, Azərbaycanın haqlı qələbəsini nəinki qəbul etmək istəmədi, hətta regionu qarışdırmaq üçün addımlar atmağa başladı. Xüsusilə Fransa konstruktiv olmağın bütün şərtlərini pozaraq, birbaşa dağıdıcı işlər görməyə çalışdı. Əlbəttə, bu şərtlər daxilində hansısa həqiqi inteqrasiyadan bəhs etmək mümkün deyildir. Deməli, Cənubi Qafqazda Aİ-nin nüfuz qazanması şansı çox olsa da, səhv mövqeyi ilə bu imkandan özünü məhrum edir.

Bunlar onu ifadə edir ki, yeni tarixi mərhələdə Azərbaycan Brüsselin Cənubi Qafqazda inteqrasiya layihəsinə son dərəcə ehtiyatla yanaşacaqdır.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitki,***
***fəlsəfə elmləri doktoru***

# Ukrayna Azərbaycanla əməkdaşlığa önəm verir

**Aprelin 16-da Ukrayna xarici işlər nazirinin müavini İrina Borovets ölkəmizin Ukraynadakı səfiri Seymur Mərdəliyevlə görüşüb.**



Görüşdə İrina Borovets Ukraynanın enerji sisteminə və mülki infrastrukturun bərpasına göstərilən humanitar yardıma görə Azərbaycana təşəkkür edib. Tərəflər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığa, xüsusilə Ukraynayönlü təşəbbüslərin dəstəklənməsinə və hərbi cinayətlərin pislənməsinə, ukraynalı uşaqların qanunsuz deportasiyasına, Beynəlxalq Krım Platformasına və Qlobal Sülh Sammitinə diqqət yetiriblər.

Səfir Seymur Mərdəliyev Azərbaycanda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına – COP 29-a hazırlıqla bağlı məlumat verib. Səfir Azərbaycanın Ukraynanın müstəqilliyi və ərazi bütövlüyünün qorunmasına bundan sonra da dəstək vermək əzmində olduğunu bildirib.

***XQ***

# Başabəla Ermənistan, Botsvana, Kot-di Vuar və Kosta-Rika…

## Böyük Britaniya hökuməti bu ölkələrin miqrantlarını qovur



**Bu sərlövhəni Marianna Mkrtçyan adlı müəllifin aprelin 15-də "Armİnfo" xəbər portalında verilmiş yazısından (https://arminfo.info/full_news.php?id=83090&lang=2) götürdük. Müəllif yazır ki, London və İrəvan Böyük Britaniyadakı qeyri-leqal mühacirlərin geri qaytarılması barədə danışıqlara başlayıblar. Fikrimizcə, burada qeyri-adi heç nə yoxdur. İnkişaf etmiş ölkənin öz ərazisini qeyri-qanuni gəlmələrdən təmizləməsi başadüşüləndir.**

Ancaq burada başa düşülməyən başqa bir məqam var. Yəni, nə üçün ABŞ-dən, Rusiyadan, Ukraynadan (indi onlar daha çoxdur) və ya Türkiyədən gələnləri deyil, məhz Ermənistan, Botsvana, Kot-di Vuar və Kosta-Rikadan gələnlər qovulur? Cavab aydındır. Bu fakt Avropada həmin ölkələrə olan münasibətin, orada yaşayan xalqların mədəni səviyyəsinin göstəricisidir.

"The Times" qəzeti Böyük Britaniyanın Daxili İşlər Nazirliyinə istinadən yazır ki, bir müddət əvvəl Ruanda ilə də bu məzmunlu danışıqlar aparılmışdır. Qəzet əlavə edir ki, Böyük Britaniya rəhbərliyi ilyarımdır həmin miqrantları göndərməyə ölkə axtarır. Ancaq heç bir dövlət onları qəbul etmək istəmir ( ermənini kim qəbul edəcək? Biz onları qəbul edəndən sonra başımıza nələrin gəldiyini bütün dünya görmədimi? ). Ona görə də bu məsələnin həlli yolunu hər xalqın təmsilçisini öz ölkəsinə göndərməkdə görürlər. Əcaib fakt odur ki, öz ölkələri də onlar qəbul etmək istəmir.

Beləliklə, çıxış yolunu ölkələrarası danışıqlara başlamaqda görürlər. Bu məqamda Marianna Mkrtçyan heç nə əlavə etməsə də, biz xatırladaq ki, Ermənistanla aparılan danışıqların və əldə edilən razılaşmaların əhəmiyyəti yoxdur. Çünki İrəvan rəhbərliyi hansısa razılaşmaya, imzalanan sənədə və ya beynəlxalq hüququn norma və prinsiplərinə əməl etmək qabiliyyətində deyil. Üzləşdikləri bütün məhrumiyyətlər də məhz həmin qabiliyyətsizlikləri üzündəndir.

***İttifaq MİRZƏBƏYLİ***

# Bakıda ilk İnsurtech Zirvəsi

**Bakı Konqres Mərkəzində Azərbaycan Mərkəzi Bankının, Azərbaycan Sığortaçılar Assosiasiyasının (ASA) və Türkiyə tərəfindən "InsurTech Hub"ın təşkilatçılığı ilə ilk dəfə Azərbaycan İnsurtech Zirvəsi keçirilib.**



Tədbirdə çıxış edən Mərkəzi Bankın sədri Taleh Kazımov bildirib ki, Azərbaycan iqtisadiyyatı hazırda keyfiyyətcə yeni dövrə qədəm qoyub. Sığorta bazarının inkişafı ilə bağlı həyata keçirilən layihələr əhalinin rifahına töhfə vermək məqsədi daşıyır. O qeyd edib ki, toplantının əsas məqsədi Türkiyə sığorta şirkətlərinin rəqəmsallaşma sahəsindəki təcrübələrini öyrənmək və Türkiyənin sektor lideri olan texnologiya brendləri ilə birgə Azərbaycanın sığorta bazarında rəqəmsallaşmanın inkişafına töhfə verməkdir. T.Kazımovun sözlərinə görə, Azərbaycan iqtisadiyyatı hazırda özünün keyfiyyətcə yeni inkişaf mərhələsinə daxil olub. Bu dövrdə özəl sektorun təşəbbüsləri və dövlət-özəl sektoru əməkdaşlığı iqtisadi artımın əsas hərəkətverici qüvvəsi kimi çıxış edir.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Azərbaycanın rəqəmsal siyasətlə, innovasiyalarla bağlı növbəti illər üçün dövlət strategiyasının istiqamətlərini açıqlayıb. "Dövlətin strategiyası üç əsas istiqamət üzərində qurulub. Bunlara elektron hökumətin təkmilləşdirilməsi, datanın bizneslər üçün əlçatan olması daxildir. Həmçinin rəqəmsal cəmiyyətin formalaşdırılması da əsas istiqamətlərdəndir ki, bu da dövlət-biznes, cəmiyyət-biznes arasındakı əlaqələrin daha uğurlu tənzimlənməsinə imkan verəcək. Ölkəmizdə bu istiqamətdə bir sıra işlər aparılır, layihələr gerçəkləşdirilir.

Türkiyənin Sığorta, Özəl Pensiya Tənzimləmə və Nəzarət Agentliyinin sədri Davut Menteş deyib ki, bu gün Bakıda keçirilən "Azərbaycan Insurtech Zirvə" toplantısı Azərbaycanla Türkiyə arasında sığorta sahəsində əməkdaşlığı genişləndirmək məqsədi daşıyır. Onun sözlərinə görə, iki ölkə arasında Sığorta Şirkətləri Birliyi 2020-ci ildə keçirilən zirvə toplantısı zamanı qurulub. "2022-ci ilin may ayında Türk Dövlətləri Sığorta Şirkətləri Birliyi təsis olundu. Bu gün keçirilən toplantını 2020-ci ildən başlayan işlərin növbəti addımı kimi qəbul edirəm. Türkiyədə mövcud Sığorta Şirkətləri Birliyi kimi bir təşkilatın Azərbaycanda da yaradılması və inkişaf etdirilməsi planlaşdırılır. Türkiyədən 80-dək sığorta nümayəndəsi Bakıya gəlib. Onlardan 15-i şirkət nümayəndələri, 15-i isə "insurtech" startap təsisçiləridir", – deyə Davut Menteş bildirib.

Zirvə çərçivəsində Azərbaycan Mərkəzi Bankının baş direktoru Ziya Əliyevin və türkiyəli mütəxəssis Fatih Acerin sığorta sektorunun təhlilinə dair təqdimatları nümayiş etdirilib. Həmçinin Azərbaycan və Türkiyə panelləri üzrə təşkil olunacaq müzakirələrdə qardaş ölkələrin mütəxəssisləri təcrübə mübadiləsi aparıblar.

***XQ***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 204** **Bakı şəhəri, 6 aprel 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 26 fevral tarixli 54 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)" publik hüquqi şəxsin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 16 iyun tarixli 917-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 672-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1947 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 iyun tarixli 2195 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 26 fevral tarixli 54 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 2, maddə 178 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)" publik hüquqi şəxsin Nizamnaməsi"nin 5.1-ci bəndində "295605880 (iki yüz doxsan beş milyon altı yüz beş min səkkiz yüz səksən)" sözləri "398605880 (üç yüz doxsan səkkiz milyon altı yüz beş min səkkiz yüz səksən)" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 205** **Bakı şəhəri, 9 aprel 2024-cü il**

**"Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində Beynəlxalq əlaqələr, informasiya və mətbuat xidməti departamentinin yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 25 yanvar tarixli 9 nömrəli Qərarının ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində Beynəlxalq əlaqələr, informasiya və mətbuat xidməti departamentinin yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 25 yanvar tarixli 9 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 79 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 206** **Bakı şəhəri, 9 aprel 2024-cü il**

**"Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 yanvar tarixli 8 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 fevral tarixli 187 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"nin 5.7-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 yanvar tarixli 8 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 152 (Cild I) "Kollegiyanın üzvləri:" bölməsinin yeddinci abzasında "Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Repatriasiya Departamentinin direktoru" sözləri "Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Aparatının Hüquq və kadrlar şöbəsinin müdiri" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 207** **Bakı şəhəri, 15 aprel 2024-cü il**

**"Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

"Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 18 mart tarixli 1947 nömrəli Sərəncamının 2.1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 992 (Cild I); 2024, № 1, maddə 92) 2-ci hissəsində "aprelin 2-dək" sözləri "iyulun 1-dək" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 208** **Bakı şəhəri, 15 aprel 2024-cü il**

**"Qarabağ Universitetinin yaradılması haqqında"**

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 noyabr tarixli 4182 nömrəli Sərəncamının qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi, Azərbaycan SSR Nazirlər Sovetinin "Stepanakert şəhərində Pedaqoji İnstitutun yaradılması haqqında" 1973-cü il 28 noyabr tarixli 377 nömrəli və "Sovet Azərbaycanın 60 illiyi adına Stepanakert Pedaqoji İnstitutunun müvəqqəti bağlanılması haqqında" 1988-ci il 3 noyabr tarixli 393 nömrəli qərarlarının ləğv edilməsi barədə Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qarabağ Universitetinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 noyabr tarixli 4182 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 14 dekabr tarixli 235 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 12, maddə 1117 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 23 fevral tarixli 97 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Doktoranturalar (adyunkturalar) yaradılan Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların Siyahısı"nın "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi üzrə" bölməsinə aşağıdakı məzmunda 18-1-ci hissə əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 18-1. | Qarabağ Universiteti | fəlsəfə doktoru üzrə | - |

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 15 iyul tarixli 118 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 745 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın "Ali təhsil müəssisələri" bölməsinə aşağıdakı məzmunda 21-ci hissə əlavə edilsin:

| | |
|---|---|
| 21. | Qarabağ Universiteti |

3. "Stepanakert şəhərində Pedaqoji İnstitutun yaradılması haqqında" Azərbaycan SSR Nazirlər Sovetinin 1973-cü il 28 noyabr tarixli 377 nömrəli Qərarı ləğv edilsin.

4. "Sovet Azərbaycanın 60 illiyi adına Stepanakert Pedaqoji İnstitutunun müvəqqəti bağlanılması haqqında" Azərbaycan SSR Nazirlər Sovetinin 1988-ci il 3 noyabr tarixli 393 nömrəli Qərarı ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 209** **Bakı şəhəri, 15 aprel 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 27 sentyabr tarixli 423 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət Əməyin Mühafizəsi Fondunun Əsasnaməsi"ndə dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 27 sentyabr tarixli 423 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1577 (Cild I) ilə təsdiq edilmiş "Dövlət Əməyin Mühafizəsi Fondunun Əsasnaməsi"nin 2.7.7-ci yarımbəndində "Nazirliyin işçilərinin" sözləri "Nazirlik sistemində işçilərin" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 210** **Bakı şəhəri, 16 aprel 2024-cü il**

**Bakı şəhəri, Qaradağ rayonunun və Abşeron rayonunun inzibati ərazilərində dövlət və bələdiyyə mülkiyyətinə aid bəzi torpaq sahələrinin bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilməsi haqqında**

"Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyul tarixli 1387 nömrəli Fərmanının 2.4-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Bakı şəhəri, Qaradağ rayonunun Müşfiqabad qəsəbəsində dövlət mülkiyyətində 3,375 hektar, Abşeron rayonunun inzibati ərazisində dövlət mülkiyyətində 19,875 hektar və Abşeron rayonu Pirəkəşkül-Qobustan Bələdiyyəsinin mülkiyyətində 11,25 hektar olmaqla, ümumilikdə kənd təsərrüfatı təyinatlı torpaqlar kateqori-yasına aid 34,5 hektar torpaq sahəsi qoyuluş gücü 240 MVt olan külək elektrik stansiyasının tikintisi məqsədilə bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilsin (torpaq sahəsinin yerləşdiyi yeri, ölçülərini və sərhədlərini göstərən yerquruluşu xəritələri əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Energetika Nazirliyi bu Qərarın 1-ci hissəsi ilə müəyyən edilmiş bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi ilə bağlı tədbirləri Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 avqust tarixli 2285 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi Qaydası"nın tələblərinə uyğun həyata keçirsin.

**3.** Bu Qərar qüvvəyə mindiyi tarixdən elektrik enerjisinin istehsalı məqsədilə bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilmiş 34,5 hektar torpaq sahəsində külək elektrik stansiyasının tikintisinə icazə "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikası Qanununun 6.7-ci maddəsində nəzərdə tutulmuş müddətdə Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq alınır.

**4.** Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi bu Qərarın 3-cü hissəsinə uyğun olaraq, tikintiyə icazə verildikdə həmin gündən, müəyyən edilmiş müddətdə tikintiyə icazə verilmədikdə isə müddət başa çatdığı gündən üç gün müddətində bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**5.** Bu Qərarın icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Aqrar və ekologiya şöbəsinə həvalə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 211** **Bakı şəhəri, 16 aprel 2024-cü il**

**Neftçala rayonunun inzibati ərazisində dövlət və bələdiyyə mülkiyyətinə aid bəzi torpaq sahələrinin bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin icrasının təmin edilməsi barədə" 2000-ci il 6 mart tarixli 291 nömrəli Fərmanının 1-ci hissəsinin üçüncü abzasına və "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanununun tətbiqi barədə" 2021-ci il 12 iyul tarixli 1387 nömrəli Fərmanının 2.4-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Neftçala rayonunun inzibati ərazisində Azərbaycan Respublikası Müdafiə Nazirliyinin istifadəsində olan sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlar kateqoriyasına aid 523,0 hektar torpaq sahəsi Azərbaycan Respublikası Energetika Nazirliyinin istifadəsinə verilməklə, Neftçala rayonu Yenikənd Bələdiyyəsinin mülkiyyətində olan 400,0 hektar və Neftçala Bələdiyyəsinin mülkiyyətində olan 50,0 hektar kənd təsərrüfatı təyinatlı torpaq sahələri ilə birlikdə, ümumilikdə 973,0 hektar torpaq sahəsi qoyuluş gücü 315 MVt olan günəş elektrik stansiyasının tikintisi məqsədilə bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilsin (torpaq sahəsinin yerləşdiyi yeri, ölçülərini və sərhədlərini göstərən yerquruluşu xəritələri əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Energetika Nazirliyi bu Qərarın 1-ci hissəsi ilə müəyyən edilmiş bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi ilə bağlı tədbirləri Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 avqust tarixli 2285 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi Qaydası"nın tələblərinə uyğun həyata keçirsin.

**3.** Bu Qərar qüvvəyə mindiyi tarixdən elektrik enerjisinin istehsalı məqsədilə bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilmiş 973,0 hektar torpaq sahəsində günəş elektrik stansiyasının tikintisinə icazə "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikası Qanu-nunun 6.7-ci maddəsində nəzərdə tutulmuş müddətdə Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq alınır.

**4.** Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi bu Qərarın 3-cü hissəsinə uyğun olaraq, tikintiyə icazə verildikdə həmin gündən, müəyyən edilmiş müddətdə tikintiyə icazə verilmədikdə isə müddət başa çatdığı gündən üç gün müddətində bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**5.** Bu Qərarın icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Aqrar və ekologiya şöbəsinə həvalə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 212** **Bakı şəhəri, 16 aprel 2024-cü il**

**Biləsuvar rayonunun inzibati ərazisində dövlət mülkiyyətinə aid torpaq sahəsinin bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilməsi haqqında**

"Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyul tarixli 1387 nömrəli Fərmanının 2.4-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Biləsuvar rayonunun inzibati ərazisində dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaqlar kateqoriyasına aid 1454,0 hektar torpaq sahəsi qoyuluş gücü 445 MVt olan günəş elektrik stansiyasının tikintisi məqsədilə bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilsin (torpaq sahəsinin yerləşdiyi yeri, ölçülərini və sərhədlərini göstərən yerquruluşu xəritəsi əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Energetika Nazirliyi bu Qərarın 1-ci hissəsi ilə müəyyən edilmiş bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi ilə bağlı tədbirləri Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 avqust tarixli 2285 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi Qaydası"nın tələblərinə uyğun həyata keçirsin.

**3.** Bu Qərar qüvvəyə mindiyi tarixdən elektrik enerjisinin istehsalı məqsədilə bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilmiş 1454,0 hektar torpaq sahəsində günəş elektrik stansiyasının tikintisinə icazə "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikası Qanununun 6.7-ci maddəsində nəzərdə tutulmuş müddətdə Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq alınır.

**4.** Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi bu Qərarın 3-cü hissəsinə uyğun olaraq, tikintiyə icazə verildikdə həmin gündən, müəyyən edilmiş müddətdə tikintiyə icazə verilmədikdə isə müddət başa çatdığı gündən üç gün müddətində bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**5.** Bu Qərarın icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Aqrar və ekologiya şöbəsinə həvalə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Füzuliyə bu dəfə daha 156 ailə köçürüləcək

**Aprelin 16-da Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində Füzuli şəhərinə növbəti mərhələdə köçürüləcək ailələr arasında püşkatma keçirilib.**



Komitədən bildirilib ki, tədbirdə komitənin rəhbər şəxsləri, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Füzuli Rayon İcra Hakimiyyətinin və komitə yanında İctimai Şuranın nümayəndələri iştirak ediblər.

Diqqətə çatdırılıb ki, Füzuli şəhərindəki yeni yaşayış yerlərinə ilkin mərhələdə indiyədək müvəqqəti məskunlaşma binalarında ağır şəraitdə yaşayan



və bu şəhərdə daimi qeydiyyatda olan ailələr köçürülür. Qeyd edilib ki, bugünkü püşkatma 156 ailə arasında keçirilib və ailə tərkibinə uyğun olaraq, onlardan 59-na ikiotaqlı, 80-nə üçotaqlı, 17-nə dördotaqlı mənzil təqdim olunacaq.

Tezliklə daimi yaşayış üçün Füzuli şəhərinə qayıdacaq keçmiş məcburi köçkünlər çox böyük sevinc hissi keçirdiklərini, işğaldan azad olunmuş ərazilərdə yaradılan şəraitə, onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya dərin minnətdarlıqlarını bildiriblər.

Püşkatmada iştirak etmiş ailələr yaxın günlərdə Füzuli şəhərinə yola salınacaqlar.

**XQ**

# Bakı–Supsa kəməri: Xəzərdən Qara dənizə “qara qızıl” axını

## *Qərb ixrac marşrutunun istismara verilməsindən 25 il ötür*

**Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış yeni neft strategiyasının əsas istiqamətlərindən biri də xam neftin dünya bazarına çıxarılması üçün alternativ ixrac sisteminin yaradılmasından ibarət idi. Hələ 1994-cü il sentyabrın 20-də Bakıda “Əsrin müqaviləsi” imzalanarkən Ulu öndər böyük uzaqgörənliklə Azərbaycan neftinin şaxələndirilmiş boru kəmərləri ilə nəqli ideyasını irəli sürmüş və bu təklif müqavilə iştirakçıları tərəfindən də razılıqla qarşılanmışdı.**



Nəhayət, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (ABƏŞ) rəhbər komitəsi dövlətimizin başçısının bu sahədə irəli sürdüyü təklifləri nəzərə alaraq 1995-ci il oktyabrın 9-da ilkin neftin ixracı üçün Rusiya ərazisindən Novorossiysk və Gürcüstan ərazisi ilə Supsa limanlarına iki neft kəmərinin tikilməsi haqqında qərar qəbul edib. Bununla da, sözügedən kəmərlərin çəkilişi ilə bağlı danışıqlar intensivləşib.

1996-cı ilin martın 8-də Azərbaycan Respublikası ilə Gürcüstan arasında ilkin neftin Gürcüstan ərazisindən nəql olunmasına dair hökumətlərarası saziş imzalanıb. Həmin ilin dekabr ayında ABƏŞ Bakı–Supsa (Qərb ixrac boru kəməri) kəmərinin inşası üçün müsabiqə elan edib. ABŞ, İtaliya, Avstraliya, Türkiyə, Fransa, Böyük Britaniya, Azərbaycan və digər ölkələrin şirkətlərindən daxil olan təklifləri öyrənən ABƏŞ 1997-ci ilin aprelində Bakı–Supsa boru kəmərinin Azərbaycan hissəsini “Tekfen-Azfen” Azərbaycan–Türkiyə birgə müəssisəsinə, Gürcüstan hissəsini isə Avstraliyanın “Makkonnell Douell midl ist” şirkətinə həvalə edib. Layihəyəyə əsasən, Azərbaycan ərazisində – Səngəçal terminalından Gürcüstan sərhədinədək 421 kilometr uzunluğunda mövcud boru kəməri bərpa olunmalı və 47 kilometr uzunluğunda yeni xətt çəkilməli idi. Gürcüstan ərazisində isə 340 kilometr uzunluğunda boru kəmərinin bərpası, 39 kilometr məsafədə isə yeni hissəsinin çəkilişi nəzərdə tutulurdu.

1998-ci ilin martında başlanan tikinti işləri qrafik əsasında davam etsə də, podratçı şirkətlər tərəfindən kəmərin mövcud hissəsində həyata keçirilən sınaq işləri zamanı vaxtilə çəkilmiş boruların təzyiqə davam gətirmədiyi üzə çıxıb. Buna görə də layihədə edilmiş düzəlişlərə əsasən, əlavə boru xətti çəkilib. Beləliklə, tikinti işləri tamamlandıqdan sonra dekabrın 10-da Bakı–Supsa kəmərinin xam neftlə doldurulmasına başlanılıb. 1999-cu il martın 11-də neft Qara dəniz sahilində inşa olunmuş Supsa terminalına çatıb. Aprelin 8-də isə Supsa limanında ilk neftin takerlərə yüklənməsinə başlanılıb. Bu münasibətlə aprelin 17-də Supsada Azərbaycan, Gürcüstan və Ukrayna prezidentlərinin, habelə ABŞ prezidentinin və dövlət katibinin Xəzər regionu üzrə xüsusi müşavirinin iştirakı ilə Qərb ixrac boru kəmərinin və terminalın rəsmi açılış mərasimi keçirilib.

Xəzərin Azərbaycan sektorunda hasil edilən neftin Gürcüstandan keçməklə dünya bazarlarına nəqlini həyata keçirən Bakı–Supsa boru kəməri Səngəçal terminalından başlayaraq Gürcüstan sahilindəki Supsa terminalına qədər uzanır. Uzunluğu 833 kilometr olan “qara qızıl” marşrutunun 772 kilometrlik hissəsi 530 millimetrlik yeni polad borularla çəkilib, qalan 55 kilometrlik hissəsi isə əsaslı təmir edilib. Boru kəməri obyektlərinə 3-ü Azərbaycanda və 3-ü Gürcüstanda olmaqla 6 nasos stansiyası, 2 təzyiqazaltma stansiyası (hər ikisi Gürcüstanda), 1 ərzinburaxma stansiyası (Azərbaycanda) aiddir. Layihə çərçivəsində, həmçinin Supsada ümumi həcmi 1 milyon barel olan 4 iri neft çəni inşa olunub. Kəmərin illik nəqletmə gücü isə 5,1 milyon ton təşkil edir.

İlk vaxtlarda bu kəmərlə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Çıraq” və “Azəri” yataqlarından çıxarılan neft Səngəçal terminalından Qara dəniz sahilində yerləşən Supsa limanına nəql olunub. Xam neft buradan tankerlərə yüklənərək Bosfor boğazından keçməklə Avropa bazarlarına yola salınıb. Son illər isə Bakı–Supsa boru kəmərinin fəaliyyətində ən məhsuldar dövr 2021-ci ilə təsadüf edib. Belə ki, həmin il kəmərlə 4,2 milyon ton neft nəql olunub. 2022-ci ilin may ayında isə Rusiya–Ukrayna müharibəsi səbəbindən fəaliyyəti dayandırılmış bu kəmərlə ay ərzində nəql olunan, təqribən, 3 milyon barel xam neft Bakı–Tbilisi–Ceyhan boru kəmərinə yönəldilib.

Bakı–Supsa neft kəməri Azərbaycan və Gürcüstanın iqtisadi və siyasi həyatında mühüm rol oynayıb. Belə ki, regionda investisiya qoyuluşunun artmasında, sosial rifahın yüksəlməsində və siyasi sabitliyin təmin olunmasında Qərb ixrac marşrutu xüsusi əhəmiyyət daşıyıb. Kəmərin inşasında iştirak edən 4 min nəfərdən artıq işçinin 70 faizi Azərbaycan və Gürcüstan vətəndaşları olub. Eyni zamanda Şimal marşrutu ilə müqayisədə daşınma tariflərinin xeyli aşağı olması Qərb boru kəmərinin rəqabət qabiliyyətini xeyli artırıb. Bu baxımdan neft ixracında sözügedən kəmərdən istifadə edilməsi həm xarici şirkətlər, həm də Azərbaycan üçün iqtisadi baxımdan sərfəli olub. Mütəxəssislərin hesablamalarına görə, neftin Qərb boru kəməri ilə ixrac edilməsi o zamankı qiymətlərlə Azərbaycana ildə 70-100 milyon dollar qənaət etməyə imkan yaradıb.

Azərbaycanın neftinin Qərb istiqamətinə nəqlini həyata keçirən Bakı–Supsa kəmərinin işində müəyyən fasilələr yaransa da, sözügedən ixrac marşrutu bu gün də öz aktaullığını qoruyub saxlayır. Hazırda ölkəmiz Bakı–Supsa kəməri ilə neft ixrac etmir. Bununla belə, kəmərin fəaliyyəti tam dondurulmayıb. Neft nəqli üçün tam hazır vəziyyətdə olan bu kəmərdən istənilən vaxt istifadə edilə bilər. Elə ötən ilin fevralında 10 aylıq fasilədən sonra kəmərin fəaliyyətinin qısa müddətə bərpa edilməsi də bunu təsdiq edir. Belə ki, fevralın 6-da qardaş Türkiyə Respublikasının ərazisində baş vermiş zəlzələ səbəbindən bu ölkənin Aralıq dənizi sahilindəki Ceyhan terminalı müvəqqəti olaraq bağlandığından “Azəri-Çıraq-Günəşli” yataqlar blokundan çıxarılan neft Qərb ixrac marşrutu ilə Supsa terminalına nəql olunub. Həmin vaxt Supsa limanından Azərbaycan nefti yüklənmiş bir neçə tanker dünya bazarına göndərilib. Yeri gəlmişkən, dəniz qonşumuz, ölkəmizlə tranzit neft ixracı sahəsində fəal əməkdaşlıq edən Qazaxıstan adı çəkilən kəmərlə ildə 3 milyon tonadək neft nəql etməyi planlaşdırır.

Göründüyü kimi, karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılması üçün şaxələndirilmiş boru kəmərləri sisteminin yaradılması ölkəmiz üçün xüsusi əhəmiyyət kəsb edir. Hər şeydən əvvəl, bu amil müxtəlif səbəblərdən neft və qazın ixracında baş verə biləcək dayanmaların qarşısını almağa imkan yaradır. Məhz bunun nəticəsidir ki, 1998-ci ilin əvvəllərindən etibarən “Əsrin müqaviləsi” çərçivəsində başlanan neft ixracında ötən müddətdə, bir gün də olsun, fasilə yaranmayıb.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# ACE platformasında hasilata başlandı

**BP şirkəti “Azəri-Çıraq-Günəşli” (AÇG) layihəsinin operatoru olan BP şirkəti aprelin 16-da “Yeni əsrin müqaviləsi” çərçivəsində Xəzər dənizinin Azərbaycan sektorunda quraşdırılmış “Azəri-Mərkəzi-Şərqi” (ACE) platformasından neft hasilatına başlandığını elan edib. İlk neft ötən ilin sonunda platformadan qazılmağa başlanmış birinci quyudan əldə olunub.**



Xatırladaq ki, ACE platforması Xəzər dənizində nəhəng AÇG yataqlar blokunda quraşdırılmış sayca 7-ci neft hasilatı obyektidir. ACE platforması və qurğuları gündəlik 100 min barelədək neft hasilatı gücündə layihələndirilib. Layihənin istismar müddəti ərzində, ümumilikdə, 300 milyon barelədək neft hasil ediləcəyi proqnozlaşdırılır. Xam neft əvvəlcə platformadakı texniki emal qurğularından keçəcək, sonra isə 30 düymlük mövcud sualtı ixrac boru kəmərinə qoşulmuş yeni yataqdaxili boru kəməri vasitəsilə, təxminən, 130 kilometr yol qət edərək Səngəçal terminalına ixrac ediləcək.

Bu il platformadan daha iki quyunun qazılıb istismara verilməsi planlaşdırılır. Bununla da, ACE-dən hasilatın tədricən artaraq ilin sonuna gündə təxminən 24 min barelə çatacağı gözlənilir.

# Yük avtomobili istehsalı artıb

**2024-cü ilin yanvar–mart aylarında ölkədə 607 ədəd minik və 200 ədəd yük avtomobili istehsal edilib. Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.**




Bildirilib ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə minik avtomobillərinin istehsalı 34,4 faiz azalsa da, yük avtomobillərinin istehsalı 37,9 faiz artıb. Bununla yanaşı, hesabat dövründə ölkədə 166 ədəd traktor istehsal edilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 27,2 faiz azdır.

Qeyd edək ki, bu il aprel ayının 1-i vəziyyətinə hazır məhsul ehtiyatı müvafiq olaraq 226 ədəd minik və 67 ədəd yük avtomobili təşkil edib.

# Kənd öz nemətlərini ilbəil çoxaldır

**Dövlət Statistika Komitəsindən bu ilin I rübündə ölkədə 1 milyard 445 milyon manat dəyərində kənd təsərrüfatı məhsulu istehsal edildiyi və bunun ötən ilin eyni dövrü ilə müqayisədə 1,1 faiz çox olduğu bildirilib.**

Qeyd edilib ki, son bir ildə respublikada istehsal olunan bitkiçilik məhsullarının dəyəri 2,9 faiz artaraq 76 milyon manat, heyvandarlıq məhsullarının dəyəri isə 1 faiz artaraq 1 milyard 365 milyon manat olub.

Yanvar–mart aylarında ölkədə diri çəkidə 139 min ton ət, 505 min ton süd, 572 milyon ədəd yumurta və 96,6 min ton tərəvəz istehsal edilib. 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 0,6 faiz, süd istehsalı 0,6 faiz yumurta istehsalı 5,2 faiz, tərəvəz istehsalı 2,7 faiz artıb.

***XQ***



# Dünya Bankının Azərbaycan nikbinliyi

## *ÜDM-in cari artımı 7,5 faiz proqnozlaşdırılır*



**(əvvəli 1-ci səhifədə)**

Sözügedən hesabatda bildirilib ki, ölkəmizin güclü xarici mövqeyi Azərbaycan Mərkəzi Bankına valyuta ehtiyatları toplamağa imkan verib, bu, 2023-cü ildə 29 faiz artaraq11 milyard ABŞ dolları təşkil edib. Hesabat dövründə respublikamızın tədiyə balansının cari əməliyyatlar hesabının profisiti 8 milyard 329 milyon ABŞ dollarına yüksəlib və ya ÜDM-in 11,5 faizinə çatıb.

DB-nin hesabatında ölkəmizin 2027-ci ilə qədər inflyasiya proqnozu da yer alıb. Belə ki, maliyyə qurumu Azərbaycanda 2024-cü ildə illik inflyasiyanı 3 faiz, 2025-ci ildə 3,5 faiz, 2026-cı ildə isə 4 faiz təşkil edəcəyini proqnozlaşdırıb. Bununla yanaşı, bank ölkəmizdə iqtisadi artım gözləntilərini də diqqətə çatdırıb, bunu 2024-cü ildə 2,3 faiz, 2025-ci və 2026-cı illərdə isə 2,4 faiz səviyyəsində proqnozlaşdırıb.

Yeri gəlmişkən, xatırladaq ki, DB-nin hesabatına əsasən, qeyri-enerji sektorunda artımın 2024-cü ildə 4 faizə qədər yüksələcəyi gözlənilir. Bu, ilk növbədə, tikinti sektorunun aktiv şəkildə genişləndirilməsi ilə bağlıdır. Buna da dövlət sektorunun tikintiyə investisiya qoyması təsir edir. Digər sahələrdə də artım templərinin qorunub saxlanacağı gözlənilir. Tələbə gəlincə, istehlak artımının sabitləşəcəyi, dövlət sərmayələri ilə dəstəklənən, lakin özəl investisiyalardakı anemik artım ilə məhdudlaşdırılan investisiya artımının isə mülayim qalacağı proqnozlaşdırılır.

Dünya Bankı tərəfindən ortamüddətli perspektivdə ÜDM-in artım tempinin 2,4 faiz civarında olacağı, lakin struktur islahatlarının daha sürətlə həyata keçirilməsi ilə dəstəklənəcəyi təqdirdə artımın sürətlənə biləcəyi də proqnozlaşdırılır. Eyni zamanda 2024–2026-cı illərdə kənd təsərrüfatında 3 faiz (2023-cü ildəki 3,2 faizlik artıma qarşı), sənayedə 0,2 faiz (2023-cü ildəki 0,9 faiz azalmaya qarşı), xidmət sektorunda 2024–2025-ci illərdə 5,3 faiz, 2026-cı ildə 5,2 faiz (2023-cü ildəki 3,8 faiz artıma qarşı) artım gözlənilir.

Ekspertlər bildirirlər ki, indiyədək ÜDM istehsalında yüksək göstəricilərin əldə edilməsini şərtləndirən mühüm amillər sırasında iqtisadiyyatın şaxələndirilməsi mühüm rol oynayıb. Bu istiqamətdə həyata keçirilən tədbirlərin məntiqi nəticəsi olaraq, 2010-cu ildə respublikamızın qeyri-neft sektorunda 18,4 milyon manatlıq məhsul istehsal edildiyi halda, çoxsaylı mənfi şokların təsiri ilə mübarizə aparan qlobal iqtisadiyyatın indiki həssas dövründə qeyri-neft-qaz sənayesində artım neft-qaz sənayesindəki artımı üstələyib. Mövcud sahədə əlavə dəyər 2023-cü ildə 7 faiz artıb.

Ardıcıl və sistemli surətdə gerçəkləşdirilən sənayenin inkişafına dair Dövlət Proqramının uğurlu icrası da qeyri-neft sektorunun şaxələndirməsini sürətləndirib. Adıçəkilən önəmli sənəd ənənəvi sənaye sahələri ilə yanaşı, ölkə iqtisadiyyatı üçün yeni olan kosmik, müdafiə, gəmiqayırma, alternativ enerji və digər sahələrin, həmçinin müasir istehsal infrastrukturuna malik sənaye zonalarının inkişafına müsbət təsir göstərib. Bunun nəticəsində Azərbaycanın ixrac qabiliyyəti davamlı şəkildə güclənib, idxalı əvəz edən məhsulların istehsalının artımı reallaşıb.




İnfrastrukturun və sosial əhəmiyyətli obyektlərin modernləşdirilməsi ilə yanaşı, qeyri-neft-qaz məhsullarının istehsalına, habelə ixracına yönələn yeni sənaye və iqtisadi zonaların yaradılması istiqamətində həyata keçirilən uğurlu layihələr də ÜDM istehsalının artmasında önəmli rol oynayır.

Şübhəsiz ki, bu məsələdə qabaqcıl texnologiyalardan və idarəetmə təcrübəsindən səmərəli yararlanmaq da böyük əhəmiyyətə malikdir. Bundan başqa, ölkədə hökm sürən siyasi və makroiqtisadi sabitlik, investorların hüquqlarının etibarlı qorunması, əlverişli coğrafi mövqe, zəngin təbii ehtiyatlar, yüksək ixtisaslı işçi qüvvəsi Azərbaycanı xarici sərmayələr üçün ən cəlbedici dövlətlərdən biri kimi tanıdır.

Azərbaycanın sözügedən beynəlxalq maliyyə qurumu ilə əməkdaşlığında xüsusi önəm verildiyi məsələlərdən biri də iqtisadiyyatın rəqəmsallaşması ilə bağlı layihələrin uğurla reallaşdırılmasıdır. Rəqəmsallaşma respublikamızın investisiya cəlbediciliyinə mühüm təsir göstərən amillərdən biri olduğu üçün investorlar tərəfindən bu sahəyə aid infrastrukturun qurulması, eləcə də elektron ticarətin inkişaf etdirilməsi daim diqqət mərkəzində saxlanılır. Məhz bunun nəticəsidir ki, Azərbaycanda təhlükəsiz rəqəmsal ödəniş həllərinin genişləndirilməsi, etibarlı logistik şəbəkələrin təkmilləşdirilməsi kimi güclü rəqəmsal infrastruktur yaradılmasına böyük maraq göstərilir və bu sahədə müsbət göstəricilər əldə olunur.

Xatırladaq ki, DB Azərbaycanla apardığı dənizdə külək enerjisinin istehsalına dair Yol Xəritəsi, ölkəmizdə elektrik enerjisi bazarının inkişafı, enerji səmərəliliyi, uzun müddətli enerji və iqlimlə bağlı planları, həmçinin yeni əməkdaşlıq imkanlarına dair müzakirələrdə fəal iştirak edir. Bütün bu istiqamətlərin dekarbonizasiya prosesini əhatə etdiyi və ölkənin 2050-ci ilədək karbon emissiyalarının 40 faizədək azaldılmasının hədəflədiyi vurğulanır. Eyni zamanda DB-nin həyata keçirilən və planlaşdırılan bərpaolunan enerji layihələrinin respublikamızın qlobal enerji keçidi prosesinə milli səviyyədə töhfəsini gerçəkləşdirir.

Azərbaycanın bərpaolunan enerji layihələrinin icrası DB Qrupunun üzvü Beynəlxalq Maliyyə Korporasiyası (IFC) tərəfindən də daim dəstəklənib. Energetika Nazirliyi ilə bu korporasiya arasında respublikamızda dənizdə külək enerjisi resursundan istifadə üzrə əməkdaşlığa dair 2021-ci il aprelin 14-də Anlaşma Memorandumu imzalanıb. Sənəddə ölkəmizdə bərpaolunan enerji mənbələrindən istifadənin təşviqi, həmçinin energetika sektorunun maliyyə davamlılığı və səmərəliliyinin artırılması üçün bu sahədə özəl sektorun iştirakının dəstəklənməsi kimi ümumi məqsədlərin reallaşdırılması nəzərdə tutulub.

Memoranduma əsasən, IFC ilə əməkdaşlıq Azərbaycanda dənizdə külək enerjisi potensialının qiymətləndirilməsini və yol xəritəsinin işlənib hazırlanmasını, növbəti mərhələdə isə dənizdə müvafiq layihələrlə bağlı tenderlərin təşkili, özəl sektorla tərəfdaşlığın müəyyənləşdirilməsi, yardımçı investisiyaların həyata keçirilməsi kimi dəstəklər önə çəkilir.

Anlaşma Memorandumu ilə nəzərdə tutulan bütün bu işlər IFC-nin “Dənizdə Külək Enerjisinin İnkişafı Proqramı” çərçivəsində yerinə yetirilir. Bu proqram DB Qrupunun təşəbbüsü olan “Enerji Sektorunun İdarə edilməsində Yardım Proqramı”–ESMAP çərçivəsində maliyyələşdirilir.

***Vaqif BAYRAMOV***
***XQ***

# Sumqayıt – tərəqqi və sabaha inam ünvanı

## Bu il gənclik şəhərinin 75 yaşı tamam olur

**Doğulub boya-başa çatdığım Sumqayıt mənim sevimli və dəyişməz ünvanımdır. Adı ilə fəxr etdiyim bu məkanı həmişə özümə isti ana qucağı, könlümün paytaxtı bilmişəm.**



Hələ ötən əsrin 30-cu illərində salınmağa başlayan Sumqayıtın inşası II Dünya müharibəsi səbəbindən ləngiyib. Davadan sonra Xəzərin sahilindəki çöllükdə quruculuq işləri sürətlənib və nəhayət, 1949-cu ildə Sumqayıta şəhər statusu verilib. Bu möhtəşəm xariqələr meydanı gözlərimin önündə, elə mənimlə bərabər böyüyüb, ucalıb, hünər ünvanı olub. 1959-cu ildə ilk tramvayları, üç il sonra ilk trolleybusları küçələrdə şütüməyə başlayıb (heyf ki, indi heç biri yoxdur). Vaxtilə yaxınlığında yaşadığımız ilk "beşmərtəbə" gözəl arxitekturası ilə yenə də seçilir. 9, 12 və 14 mərtəbəli evlərin tikintisi, ilk mənzil aldığım günün sevinci xatirimdən çıxmır.

Qürurla "mənim şəhərim" dediyim Sumqayıt ötən 75 ildə böyük inkişaf yolu keçərək, Cənubi Qfqazın iri sənaye mərkəzinə çevrilib. Bu şəhər təkcə iqtisadiyyatı ilə deyil, iri mədəniyyət, elm və təhsil ocaqları ilə də tanınır. Ulu öndər Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi hər iki dönəmdə Sumqayıta xüsusi diqqət göstərib. Yeni əsrin əvvəllərindən isə Prezident İlham Əliyevin rəhbərliyi ilə gənclik şəhərində böyük layihələr reallaşdırılıb, şəhərin inkişafı ilə bağlı çox önəmli işlər görülüb.

Soruşa bilərsiniz ki, artıq 75 yaşı olan Sumqayıta "gənclik şəhəri" demək nə dərəcədə doğrudur? Məncə, hər hansı bir coğrafi məkan üçün 75 elə gənclik yaşıdır. Bir də ki, əvvəlindən bu şəhərin ruhu gəncdir, burada daim böyük coşqu, sürətli dinamika, yüksəliş əzmi duyulur. Bircə gün gəlib Sumqayıtla nəfəs alsanız, nəbzini tutsanız, fikrimlə tam razılaşarsınız.



2015-ci ildən gənclik şəhərinə Sumqayıtın yetirməsi olan Zakir Fərəcov rəhbər təyin edilib və etimadı layiqincə doğrultmağa çalışır. Prezident İlham Əliyev bir neçə il əvvəl Sumqayıta səfəri zamanı burada inkişaf layihələrinin icrasını yüksək dəyərləndirib: "Şəhərin abadlaşdırılması işi böyük zövqlə və məhəbbətlə aparılır. Küçələr salınır, Sumqayıta giriş küçəsində abadlıq işləri aparılır, yaşıllıq zolaqları yaradılır, ağaclar əkilir. Yəni, bunu ancaq öz şəhərini, öz xalqını sevən insanlar edə bilər".

Fəxrlə qeyd edək ki, dövlət başçısının bir əli daim Sumqayıtın üzərindədir, Prezident kimi bu şəhərə 30-dan artıq səfəri olub və Sumqayıt ölkə rəhbərinə layiqli uğur hesabatı verib. Həmin səfərlərin hər biri inkişaf mərhələsinin yeni səhifəsinə çevrilib. unudulmaz Xalq şairimiz Nəbi Xəzri hələ 60-cı illərdə yazdığı "Sumqayıt səhifələri" poemasında gənclik şəhərinin uğurlarını sanki əvvəlcədən görərək, "Sənin hər addımın böyük hünərdi", - deyib.

Cəmi 75 il əvvələ qədər xəritələrdə bu şəhərin adı yox idi. İndi isə, şair demişkən, "Sumqayıt oxuyur göylərə meydan". Gəlin, gənclik şəhərinin uğur salnaməsinin son illərə aid bəzi səhifələrinə nəzər salaq…

### Yollardan başlanan abadlıq

Sumqayıtda ilk salınan küçələrdən biri şəhərin Bakı–Quba magistralından başlanan yeganə giriş yolu idi. Sözsüz ki, bu yol hazırda əhalisinin sayı yarım milyonu haqlayan şəhər üçün hesablanmamışdı deyə, darısqal idi. 2015-ci ildə Sumqayıtın yol infrastrukturunun yenilənməsinə bu yoldan başlandı.

Uzunluğu 5,2 kilometr olan yol qısa müddətdə yenidən quruldu. Tikinti işləri zamanı əvvəllər nəzərə alınmamış piyada səkiləri düzəldildi, yolun hər iki tərəfində yağış sularını axıdan kanalizasiya xətti çəkildi. Yol boyunca dekorativ istinad divarları tikildi, yaşıllıqlar salındı, gül kolları əkildi, müasir işıqlandırma sistemi quruldu. Eni 14 metr olan prospektin hərəkət hissəsi yenidənqurmadan sonra 22 metrə çatdırıldı.

Onu da deyək ki, 1980-ci illərin əvvəllərində salınmış "Sahil" küçəsi – şəhərin 2-ci qapısı da intensiv hərəkət üçün yararsız idi. Novxanı tərəfdən, çimərliklər zonasından başlanan bu yolun uzun müddətli təmirsiz istismarı orada nəqliyyat axınını azaltmışdı. Bu isə əsas giriş yolunda avtomobil sıxlığına, həm də şəhər sakinlərinin daha uzun məsafə qət etməsinə səbəb olurdu. Burada da yenidənqurma işləri həyata keçirildi. 7,5 kilometr uzunluğu olan yolun eni 8 metrdən 13 metrə qədər genişləndirildi. Yolboyu hər iki tərəfdə həm maşınların, həm velosipedçilər üçün zolaq ayrıldı, piyadalar üçün səki düzəldildi. "Sənaye girişi" kimi tanınan, amma baxımsız vəziyyətdə olan digər alternativ yol - Metallurq Yəhya Məmmədov küçəsi də tam yenidən qurularaq istifadəyə verildi.

Yalnız giriş yolları deyil, şəhərin içəri küçələri də günün tələbləri səviyyəsində yenilənib. Son illərdə 100-dək prospekt və küçədə, neçə-neçə məhəllə və mikrorayonda ardıcıl olaraq asfaltlama işləri aparılıb. Yeni yolların salınması da unudulmayıb, şəhərdə 4 yeni yol salınıb, ümumilikdə 4 milyon kvadratmetrdən cöx asfalt örtüyü yenilənib. Bu işlər mərhələli şəkildə davam etdirilir.

Rahat, abad yollarda nəqliyyat da rahat, təhlükəsiz işləyir. Sumqayıtda sərnişindaşıma sahəsində vəziyyət yaxşılaşmaqdadır. Bu xidmət üzrə idarəetmə təkmilləşdirilir, ictimai nəqliyyat əhalinin rahatlığına xidmət edir. Ötən illər ərzində Türkiyə istehsalı olan, müasir tələblərə cavab verən 200-dən çox avtobus gətirilərək marşrut xətlərinə buraxılıb. Xırda tutumlu, istismara yararsız, ekoloji çirklənməyə səbəb olan nəqliyyat vasitələri xətlərdən çıxarılıb.

Sürətlə inkişaf edən Sumqayıta Bakıdan sürət qatarlarının, özü də 2 xətt üzrə (Xırdalan və Pirşağı) işləməsi də sərnişindaşımanın uğurlu yeniliyidir. İlk qatarın yola salınması mərasimində və yeni, yaraşıqlı Sumqayıt Dəmir Yolu Vağzalı Kompleksinin açılışında Prezident İlham Əliyev şəxsən iştirak edib. Son aylar Sumqayıtla Bakı arasında birbaşa hərəkət edən ekspress qatar da xəttə buraxılıb. Dəmir yolu ilə günlük təxminən 24 minədək sərnişin daşınır.

### "Sumqayıt bulvarı bir möcüzədir"

Gənclik şəhərində dənizkənarı bulvar kompleksinin yaradılması ən böyük layihələrdəndir. Əvvəllər boş çöllük olan, sakinlərin ürək ağrısı ilə baxıb köks ötürdüyü bu ərazidə istirahət etmək, gözəlliklərdən zövq almaq üçün bir il ərzində hər cür tədbir görülüb. Bulvar yaradılarkən qısa müddətdə buraya 60 min maşın torpaq daşınıb, mozaik plitələr döşənib, 100 min ağac, 500 min gül əkilib. Düz 4 kilometrlik bir ərazi əsl gülüstana çevrilib. Gəmi tərsanəsi, hündür estakada tikilib, karusellər, kafelər, kölgəliklər, fəvvarələr, yay estradası yaradılıb.

Prezident İlham Əliyev 2016-cı ilin sentyabrında Sumqayıta səfərində bulvarın gözəlliyini təqdir edib: "Sumqayıt bulvarı, hesab edirəm ki, bir möcüzədir" - deyib. İstifadəyə veriləndən sonra da Sumqayıt bulvarında işlər səngiməyib. Ərazi şəhərin şimal-qərb istiqamətində 1 kilometr uzunluğunda, 400 metr enində, ümumilikdə isə 40 hektar sahədə genişləndirilib. Bulvarın uzunluğu 5,2 kilometrə, ərazisi isə 146 hektara çatdırılıb.

Ölkə başçısı şəhərin 70 illik yubileyi keçirilən gün – 2019-cu il noyabrın 21-də bulvardakı yeniliklərlə tanışlıqdan məmnunluğunu bildirdi. Həmin gün bulvar ərazisində Sumqayıt sakinləri dövlətimizin başçısına yaxınlaşaraq söhbət etdilər. Qayğıya, yaradılan şəraitə görə dövlət başçısına minnətdarlıqlarını bildirdilər. Həmişəki kimi, xalqın arasında olan Prezidenti orada yeni tikilmiş çoxmərtəbəli yaşayış binalarının eyvanlarından salamlayan sakinlərin də fərəhi yerə-göyə sığmırdı. Çöhrələrindən hədsiz razılıqları aşkar görünürdü. Bir qədər aralıda isə uşaqlar bəzəkli faytonlarda gəzirdilər. Ayrı-ayrı guşələrdə nağıl qəhrəmanlarının heykəlləri, fauna fiqurları boy göstərirdi. "Şahmat oynayan babalar", "Gitaraçı veteran", "Rəqs edən cütlük", "At arabası" və "Marallar"ın yanında durub şəkil çəkdirənlər də çox idi.

Bulvarın axşamları daha ecazkar olur. Təzə evlərin pəncərələrindən süzülən işıqlar bulvarın nur selinə qarışır, Xəzərin dalğalarının səsi buradakı "Muğam Mərkəzi"ndən ucalan musiqi sədaları kimi evlərə dolur.

### Binaların üzü gülür

Kompleks tikinti-quruculuq işlərinin bir hissəsini də ictimai yaşayış binalarının təmiri və yenidən qurulması təşkil edir. Az qala, şəhərlə yaşıd olan həmin binaların tarixi memarlıq görünüşü – dizaynı saxlanmaqla zövqlə üzlənib, rənglənib.

Sakinləri narahat edən problemlərdən biri də liftlərin vəziyyəti idi. Ölkə rəhbərliyinin diqqəti sayəsində qısa müddətdə şəhərin lift təsərrüfatı da yenilənib, istismar müddəti ötmüş 600-ə yaxın lift yenisi ilə əvəz olunub. Artıq Sumqayıtda liftlərin intellektual idarəetmə mərkəzi fəaliyyət göstərir. Lift xidmətində "Ağıllı şəhər" (Smart City) vizyonu konsepsiyası çağdaş texnologiyalardan səmərəli istifadə baxımından önəmli olmaqla bərabər, gənclik şəhərinin ölkə üzrə bir ilkə imza atması kimi əhəmiyyətlidir.

Şəhərdə su basmış və üfunət yayan zirzəmilərin, "aşsüzən"ə dönən dam örtüklərinin əsaslı təmirini də əhali razılıqla qarşılayıb. İnamla demək olar ki, hazırda Sumqayıtda çox işlək, çevik şəhər təsərrüfatı mexanizmi var və bu, əsl nümunə sayıla bilər. Dövlətin qayğısı, şəhər rəhbərliyinin səyləri sayəsində abadlıq-quruculuq, yaşıllaşdırma, sanitar təmizlik və sair işlər əzmlə həyata keçirilir.

Sumqayıtın mənzil fondunun balansında 61 yataqxana var. Bu binaların əksəriyyəti, necə deyərlər, artıq "qocalıb". Son dövrlərdə bir çox yataqxanada əsaslı təmir işləri aparılıb, istismara yararsız olanlar sökülüb. Həmin binalarda yaşayan 272 ailə evlə təmin olunub və yaxud kompensasiya alıb.

Yeri gəlmişkən, Dənizkənarı Bulvar Kompleksində Prezidentin sakinlərlə görüşü zamanı bir tələbə qız Sumqayıt Dövlət Universitetinə məxsus yataqxanada məcburi köçkünlərin yaşadığını, tələbələrin isə kirayələrdə qaldığını bildirmişdi. Tezliklə bu problem də həllini tapdı. Yeni qəsəbə salınaraq, köçkün ailələrinə mənzilər verildi. Yataqxana isə müasir standartlara uyğun layihələndirildi və orada tələbələrin rahatlığı üçün hər cür şərait yaradıldı. Gələcək mütəxəssislər artıq kirayələrdə yaşamırlar.

İndi Sumqayıtın köhnə binaları da üzə gülür, göz oxşayır. Yeni "göydələn"lərsə şəhəri daha müasir və yaraşıqlı göstərir. Elə şəhərin ərazisi də xeyli genişləndirilib. Əhalinin say artımı, burada bir sıra dövlət proqramlarının, layihələrinin həyata keçirilməsi bunu zərurətə çevirmişdi. Odur ki, bir neçə il öncə "Bakı şəhəri Binəqədi rayonunun, Sumqayıt şəhərinin və Abşeron rayonunun sərhədlərinin müəyyənləşdirilməsi haqqında" qanun layihəsi Milli Məclisdə müzakirəyə çıxarılıb və səsçoxluğu ilə qəbul edilib. Beləliklə, Binəqədi və Abşeron rayonlarından 4 min hektara qədər torpaq sahəsi Sumqayıta verilib.

Şəhərin inzibati ərazisinə daxil olan Hacı Zeynalabdin (köhnə Nasoslu) və Corat qəsəbələrinin də abadlaşdırılması diqqətdən yayınmayıb. Bu qəsəbələrdə infrastruktur gücləndirilib, yolların təmir olunaraq genişləndirilib, su və elektrik şəbəkələri yenilənib, mövcud parklar yenidən qurulub, əhalinin istirahəti üçün zəruri şərait yaradılıb. Bu yeniliklər Sumqayıt şəhərinin yalnız mərkəzi hissələrinin deyil, həm də kənar ərazilərinin inkişaf etdirilməsinə yönəlmiş siyasətin təzahürüdür. Artıq şəhərdə və ətraf qəsəbələrdə ümumi görünüşə xələl gətirən binaların sayı minimuma enib.

### Parklar "gəl-gəl" deyir

Sumqayıtdakı Heydər Əliyev parkı yenidənqurmadan sonra daha da cəlbedici olub. Ərazisi 8 hektardan 10 hektara qədər genişləndirilib, Ulu öndərin abidəsi buraya ucaldılıb, Bayraq meydanı tikilib. Gözəl memarlıq üslubunda ucaldılmış Heydər Əliyev Mərkəzi də buradadır. Parkın 20 min kvadratmetrdən çox sahəsində yaşıllıq zolağı salınıb, 200-dən çox müasir işıq dirəyi, oturacaqlar quraşdırılıb, 5 mindən çox ağac, dekorativ kol əkilib, Parkda həmçinin rəngli fontan kompleksi, şahmat meydançası, kafe-çayxanalar var.

Poeziya Evi istedadlı qələm sahiblərinin toplaşıb maraqlı tədbirlər keçirdiyi əsas məkandır. Əvvəl başqa məqsədlə tikilmiş bu böyük binanın yazarların ixtiyarına verilməsi şəhərin hazırkı rəhbərliyinin xidmətidir. Yaxınlıqdakı Şahmat Məktəbində isə məhz Sumqayıtdan dünya arenasına çıxmış qrossmeysterlər Şəhriyar, Zeynəb və Türkan Məmmədyarovlar kimi zəka sahibləri yetişdirilir. Uşaq İncəsənət məktəbinin də ünlü sənətçilər yetirəcəyinə inanırıq.

Heydər Parkı ilə üzbəüzdə "Kimyaçı" Mədəniyyət Sarayı yerləşir. Uzun illərdən bəri təmir edilməmişdi. Nəhayət, saray yenidən quruldu. Buradan Lüdviqshafen parkına piyada 5 dəqiqəlik yoldur. Prezidenti İlham Əliyev Sumqayıta səfəri çərçivəsində həmin parkda əsaslı təmirdən sonra yaradılan şəraitlə yaxından tanış olub. Növbəti dəfə gənclik və gözəllik şəhərinə qonaq gələn Almaniya nümayəndə heyətinin üzvləri də Sumqayıtla qardaşlaşmış şəhərlərinin adını daşıyan məkanda saatlarca istirahət edib, idmançıların və özfəaliyyət kollektivlərinin çıxışlarını maraqla izləyiblər. Onların Sumqayıt şəhərinin rəhbərliyi ilə birlikdə parkda əkdikləri ağac tinglərinin hamısı artıq böyüyüb, günəşə boylanır.

Sumqayıtlılar mütəfəkkir şair İmadəddin Nəsiminin adını daşıyan mədəniyyət və istirahət parkını da könüllərinin dinclik tapdığı məkanlardan sayırlar. Yaşıl fəvvarələri xatırladan kimi növbənöv ağaclar, həmişəyaşıl iynəyarpaqlılar böyük bir sahəni tutur. Bir neçə ay əvvəl yenidənqurmadan sonra istifadəyə verilən şəhər stadionu, "Yaşıl teatr", Rəsm qalereyası, "Göyərçin", Şəhidlər xiyabanı, "20 Yanvar" və "Xocalı" abidələri də burada yerləşir. Parkda o qədər nadir bitki növləri var ki, açıq səma altında böyük bir nəbatat muzeyini xatırladır.



Bələdiyyə parkı isə vaxtilə Zakir müəllim həmin qurumun ilk sədri olanda yaradılıb. Əsaslı təmir edilərək Sumqayıt Dövlət Dram Teatrının ixtiyarına verilmiş mədəniyyət sarayının arxasında yerləşən bu məkan da göz oxşayır. Qocalar ötən əsrin 60-70-ci illərində özünün böyük rəqs meydanı ilə tanınan parka gələrək həzin xatirələrə dalır, gənclər və uşaqlarsa istədikləri kimi əylənirlər.

Gənclik şəhərində yaradılmış müasir "sənaye parkları" isə bir ayrı söhbətin mövzusudur. Bir vaxtlar havaya zəhər buraxan kimya qurğuları indi artıq ən modern texnoloji avadanlıqla əvəzlənib, zavodların məhsulları dünyanın bir çox ölkələrinə satılır, əraziləri isə, yaşıllığa qərq olub, sözün əsl mənasında, parklara çevrilib. Əlbəttə, bütün yeniliklər müasirləşən Sumqayıtın gözəlliyinə əlavə çalarlar qatır. Əhaliyə xidmət göstərən müasir infrastrukturun qurulması Sumqayıtın daha da gözəlləşməsi işinin davamlı xarakter almasından xəbər verir.

Cənab İlham Əliyev Sumqayıtın dünya miqyasında ekoloji təmiz şəhərlərdən biri olduğunu dəfələrlə qeyd edib: "Şəhərdə gəzərkən həm gözəlliyi görürsən, həm də görürsən ki, hava da çox təmizdir. Yəni, Sumqayıtın havası kurort havasına yaxınlaşır. Əminəm ki, Sumqayıtın gələcək inkişafında turizm sektoru da öz rolunu oynayacaq". Fərəhli haldır ki, artıq bu istiqamətdə mühüm addımlar atılır. Sahilboyu istirahət guşələrinin sayı artır, neçə-neçə yeni otel qonaqlarını qəbul etmək üçün hazırlanır.

Sözsüz ki, Sumqayıtı gəzib-dolaşan turistlər buradakı möhtəşəm Bayraq muzeyi ilə də həvəslə tanış olacaqlar. Burada qədim şəhərlərimizin gerbləri, çoxsaylı bayraqlar, digər dövlət atributları, Azərbaycan Xalq Cümhuriyyəti dövrünə aid sənədlər sərgilənir.

### Sakinlərin ürəyindən xəbər verən "düzəlişlər"

Bir vaxtlar Sumqayıt Şəhər İcra Hakimiyyəti binasının fasadı başdan-başa dekorativ daş sarmaşıqlarına bürünmüşdü və bu qeyri-adi, ecazkar mənzərə heyranlıq yaradırdı. Bu, bir rəmz, brend idi. Amma sonralar "Yaşıl bina"nın 40 illik örtüyü nədənsə götürülmüş, gözəl memarlıq nümunəsi bir növ bəsit hala düşmüşdü. Bir neçə il əvvəl sarmaşıqların bərpası və binanın əvvəlki görkəminə qaytarılması məqsədilə mütəxəssislər işə cəlb olundular və hazırda binanın çöhrəsi yenidən yaşıllaşmaqla sakinlərin nostalji hisslərinə son qoymaqdadır.

"Azərbaycan prospekti"nin şəhər icra hakimiyyəti və Dram teatrının qarşısından keçən yetərincə enli hissəsi də uzun müddət idi ki, nəqliyyat üçün bağlanmışdı. İndi artıq bu küçədə də "yaşıl işıq" yandırılıb, süni manеələr aradan qaldırıb. Yollar başdan-başa açıqdır. Sakinlər bunu həm də şəhər rəhbərliyinin inzibatçılıqdan imtina, açıqlıq və əlçatanlıq mesaji kimi dəyərləndirirlər.

Bir zamanlar Sumqayıtda "Rusiya" adlı kinoteatr vardı. Qarşısındakı daş lövhəyə də bu sözlər həkk olunmuşdu: "Azərbaycanın Rusiyaya birləşdirilməsinin (1913-cü il, "Gülüstan" müqaviləsi) 150 illiyi münasibətilə tikilmişdir". Müstəqilliyin ilk dövrlərində həmin daş oradan götürülsə də, kinoteatr yararsız halda qalmağında idi. Nəhayət, kinoteatrın yeni binası cəmi 5 aya ərsəyə gətirilərək, "Nizami" adı ilə fəaliyyətə başlayıb. Müasir texnologiyalara uyğun, ən yeni proyektorlar, yüksək parlaqlığa malik kinoekranlar və səs sistemləri ilə təchiz olunub. Dahi şairin əvvəllər uğursuz yerdə qoyulmuş abidəsi də buraya köçürülüb.

Əvvəlki onilliklərdə şəhərin idman həyatının "episentr"i olmuş Mehdi Hüseynzadə adına stadion da yenidən qurularaq, möhtəşəm görkəmdə əvvəlki missiyasına qayıdıb. O vaxtlar 2-3 minlik tamaşası olan futbol arenasının tutumu indi 9502 nəfərə çatdırılıb. Hazırda kompleksdə cüdo, boks və karate zalları da fəaliyyət göstərir.

### Sabaha boylanan şəhər

Görünən budur ki, Sumqayıtın tarixi ənənələr əsasında, eləcə də zamanın çağırışlarına uyğun şəkildə inkişaf edərək irəliləyir. 2015-2023-cü illər ərzində şəhərdə infrastruktur layihələrinə ümumilikdə 6 milyard 500 milyon manatdan çox investisiya qoyulub. Bu investisiyalar Sumqayıtın iqtisadi və sosial inkişafına böyük təsir göstərib, sənaye müəssisələrinin sayı 2 dəfədən çox artıb və ötən müddətdə şəhərdə 50 min yeni iş yeri açılıb. İnişil Sumqayıtda 2-ci regional "ASAN xidmət" Mərkəzi istifadəyə verilib.

Regionlar üzrə ilk dəfə güzəştli mənzil layihəsinin təbiqi də məhz Sumqayıtda həyata keçirilib. Prezident İlham Əliyev 2021-ci ildə həmin layihə çərçivəsində növbəti yaşayış kompleksinin təməlini qoyub. Burada 9, 12 və 16 mərtəbəli 11 bina inşa olunur. Mənzillərin ümumi sayı isə 466-dır. Bütün mənzillər tam təmirli olacaq, mətbəx mebeli, kombi isitmə sistemi, su, qaz və elektriklə təmin ediləcək. Mənzillərin satışı həm güzəştli ipoteka kreditindən istifadə etməklə, həm də öz vəsaiti hesabına ödəniş üsulu ilə aparılacaq.

…Sumqayıtdan bəhs edərkən onun igid oğullarını yada salmamaq olmur. Gənclik şəhərinin yüzlərlə övladı Qarabağda işğalçılara qarşı mərdliklə vuruşub. Ehtiramla anılırlar, çünki elə onlar da Vətənin, dogma yurd-yuvanın işıqlı sabahları naminə canlarından keçiblər. Sumqayıt ictimaiyyəti həmişə müqəddəs döyüşə gedənləri alqış sədaları ilə yola salıb, şəhidlərini təzimlə, saygı duruşu ilə qarşılayıb. İgid oğulların əksəriyyəti yüksək orden və medallarla təltif olunub, onlardan 3 nəfəri Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb.

Abadlıq işləri şəhərin Şəhidlər xiyabanını da əhatə edib. Yenidən qurulan xiyabanda "Qalib Əsgər" abidəsi qoyulub, hündürlüyü 30 metr olan bayraq dirəyi quraşdırılıb, şəhidlərinin əziz xatirəsinə "Zəfər ağacı" abidəsi ucaldılıb. Şəhərdə isə 100-ə yaxın küçəyə şəhidlərin adları verilib.

...Bəli, Sumqayıt sabaha inamla boylanır. İnanırıq ki, 75 yaşlı gənclik şəhəri həmişə olduğu kimi, dinamik inkişaf edəcək və ölkəmizin parlaq gələcəyinə töhfələrini daha da artıracaq.

***Əli NƏCƏFXANLI***
***XQ***

# “İDEA”-nın Xətai sakinlərinə “Abad həyət” töhfəsi





**“Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində Heydər Əliyev Fondunun vitse-prezidenti, “IDEA” İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Bakı şəhəri Xətai rayon Rahib Məmmədov küçəsi 4, 4a, 15q və Cavanşir küçəsi 7 və 9 saylı ünvanlarında 2200-dən çox sakinin yaşadığı çoxmərtəbəli binaları əhatə edən həyətlər abadlaşdırılaraq sakinlərin istifadəsinə verilib.**

Açılış mərasimində iştirak edən Leyla Əliyeva tədbir çərçivəsində keçirilən kütləvi ağacəkmə aksiyasında iştirak edib, həyətin azyaşlı sakinlərinə hədiyyələr təqdim edib.

Abadlaşdırılan həyətlərdə sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli təşkili və onlarda idmana marağın artırılması məqsədilə ərazidə süni örtüklü futbol stadionu, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaqlar üçün oyun meydançaları salınıb.

Həyətlərin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, müxtəlif növ 1680 ağac, 19 min 256 kol bitkisi əkilib, 8549 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Bununla yanaşı, həyətin ətrafında sıx bitən və havanın çirklənməsinin qarşısını almaq məqsədilə adi daş sarmaşığı və digər sarmaşan bitkilər əkilərək “yaşıl sədlər” yaradılıb.

Qeyd edək ki, “IDEA” İctimai Birliyi həyətlərin abadlaşdırılması və yenidənqurma işlərinin aparılması istiqamətində sakinlərin təklif və müraciətlərini İctimai Birliyə təqdim etməyə çağırır. Müraciətlərinizi “IDEA” İctimai Birliyinin qaynar xətti “1113” və ya e-mail ünvanına (info@ideacampaign.org) göndərməyiniz xahiş olunur.

***

Həmin gün Heydər Əliyev Fondunun vitse-prezidenti, “IDEA” İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın iştirakı ilə “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində paytaxt Bakının Nizami rayonunun Mikayıl Əliyev və Kamil Balakişiyev küçələrinin kəsişməsində yerləşən boş ərazidə ağacəkmə aksiyası da həyata keçirilib.

Bu ərazi vaxtilə tikinti materialları və məişət tullantıları ilə mütəmadi olaraq çirkləndirilmişdir. “IDEA” İctimai Birliyinin təşəbbüsü və könüllülərin iştirakı ilə həmin ərazi tullantılardan təmizlənib, torpaq qatının tökülməsi ilə rekultivasiya edilib.

Meşə zolağının salınması nəzərdə tutulan ərazinin sahəsi 2 hektara yaxındır. Aksiya zamanı 500 Eldar şamı, sərv, tuya, akasiya, zeytun ağacları əkilib və abadlıq işləri aparılıb. Bu ərazidə ağacların səmərəli sulanması və su israfının qarşısının alınması üçün damcılı suvarma sistemindən istifadə nəzərdə tutulub.

***XQ***

# Təltiflər qadınlara təqdim edildi

**Xəbər verdiyimiz kimi, Azərbaycan Prezidentinin sərəncamı ilə bu il 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə ölkənin ictimai həyatında səmərəli fəaliyyət göstərən bir qrup qadın “Tərəqqi” medalı ilə təltif edilib. Dünən Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsində medalların təqdim edilməsi mərasimi keçirildi.**



Komitə sədri Bahar Muradova təltif olunanları təbrik edərək bildirdi ki, tarixən, qadınlarımız cəmiyyətdə önəmli rol oynayıblar, xalqımıza layiqli övladlar bəxş etməklə yanaşı, özləri də gələcək nəsillərə örnək olan ömür yaşayıblar. Bugünkü qadınlarımız da həyatın bütün sahələrində səmərəli fəaliyyət göstərirlər, gənc nəslin sağlam böyüməsində, dövlətçiliyimizə sevgi və sədaqət ruhunda tərbiyələnməsində əsas ağırlığı çiyinlərində və qəlblərində daşıyırlar. Qarabağı 30 illik işğaldan da məhz bugünkü anaların böyüdüb tərbiyə verdikləri igid oğullarımız xilas etdilər. Müstəqil dövlətimiz qadınların bu əməyini və fədakarlığını daim yüksək dəyərləndirir, ictimai həyatda fəallıq göstərən, fərdi uğurları ilə seçilən qadınlarımızın nümunəsini geniş təşviq edir.

Bahar Muradova qeyd etdi ki, Azərbaycan Prezidenti İlham Əliyev fəal qadınların səmərəli əməyinin qiymətləndirilməsi ənənəsinə sadiq qalaraq bu il də 8 Mart Qadınlar Günü münasibətilə ölkənin müxtəlif bölgələrini təmsil edən, ayrı-ayrı sahələrdə nailiyyətləri ilə fərqlənən bir qrup qadını “Tərəqqi” medalı ilə təltif etdi. Qadınlarımızın müstəqil ölkəmizə xidmətlərinin layiqincə qiymətləndirilməsi onları yeni nailiyyətlərə ruhlandırır, ictimai həyatda üstün stimullar yaradır.



Sonra Bahar Muradova dövlət təltiflərini sahiblərinə təqdim edərək onlara yeni uğurlar arzuladı.

Təltif edilənlər əməklərinə verilən yüksək qiymətə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirdilər, bundan sonra da xalqımıza və dövlətimizə xidmətləri ni davam etdirəcəklərini söylədilər.

**“Tərəqqi” medalı ilə təltif edilən qadınlar arasında “Xalq qəzeti”nin əməkdaşı Zərifə Hüseynova da var. Həmkarımızı səmimi təbrik edir, ona yeni uğurlar arzulayırıq.**

***Elşən AĞALAR***
***XQ***

# Emin Əmrullayev UNICEF nümayəndəsi ilə görüşüb



**Aprelin 16-da elm və təhsil naziri Emin Əmrullayev BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycandakı nümayəndəsi Saca Faruq Abdulla ilə görüşüb.**

Görüş zamanı Elm və Təhsil Nazirliyi ilə UNICEF tərəfindən həyata keçirilən layihələr, həmçinin əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# Pakistanda daşqınlar 55 nəfəri həyatdan aparıb



**Son 3 gün ərzində Pakistanın Pəncab, Bəlucistan və Xayber-Paxtunxva əyalətlərində baş verən sel və daşqınlar, həmçinin ildırım vurması nəticəsində ölənləri sayı 55-ə çatıb, 40-dan çox adam yaralanıb. Təbii fəlakətin qurbanı olanlar arasında qadınlar və uşaqlar da var.**

Sel və daşqınlar Pəncab, Bəlucistan və Xayber-Paxtunxva əyalətlərində ciddi fəsadlar törədib, çoxsaylı ev zədələnib, magistral və kənd yolları yararsız hala düşüb. Qəza-xilasetmə işlərinə yüzlərlə texnika və canlı qüvvə cəlb edilib, təbii fəlakətdən zərər çəkənlər təhlükəsiz ərazilərə köçürülüb.

Pakistanın Baş naziri Şahbaz Şərif təbii fəlakətin qurbanı olanların ailələrinə başsağlığı verib. O bildirib ki, zərər çəkən əyalətlərin sakinləri ərzaq və isti paltarlarla təmin olunur.

Pakistanda təbii fəlakətlər tez-tez baş verir. Belə ki, 2022-ci ildə baş verən sel və daşqınlar ölkənin üçdə birini su altına salmışdı. Həmin il 2 min adam təbii fəlakətin qurbanı olmuş, ölkəyə 30 milyard dollar həcmində zərər dəymişdi.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***

**İslamabad**

**Turizm ünvanları**

# Naxçıvan qalaları

**Qədim Naxçıvanın köksündə özünə əbədi yurd-yuva salmış tarixi abidələr bu diyarın minillər boyu ulu tarixə şahidliyinin nəticəsidir. Müxtəlif dövrlərdə bu və ya digər səbəblərdən dolayı bu tarixi abidələr dağıdılsa da, onları tarixin və təbiətin qoynundan silib atmağa heç bir qüvvənin gücü çatmayıb. Belə abidələrin içərisində qalaların özünəməxsus yeri var.**



İndiyədək aparılmış tədqiqatlar göstərir ki, Naxçıvan çoxsaylı qalatipli yaşayış yerləri ilə zəngindir. AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yazır ki, Naxçıvanda qalatipli yaşayış yerləri eramızdan əvvəl III minillikdə yaranıb, sonrakı dövrlərdə bu tip yaşayış yerlərindən geniş istifadə edilib. Orta əsrlərdə qalatipli yaşayış yerləri Azərbaycan xalqının işğalçılara qarşı mübarizəsində mühüm istinad nöqtələrindən olub, yerli əhali özünü qorumaq üçün müdafiə qalaları yaradıb.

Belə qalalar, adətən, təbii qayalar üzərində qurulub. Bunlara misal olaraq Əlincəqala, Oğlanqala, Çalxanqala, Berdiqala, Qalacıq, Qazançıqala, Vayxırqala, Nəhəcir qalası, Ordubad qalası və başqalarını göstərmək olar. Aparılan tədqiqatlara görə, Naxçıvan ərazisində 80-ə yaxın qala müəyyənləşdirilib. Ərazisi o qədər də böyük olmayan muxtar respublikada bu tarixi qalalar yadelli hücumlardan qorunmaq üçün inşa olunsa da, sadəcə, özünümüdafiə xüsusiyyəti daşımayıb. Qalalar, ilk növbədə, ilkin yaşayış məskənlərinin göstəricisidir. Digər tərəfdən, bu kimi tarixi abidələr xalqın öz daxili tələbatının, hərbi və iqtisadi qüdrətinin nəticəsi olaraq meydana çıxıbdır. Tarixi mənbələr göstərir ki, Naxçıvan qalaları uzaq keçmişdən burada yaşayan əcdadlarımızın həyat tərzini, dini inanclarını, dövlətçilik ənənələrini, mədəniyyətini və memarlıq sənətini özündə yaşadaraq müasir dövrümüzədək gəlib çatıb.

Muxtar respublikada qalatipli yaşayış yerlərində ən çox diqqətçəkən amillərdən biri də ərazidə qala-şəhərlərin mövcudluğudur. Arxeoloji tədqiqatlar göstərir ki, qala-şəhərlərin formalaşması beş min il bundan əvvələ gedib çıxır və bu cür tikililər, əsasən çay vadilərində, ticarət və sənətkarlığın daha sıx yerləşdiyi ərazilərdə salınıb. Bu fakt özlüyündə dünya, o cümlədən Şərq sivilizasiyasının əsas ocaqlarından biri kimi Naxçıvan torpağının möhtəşəm keçmişindən xəbər verir. II Kültəpə, Naxçıvan, Şahtaxtı, Qızqala, Qızılburun, Qazançıqala kimi qədim qala-şəhərlərin mövcudluğu haqqında tutarlı faktlar var.



Bu faktlar isə Azərbaycanın, ümumilikdə isə Cənubi Qafqazın və yaxın Şərqin tarixi-mədəni keçmişinə işıq tutmaqda əvəzolunmaz rol oynayır. Daha çox öyrənilmə və təbliğ olunma nöqteyi-nəzərindən bu kimi abidələr Naxçıvanın turizm potensialında müstəsna əhəmiyyətə malikdir. Mədəni turizmin inkişafı da dünyada məhz bu cür zəngin potensiala malik regionlara xasdır.

Mədəni turizm, əsasən, intellektual insanların maraq dairəsini özündə cəmləşdirən bir istiqamətdir. Digər kütləvi turizm növlərindən fərqli olaraq, bu sahəyə maraq göstərən turistlər üçün tarixi kitablarda yox, reallıqda hiss etmək daha maraqlı sayılır. Hazırda dünya turizminin 10 faizini dağ və piyada turizmi tutur. Bu turizm növləri müəyyən mənada mədəni turizmlə (əsasən tarixi abidələrlə) oxşarlıq təşkil etsə də, ikincidə intellektual kütlə və yaxud bu sahəyə həvəsi olanlar daha çoxluq təşkil edir. Hətta hazırda dünyanın bir çox antik mədəni abidələri olan ölkələrdə elmi konfrans və simpoziumların həmin bölgələrdə təşkil olunması turist axınına xeyli imkanlar açır.

Belə səyahətlərdə qədim sivilizasiyaya yaxın olmaq, “keçmişlə fotoşəkil çəkdirmək” turistləri daha çox məmnun edən məqamlardandır. Məhz Naxçıvan ərazisində müxtəlif qala-şəhərlərin mövcudluğu da muxtar respublikada bu sahədə turizm potensialının yüksək olduğundan xəbər verir. Xüsusilə, son illərdə I və II Kültəpə, Xarabagilan, Oğlanqala yaşayış yerlərində aparılan tədqiqatlar bu zənginliyin üzə çıxarılmasında mühüm rol oynayır.

Ən qədim qala tikililərinə xas olan Oğlanqala, Naxçıvanqala, Qalacıq, Azad Kiran kimi ərazilər Azərbaycanın əsas siyasi və mədəni mərkəzləri olmaqla yanaşı, həm də dövlətçilik ənənələrinin formalaşdığı yerlər olub. O yerdə ki, dövlətçilik ənənələri olub, demək ki, həmin ərazilər sivilizasiyanın əsas hədəfi olub. Məhz belə zəngin tarixi potensialı qorumaq və təbliğ etməyin ən əlverişli yolu bu tipli obyektlərin turizmlə əlaqələndirilməsidir. Son illərdə Naxçıvanqalada təşkil olunan müxtəlif mədəni tədbirlər, festivallar, ictimai-iaşə xidmətlərinin təşkil edilməsi Naxçıvana gələn turistlərin bu ünvandan yolunu salmasına imkan verib.

Tarixi turizm həvəskarları üçün bəlli ünvanlardan biri də Culfa rayonu ərazisində yerləşən Əlincəqaladır. Orta əsrlər Azərbaycan tarixinin ən mühüm siyasi hadisələrinə şahidlik etmiş, xalqımızın mübarizlik simvoluna çevrilmiş Əlincəqala dövlətçilik ideyalarının qorunduğu, hərbi-strateji və iqtisadi-siyasi mövqeyi ilə seçilən qala abidələrdəndir. İki min ildən artıq tarixə malik Əlincəqala bu gün öz qapılarını turistlərin üzünə açıb. İndi bura üz tutan turistlər təkcə məğrur qala divarları ilə deyil, həm də xalqımızın qəhrəmanlıq ruhu, bu ruhdan güc alaraq torpağa, yurda bağlılıq sevgisi ilə qarşılaşırlar.

Əlincə qalası bu gün ədəbiyyatçılar üçün qəhrəmanlıq dastanı, rəssamlar üçün möhtəşəm təbiət mənzərəsi, tarixçilər üçünsə sirri tam açılmayan əbədi keçmişdir. Məhz bu keçmişin öyrənilməsinə marağı olan çoxsaylı turistlər, səyahətçilər, elm və mədəniyyət insanları var.

Şübhəsiz, Naxçıvandakı digər qala abidələri də yaxın gələcəkdə yeri və xarici turistlərin ziyarət edəcəyi məkanlara çeviriləcək. Bu, həm də muxtar respublikada arxeoloji turizmin inkişafına təkan verə bilər.

**Səbuhi HƏSƏNOV**
**XQ**

**Naxçıvan**

Zülfüqar Hacıbəyov – 140

# Professional musiqimizi zənginləşdirən sənətkar

## Üzeyir Hacıbəylinin bəstəkar qardaşı

**Görkəmli bəstəkar, Azərbaycan Dövlət Musiqili Komediya Teatrının banilərindən biri, Əməkdar incəsənət xadimi Zülfüqar Hacıbəyov milli mədəniyyət tariximizdə məxsusi yer tutan sənətkarlardandır.**



Onun adı çəkiləndə öncə müəllifi olduğu ilk Azərbaycan operettası – "50 yaşında cavan" əsəri yada düşür. Bu əsər milli teatr səhnəmizdə komediya janrının ilk nümunəsidir. Sadə və əyləncəli məzmuna malik olan operettanın mətnini də, musiqisini də Zülfüqar Hacıbəyov yazıb. Əsər ilk dəfə Tiflisdə, sonra Bakı, Naxçıvan, İrəvan və Şuşada göstərilib. Zülfüqar Hacıbəyovun "11 yaşlı arvad" və "Evliykən subay" komediyaları da var.

Şuşa doğumlu musiqi korifeylərindən olan Zülfüqar Əbdülhüseyn bəy oğlu Hacıbəyov hələ uşaq ikən incəsənətə maraq göstərib, istedadı ilə diqqət çəkib. Atası Xurşudbanu Natəvanın yanında mirzə işlədiyi üçün Zülfüqarın həm Xan qızı ilə görüşmək, həm də gözəl səs sahiblərinin ifalarını dinləmək imkanı olub və o, musiqi sənətinə ömürlük könül verib. Atasının vəfatından sonra 5 uşaqlı ailənin qayğıları böyük oğul olan Zülfüqarın üzərinə düşüb, erkən yaşlarından şəhər Duması və Qəza idarəsində kargüzar, Əkinçilik idarəsində müvəkkil işləyib. Amma məmurluğu onun sənətə olan sevgisini üstələyə bilməyib. Tar alətini heç vaxt əlindən yerə qoymayıb. Gələcək bəstəkar musiqi biliklərini Azərbaycan xalq mahnılarından öyrənib. Məhz xalq musiqisi onun yaradıcılığının formalaşmasında əsas amil idi.

Librettosu kiçik qardaşı – dahi Üzeyir Hacıbəyliyə aid olan "Aşıq Qərib" operası ilə Zülfüqar Hacıbəyov Azərbaycan bəstəkarlıq məktəbinə yeni bir cərəyan gətirib. Onun "Nüşabə" və "Üç aşiq və ya Məlikməmməd" (səhnələşdirilməyib) operaları da qeyd edilməlidir. Ümumiyyətlə, klassik musiqimizin formalaşmasında Zülfüqar Hacıbəyovun rolu böyükdür. "Kölə qadınların rəqsi" adlı simfonik pyesi, bir sıra kantataları ustalıqla yaradıb. Ötən əsrin ilk rübündə məşhurlaşan "Kənd qızı", "Çoban qız" və "Əsgər nəğməsi" bəstəkarın ilk mahnıları sayılır.

Qardaşları Üzeyir və Ceyhun Hacıbəylilərin incəsənətdə formalaşmasında Zülfüqarın böyük rolu olub. Çoxlarının bilmədiyi bir fakt da budur ki, 1911-ci ildə Zülfüqar bəy qardaşı Üzeyir bəylə birlikdə operetta artistləri truppası yaradıb. O dövrün bir sıra məşhur sənətçiləri truppanın tərkibinə daxil olub, Bakıda və Qafqazın başqa şəhərlərində tamaşalar göstəriblər. Truppanın qastrol səfərlərində repertuarı Üzeyir bəyin "Leyli və Məcnun", "Əsli və Kərəm" operaları, "Ər və arvad", "O olmasın, bu olsun" musiqili komediyaları, Zülfüqar bəyin "Aşıq Qərib" operası, "Evliykən subay" musiqili komediyasından ibarət idi. Sonralar bu truppanın yerinə "Türk aktyorları ittifaqı" yaradılmışdır.

Tanınmış pedaqoq, ictimai xadim Cəmo bəy Cəbrayılbəyli xatirələrində yazırdı ki, 1915-ci ildə o və Zülfüqar bəy Şamaxıda "Nicat" maarif cəmiyyətinin şöbəsini açmaq məqsədilə Üzeyir bəyin "Arşın mal alan" musiqili komediyasını tamaşaya qoyublar.

Zülfüqar Hacıbəyovun təsir göstərdiyi digər sənətkarlar arasında Müslüm Maqomayev, Hüseynqulu Sarabski, Hüseyn Ərəblinski də var. 1935-ci ildə oğlu – məşhur dirijor Niyazi ilə birlikdə Cəfər Cabbarlının eyniadlı pyesi əsasında çəkilən ilk səsli Azərbaycan filminə – "Almaz"a musiqi yazıb. Son əsəri 1950-ci ildə Zakir Bağırovla birlikdə yazdığı kantata olub.

Unudulmaz sənətkar 66 yaşında – 30 sentyabr 1950-ci ildə Bakıda vəfat edib. Bəstəkarın AMEA-nın Əlyazmalar İnstitutunda saxlanılan şəxsi arxivində tamamlanmamış çoxlu librettolar, musiqi eskizləri var. Bunlar "Onda elə, indi belə", "Yarış", "Biçarə Xavər", "Məşədi Xudu" operettaları, "Mən ağlaram, o gülər" komediyası, "Məlikməmməd", "Nüşabə" operaları və s. əsərlər, eləcə də məqalələr və məktublardan ibarətdir. İnişil bu zəngin irs haqqında tarix üzrə fəlsəfə doktoru Esmira Cavadovanın "Zülfüqar bəy Hacıbəyovun arxivinin təsviri" adlı kitab çap olunub.

Ötən onilliklər bir daha sübut etdi ki, Zülfüqar Hacıbəyov yaddaşlarda yaşamaq və daim ehtiramla xatırlanmaq haqqı olan görkəmli şəxsiyyətlərdəndir.

*Ə.DOSTƏLİ*
*XQ*

# "Əsrə bərabər gün"ün fantastik realizmi

## Çingiz Aytmatovun "Manqurt" dastanı Milli Dram Teatrının səhnəsinə yeni quruluşda qayıdıb

**Dahi rus yazıçısı L.N.Tolstoyun sözüdür: "Möhtəşəm hekayələr iki cür başlanır: ya bir insan yola çıxır, ya da bir şəhərə yad adam gəlir". Məşhur qırğız yazıçısı Çingiz Aytmatovun dünya ədəbiyyatının incilərindən sayılan "Əsrə bərabər gün" romanında əsərin qəhrəmanı Yedigeyin (Xalq artisti Nurəddin Mehdixanlı) yola çıxması ilə başlayır. Dostu Qazanqapın (Əməkdar artist Abbas Qəhrəmanov) cənazəsini qədim yurd yeri olan "Ana-beyit"də dəfn etməkdən ötrü kənd əhli ilə birlikdə getdikləri yol onların üzünə bağlanır. Əcdadlarının uyuduğu Ana-beyitin yerində indi Baykanur kosmodromu salınıb. Boranlı kəndinin camaatı ora buraxılmır.**

Qırğız ədəbiyyatının klassik əsəri bu dəfə Akademik Milli Dram Teatrının səhnəsində Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadənin quruluşunda iki hissəli fantastik realizm kimi özünün səhnə həllini tapıb. Rejissor yeni səhnə işində qeyd etdiymiz incə məqamları önə çəkir, bir-neçə dövrü əhatə edən hadisələri günümüzlə sintezdə verir.

Boranlı əhlinin Ana-beyit məzarlığının darvazası önündə yolunun bağlanması tamaşanın kulminasiyasıdır. Məhz burada əsərin qəhrəmanı Yedigey ilk dəfə ailəsi ilə birlikdə Boranlı stansiyasına işləmək üçün gələndə Qazanqapın ona qucaq açıb, yer verdiyini, qayğısına qaldığını xatırlayır. Həmin xatirələrə bürünən bütün həyatı kino lenti kimi gözünün önündən keçir. Əslində, "Əsrə bərabər gün" elə həmin gündür.



İkinci dünya müharibəsinin iştirakçısı, sinəsi orden-medalla dolu Yedigey siyasi, milli əsarətdən qurtulmaq arzusu ilə içində qovrulan sovet adamıdır. O, dostu Qazanqapı, vəsiyyətinə uyğun olaraq, Ana-Beyitdə torpağa tapşırmalıdır. Fəqət Qazanqapın oğlunun düşüncəsinə görə, ölünün harada dəfn olunmasının mənası yoxdur: "O, zatən ölüb, bir çala qazıb, ora qoyub üstünü torpaqlamaq lazımdır". Yedigeyin qənaətincə, insanın son mənzili öz yurdu, canından çox sevdiyi doğma torpağı olmalıdır. Qazanqap nahaq yerə məhz o məzarlıqda dəfn olunmasını istəməyib ki?! Dostuna vəfa borcunu ödəmək üçün otuz kilometr yol qət edən Yedigey Ana-beyit haqqında dillərdə dolaşan Manqurt əfsanəsini xatırlayır. Manqurt əfsanəsi romanın içərisində ayrıca roman kimi verildiyi üçün, tamaşada da ayrıca səhnədə canlandırılır.

Juanjuanların dözülməz işgəncəsindən sonra adını, soyunu unudan Joloman manqurta çevrilir. Oğlunu tapan Nayman Ana (Xalq artisti Bəsti Cəfərova) Jolomanla deyil, onun quru cismi ilə qarşılaşır. Ona laylaları, oxşamaları ilə kimliyini xatırlatmağa çalışır, alınmır, özü o səhrada məhv olur.

Tamaşada hadisələrin cərəyan etdiyi müxtəlif dövrlər arasında maraqlı müqayisələr, paralellər aparılır. O vaxtın manqurtu ilə indiki manqurtların – Qazanqapın – dəfninə getməyə vaxt tapmayan oğlu Sabitcanın, habelə ölüsünü dəfn etmək üçün ata-baba məzarlığına soydaşlarını buraxmayan, onlarla ana dilində danışmağı özünə ar bilən mundirli oğlanın bir o qədər də fərqi yoxdur.

Yedigey məzarlığın qapısından geri qaytarılmanı Nayman Anaya görə Tanrının cəzası kimi qəbul edir: "Biz bu cəzaya layiq görülmüşük". Romanda son mənzilə yolun qapanmasının səbəbi kosmik stansiyanın salınmasıdırsa, tamaşada həm də əcdadlarından, torpaqdan dönüklüyün cəzası kimi təqdim edilir.

"Qatarlar bu yerlərdə şərqdən qərbə, qərbdən də şərqə gedir... Bu yerlərdə dəmir yolunun hər iki tərəfilə intəhasız Sarı Torpaq çöllərinin göbəyi hesab edilən Sarı Özək düzənliyi uzanıb gedir. Coğrafiyada hər şey Qrinviç meridianından ölçülən kimi, bu yerlərdə də bütün məsafələr dəmiryolu ilə ölçülürdü. Qatarlar isə şərqdən qərbə, qərbdən də şərqə gedirdi". Romandakı bu fikirlər Azdramanın səhnəsində Aytmatovun yazdığı kimi səsləndirilir. Bu zaman qatarın qulaqbatırıcı fiti ilə vizual qatar səhnənin bir tərəfindən digər tərəfinə "şütüyür".

Dəvəni isə səhnədə canlı görürük. Qırğızların həyat-tərzinin rəmzi olan dəvə əsərin qəhrəmanı Yedigeyin yedəyində iki dəfə hadisələrin içindən – səhnədən keçir.

Çingiz Aytmatovun "Əsrə bərabər gün" romanının motivləri əsasında səhnələşdirilən, 60 nəfərlik aktyor heyətinin rol aldığı eyniadlı tamaşa 3 saat davam edir. Amma tamaşaçı yorulmur, o da hadisələrin axarına düşüb yol gedir. Sadəcə yol getmir, həm də düşünür...

Teatrın bədii rəhbəri Mehriban Ələkbərzadənin təbirincə desək, "Əsrə bərabər gün" tamaşasını Çingiz xandan Çingiz Aytmatova qədər dünən, bu gün, sabah kontekstində yaşadığımız əsrə baxış adlandıra bilərik".

Yeni səhnə işində, həmçinin Xalq artistləri Əli Nur (Tansıkbayev-müstəntiq), Laləzar Mustafayeva (Ukubala), Cəfər Namiq Kamal (Müfəttiş), Rafiq Əzimov, Hacı İsmayılov (Nayman tayfa başçısı), Sabir Məmmədov (I Mühəndis), Əməkdar artistlər Abbas Qəhrəmanov (Qazanqap), Elşən Rüstəmov (Abutalıb Kuttubayev), Anar Heybətov (Sabitcan), Vəfa Rzayeva (Zərifə), Ayşad Məmmədov (Ədilbəy), Elxan Quliyev (Əbilov), Mirzə Ağabəyli (Cumaəli), Əminə Babayeva (Bikə), Rövşən Kərimduxt (Kospan və Juanjuan tayfa başçısı), Aslan Şirin (Osman və şagird 3), Elşən Cəbrayılov (I hərbçi), Mətləb Abdullayev (II Hərbçi), Rəşad Bəxtiyarov (Juanjuan 2), Məzahir Cəlilov (Qəbilə sakini 1), Əlvida Cəfərov (Qəbilə sakini 2), Kazım Həsənquliyev (Yolçu qonaq 1), Elşən Cəbrayılov (baş mühəndis) iştirak edirlər.

**Yazıçı-dramaturq Əli Əmirli:**

"Əsrə bərabər gün" kimi bəşəri məzmunlu əsəri səhnələşdirmək həm dramaturgiya, həm də rejisor işi baxımından çətindir. Belə mürəkkəb yaradıcı işə çiynini vermək rejissordan böyük cəsarət və özünəinam tələb edir. Yaradıcılıq fantaziyası zəngin olan Mehriban xanım Ələkbərzadədə bu iki cəhətin hər ikisi var.

Gərgin məşqlərin, rejissor axtarışlarının nəticəsi izləyicinin ixtiyarına verilən tamaşadır. Biz gözəl nəticənin, səhnədə möhtəşəm işin şahidi olduq. Həm quruluş, həm aktyor oyunu, hadisələrin dinamikası, son dərəcə müasir və mürəkkəb səhnə kompozisiyası, rəssam və bəstəkar işi heyrətamizdir. Tamaşa çox gözəl idarə olunur. 60 nəfər səhnədədir və heç kəs başqasına mane olmur.

Milli teatrın yaradıcı kollektivini bu tamaşa münasibəti ilə təbrik etmək lazımdır. İnanıram ki, peşəkar teatrşünaslar tamaşanın dəyərini verəcəklər. Onu dəqiq bilirəm ki, yeni bədii rəhbərin gəlişindən sonra teatrın həyatında canlanma var. Deməli, yeni və uğurlu tamaşalar olacaq.

*Ramilə QURBANLI*
*XQ*

# Qərbin bağrında Şərq çiçəyi

## Müasir türk yazarı Karalina Laurent Turuncun söz dünyası

**Bu gün dünya miqyasında tanındığını iddia edə biləcəyimiz antakyalı şair, nasir Karalina Laurent Turunc hazırda Parisdə yaşayıb-yaradan türk kökənli bir yaradıcı şəxsdir. Qələmə aldığı gözəl bədii nümunələri könül oxşayır.**

O, demək olar ki, bütün qitələrdə müxtəlif sülh konfranslarında (Bakıda da olub), şeir festivallarında iştirak edib. Amerika, Hindistan, Banqladeş, Pakistan, Çin, Rusiya, Ukrayna və dünyanın digər ölkələrində çıxışları yaddaqalan olub.

Karalina Laurent Turunc 9 uşaqlı türk ailəsinin qızıdır. Sosioloqdur. Qələmə sarıldığı 2013-cü ildən bəri 1500-dən çox şeir yazıb, 40-a yaxın yerli və xarici antologiyada, beynəlxalq portal və jurnallarda çap olunub. "Şərqlə Şimal arası" və "Çöl zanbağı" adlı 2 şeir kolleksiyası yayımlanıb. Rumıniyada təşkil olunmuş "Dünya ədəbiyyatı yarışması"nda müxtəlif ölkələrdən olan 2575 şair arasında 2-ci yerə layiq görülüb. Çin Xalq Respublikasında təşkil olunmuş 8-ci Bahar Şeir Festivalında mükafat alaraq, həmin ölkədəki Şimal–Qərb Universitetinin "İpək Yolu" Mədəniyyət Mərkəzi tərəfindən təşkil olunan "Dünya ədəbiyyatı muzeyi"nə üzv seçilib.

Yorulmaz qələm sahibi Fransada sülh elçisi kimi beynəlxalq vətəndaş dərnəklərində fəallığı ilə seçilir. "Beynəlxalq paytaxt yazarları fondu"nda təşkilat komitəsinin üzvüdür. Ankaradakı "Başkent Haber Ankara" və "Özgür ifade İstanbul" qəzetlərində köşə yazıları ilə müntəzəm çıxış edir. Eyni zamanda Türkiyə Cümhuriyyətində fəaliyyət göstərən UTEF xeyriyyə dərnəyinin Paris təmsilçisidir. "Ziyadar" mükafatı laureatı olan Karalina Laurent Turunc 2022-ci ilin yekunlarına görə doğma vətənində "İlin yazarı" diplomu ilə təltif olunub. Onun haqqında Tuncay Şəhrilinin tərtib etdiyi "Karalina Laurent Bakıda" adlı kitab inişil paytaxtımızda nəşr olunub.

Dünyaya sülh və əminamanlıq diləyən, zülm və istibdadı lənətləyən Karalina Laurent Turuncun haqq səsi "Zalim padşah!" şeirində daha ucadan duyulur. Karalinanı ilk dəfə nə vaxt, harada və ya hansı şeiri ilə tanıdığımı dəqiq deyə bilmərəm. Amma onu qeyd etmək istəyirəm ki, ilk şeiri ilə tanış olan zaman nədənsə gözümün önündə vizual olaraq (onda bəlkə hələ heç müəllifin fotosunu da görməmişdim) "Çöl aslanı" filmindəki Ömər Muxtarın surəti canlanmışdı. İnternet üzərindən araşdırmalar sayəsində öyrənmişdim ki, 2 şeir kitabı işıq üzü görüb və bu kitablar bildiyimiz bütün beynəlxalq kitab satış portallarında var. Mən də müəllifin hər iki kitabını onlayn sifariş edib aldım.

Həmişə haqqın yanında olan Karalina 2020-ci ildə 44 günlük Zəfər Yürüşümüz zamanı bütün yol boyu bizimlə birgə addımladı. Bu mənəvi yoldaşlıq zamanı özüm üçün bir yəqinlik hasil etdim ki, Karalina doğma Türkiyəsinin sevdalısı olduğu qədər Azərbaycanı da sevir. Sonra iş elə gətirdi ki, onunla 2022-ci ildə Bakıda bir sülh konfransında görüşdük. O çağadək qiyabi olaraq, yazılarına görə tanıdığım Karalinanı həm də şəxsən, əyani tanıdım: Gördüm ki, həqiqətən də, bizim "aslanın erkəyi, dişisi olmaz" misalımıza uyğun bir çöl aslanıdır ki, var. Onun həyat amalında, yaradıcılığında nəyinsə xatirinə deyilən sözə yer yoxdur! Karalina məqsədinə doğru inamla addımlayan cəsur yolçu, zülmətin bağrını yararaq ətrafını aydınladan gur işıqdır.

Bu xanım qürbət eldə yurdunu təmsil edən zərif, ötkəm bir çiçəkdir. Mən onu bütün xarakter və xüsusiyyətlərini bir cümlədə məhz belə ifadə edərdim: – "Qərbin bağrında Şərq çiçəyi".

Karalinanın bir şeirini XQ-nin oxucularına təqdim edirik:



### EY TANRISI ÜMİD

Şah damarımda qanım donar
Çirkaba batmış Yer üzünü gördükcə.
Mən neçənci yuxudayam, – deyirəm,
Hansı əsrin astanasındayam?
Sanki, Şərqin vadilərində
Qeyb olmuşdu ürəyim.
Səsim qaranlığa qərq olub
Mənə doğru axır…
Yadlaşmış gözlərimdə
Kipriklərimə toxunuram,
Amma çox çarəsizəm.
Ayaqlarım var-gəl etməkdən
Sürgün yollarındaymış kimi,
Yorğun düşüb…
Amma ki, mən əllərimi
uzadıb
Günəşə toxunacağam.
Sevgilimin könlünü
Ovundurmaq üçün
Mahnılar oxuyacağam...

*Təqdim etdi:*
*Zaur USTAC,*
*"Yazarlar" jurnalının*
*baş redaktoru*

Milli kinomuzun akkordları

# "Dərs"in ekran dərsi

**Hamımız kinomuzun qızıl fonduna daxil olan "Sehrli xalat", "Qərib cinlər diyarında" " Şir evdən getdi" kimi uşaq filmlərini sevə-sevə izləmişik. Məhz bu filmlər uşaqların dünyagörüşünün, zövqünün formalaşmasında mühüm rol oynayır. Belə ekran işlərindən biri də müstəqillik dövründə çəkilən "Dərs" dir.**



Cavid Təvəkkül və Rafiq Əliyevin 2015-ci ildə ekranlaşdırdığı "Dərs"dən görünür ki, insanlar təkcə sinifdə – 4 divar arasında deyil, həyatda da dərs alırlar. Filmin ana ideyası bu fikir üzərində formalaşıb. Xalidin (Tamerlan Ağayev) futbolu yaxşı oynaya bilməyib, sinif komandasının məğlubiyyətinə səbəb olması onu yalqızlaşdırır. Sinif yoldaşlarının ona ikrahla yanaşmasında isə Asifin (Rəşid Əliyev) xüsusi rolu var. Özünü yaxşı futbolçu, qızların sevimlisi kimi göstərən Asif sinifdə at oynadır, hətta müəllimi ilə də kobud zarafat etməkdən çəkinmir.

Maraqlı məqamlardan biri Xalidin ailəsinin də onunla soyuq davranmasıdır. Valideyinləri onu taleyin ixtiyarına buraxıblar. Çox utancaq olması Xalidin başqaları qarşısında haqqını müdafiə edə bilməməsinə səbəb olur. Bu da filmin baş qəhrəmanının zəif cəhətidir. "Begemot" deyilərək aşağılanan Xalidə kiçik bacısı və babası mənəvi dəstək olurlar. Babası onun bu cür adlanmasını qəbul etmir. O Xalidə adı uğrunda yeri gələndə savaşmağın da lazım olduğunu bildirir. Bunun üçün nəvəsinə adların mənasını bildirən bir kitab verir. Xeyirxah baba obrazı həmçinin milli kökə bağlılığın simvolu kimi görünür. Lakin bu obrazda müəyyən statiklik var: baba sanki həyatda deyil, maarifləndirici bir verlişdə danışır.

Asif həm də qısqanc birisidir. Çinarənin (Aliyə Əliyeva) Xalidə rəğbət bəsləməsini heç cür qəbul edə bilmir. O, Xalidin Çinarə ilə görüşüb kinoya getməsinə mane olur. Asif bu əməlini Solmazın (Ayna Zərbəliyeva) vasitəsilə həyata keçirir. Solmaz Çinarəni Xalidlə kinoya gedəcəyi təqdirdə onunla rəfiqəlik etməyəcəyini deyərək şantaj edir. Beləcə, Xalidə pisniyyətli münasibət film boyu davam edir. Asif isə öz marağı üçün Xaliddən riyaziyyat dərsini pozmasını istəyir. Dərs əlaçısı olan Xalid bunu da edir, amma yenə də qarşılıq görmür. Filmdə Asifin partlayıcı oyuncağı alışdırarkən bədənini yandırması simvolik xarakter daşıyır. Bundan sonra o öz davranışlarına müəyyən çəki-düzən verir və Xalidin mərdliyini dəyərləndirərək, ona dost əlini uzadır. Film Xalidin timsalında ağlın, biliyin, dostluğun qalib gəlməsi fikri ilə tamamlanır.

"Dərs" filmi 2016 cı ildə Belarusda keçirilən "Listopad" film festivalında 2 mükafata layiq görülüb. Elə həmin il ekran işi Rusiyada – " Kinoşok" beynəlxalq festivalında "Ən yaxşı film nominasiyası"nı qazanıb.

Bu gün, təəssüf ki, uşaq filmləri az ekranlaşdırılır. Düşünürük ki,"Dərs" kimi filmlər çox olmalıdır. Çünki dərs təkcə kitab-dəftərlə olmur. Bu gün orta məktəb şagirdlərinin xarakterinin, zövqünün düzgün formalaşmasına ehtiyac var. Bu baxımdan "Dərs"lər faydalı ola bilər.

*Ceyhun MİRZƏLİ*

# Tələbə-gənclərin fəallıq həftəsi

**Bakı Dövlət Universitetinin (BDU) Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə "Gənclik həftəsi 2" layihəsinə start verilib.**



BDU-dan "XQ"-yə bildirilib ki, 4 gün davam edəcək layihədən məqsəd tələbələrin dünyagörüşlərinin artırılması, asudə vaxtlarının səmərəli keçirilməsi, onlara könüllülük dəyərlərinin aşılanmasıdır.

Açılış mərasimində çıxış edən universitetin Tələbə Gənclər Təşkilatının sədri Ələkbər Həsənov qeyd edib ki, sabahın ali təhsilli mütəxəssislərinin vətənpərvər, sağlam və intellektual ruhda inkişafı üçün belə vacib layihələrin təşkili davamlı olacaq. "Gənclik həftəsi 2" çərçivəsində BDU tələbələri dərsdən sonrakı vaxtlarda intellektual əyləncələrə qatılacaq, yarışlarda qüvvələrini sınayacaq, təlimlərdə iştirak edəcəklər.

Layihədə fəallığı ilə fərqlənən gənclərə sertifikat və hədiyyələr veriləcək.

*XQ*

Mərhəmət dünyası

# Heyvanlar da sahibsiz olmasın...

**Min illər əvvəl insanlar pişik və itləri əhliləşdirərək onları vəhşi təbiətdən çıxarıb özlərinə köməkçi ediblər. Bəzi heyvanların bəxti gətirib, himayədə yaşayıblar, digərləri isə lazımsız əşya kimi küçəyə atılaraq soyuq, aclıq, susuzluq və xəstəlikdən, həmçinin yol qəzalarından ölüblər.**



Son illər bu sahədə görülən tədbirlərə baxmayaraq sahibsiz heyvanların, xüsusən də itlərin sayının artması, insanların, xüsusən də uşaqların it dişləmələri nəticəsində ciddi zədə almaları halları ilə bağlı çoxlu hadisələr baş verib. Onların arasında hətta ölüm halları da var. Cəmiyyət bu sahəyə cavabdeh olan müvafiq dövlət qurumlarını, qeyri-hökumət təşkilatlarını günahlandırır. Onlar da öz növbəsində insanların da bununla bağlı məsuliyyət daşıdığını vurğulayırlar.

**IDEA Heyvanlara Qayğı Mərkəzinin icraçı direktoru Heyran Huseynova Kalenderlə müsahibəmiz də bu mövzuda oldu.**

**– Heyran xanım, son illər "küçə" itlərinin böyük sürü halında gəzərək insanlara hücum etmələri ilə bağlı çoxlu şikayətlər var. Sahibsiz itlərin küçələrə düşməsinə səbəb nədir?**

– Bəli, şikayətlər çoxdur və məktəbyaşlı övladları üçün narahat olan valideynləri də qınamıram. Amma bu məsələyə birtərəfli yanaşma düzgün deyil. Bundan bir ay əvvəl Qobuda itlərin uşağı dişləyərək ciddi xəsarət yetirmələri sanki şok effekti yaratdı. İstər sosial şəbəkələrdə, istərsə də bəzi mətbu orqanlarında bilərəkdən, yaxud bilməyərəkdən itlər dəhşət saçan ən təhlükəli yırtıcı kimi təqdim olunurdular. Əksinə, onların canlılar içərisində ən ağıllı, vəfalı və sədaqətli heyvan olduğunu cəmiyyətə çatdırmaq lazımdır. İnsanlara bu qədər yaxın olan bu günahsız varlıqların elə sahibləri tərəfindən qəddarcasına küçəyə atılması, faktiki olaraq ölümə məhkum edilməsi cəmiyyət üçün ciddi siqnal olmalıdır. Təbii ki, sonradan yaşamaq uğrunda mübarizə onları sürü halında gəzməyə məcbur edir. Problemlərin kökündə insanların öz heyvanlarına qarşı mərhəmətsizliyi ilə yanaşı, cəmiyyət qarşısında böyük məsuliyyətsizliyi durur.

**– Bəziləri "həll yolu"nu sahibsiz heyvanları elə küçədə güllələməkdə, yaxud zəhərləməklə öldürməkdə görürlər. Sizin bu məsələyə münasibətinizi bilmək istərdik.**

–Bir neçə gün ərzində küçələrdən bütün heyvanlar belə yığışdırılsa, qısa bir müddətdən sonra yenə də əvvəlki vəziyyət yaranacaq. Ümumiyyətlə, küçə iti ifadəsini belə işlətmək düzgün deyil. Bunların hamısı ev heyvanları olub, müəyyən şəxslərin məsuliyyətsizliyi ucbatından küçəyə düşüb. Bu gün sahibsiz gəzən hər bir it onu azdıraraq ölümün pəncəsinə atan bir ailənin laqeydliyindən, biganəliyindən xəbər verir. Necə deyərlər, öz ağrısını hiss edən canlıdır, başqasının ağrısını hiss edən isə İnsan. Heç kim düşünməsin ki, heyvanlar ayrılığın əzabını, acısını başa düşmürlər. Bu itlərin baxışlarında çox aydın görünür. Onlar sahibləri üçün ölənə qədər darıxırlar. Sahibsiz itlərin küçələrdən yığışdırılması ilə bağlı kütləvi şəkildə şikayət edənlərin sayı artsa da, ev heyvanlarını küçəyə atanlara qarşı mübarizə aparmağı heç kim düşünmür.

Artıq yerli itlərimizlə yanaşı, vaxtilə baha satılan müxtəlif cins itlərin də küçələrdə sahibsiz dolaşdığının şahidi oluruq. İnsanlara tövsiyə edirik ki, heyvanı satın almasınlar, küçədən sahiblənib, onlara isti yuva versinlər. O zaman heyvan alverçiləri də satış məqsədilə ev heyvanlarını artırmazlar. Digər bir məsələ isə budur ki, sahibsiz dolaşan heyvanların əksəriyyəti həyət evlərində yaşaya bilər. Mərkəzimiz hər kəsin üzünə açıqdır. Bizə müraciət etsinlər. Qısırlaşdırıb, vaksinlərini vurduqdan sonra sahib çıxa bilərlər.

**– Qayğı Mərkəzində itlərin qısırlaşdırılması barədə məlumat verərdiniz...**

– Mərkəz sahibsiz heyvanlarla bağlı problemin həllində əsas diqqəti sterilizasiyaya, xəstəliklərin qarşısının alınmasına yönəldib. Qısırlaşdırma əməliyyatlarını ildən-ilə artırırıq. 2022-ci ildə 700 it əməliyyat olunmuşdusa, 2023-cü ildə 2 min 280 it qısırlaşdırılıb. Bu o deməkdir ki, həkimlərimiz daha gücləndirilmiş iş rejimində işləyirlər. Hələlik itləri qısırlaşdırmaq aksiyasını davam etdiririk. Əməliyyat üçün itləri insanlar özləri gətirir, bəzən də könüllülər kömək edirlər. Bəzən isə maşın göndəririk, yığıb gətirirlər. Qısırlaşdırıb, quduzluğa qarşı peyvənd vurulur. Qısırlaşdırılan heyvanlar qızğınlığa girmirlər deyə, aqressiv olmurlar. Belə heyvanların qulağına birka vurulur ki, bu da artıq onların tam təhlükəsiz olduğunu göstərir. Yəni, cəmiyyət qorxmaya bilər. Qısırlaşdırdıqdan sonra onları əvvəlki ərazilərə buraxırıq.



**– Mərkəz, müxtəlif dövlət qurumları tərəfindən, həmçinin ayrı-ayrı şəxslərin yaratdığı sığınacaqlar itlərin qısırlaşdırılması ilə bağlı çoxlu aksiyalar keçirirlər. Amma parklarda, küçələrdə birkalı itlər demək olar ki, gözə dəymir...**

– Əlbəttə, hər heyvanın qısırlaşdırılması, sağlamlığı ilə bağlı bütün tədbirlərin görülməsi müəyyən vəsait tələb edir. Bu, ona görə edilir ki, onlar öz həyatlarını tam sağlam, cəmiyyət üçün təhlükəsiz şəkildə, davam etdirsinlər. Buna sakinlər də çalışmalıdırlar. Birkalı heyvanları hamı qorumalı, onlara qayğı göstərməlidir. Bu gün cəmiyyətimizdə heyvanların himayəsi və onlara humanist yanaşma birmənalı deyil. Elə Türkiyənin timsalında misal çəkək. Qardaş ölkədə hətta iri itlərin dayanacaqda rahat şəkildə oturmalarını müşahidə edə bilərsiniz. Bizdə sanki insanlarla heyvanlar arasında o qədər də sevgi yoxdur. Mərkəzimiz fəaliyyət göstərəndən bu sevgini yaratmaq üçün bütün vasitələrdən istifadə edir. Heyvanları məhv etmək, təbiəti, dünyanı məhv etmək deməkdir. Ötən illər ərzində insanların fikirlərində müsbətə doğru dəyişikliklərin baş verməsinin şahidi oluruq. Əsasən də, heyvanların himayəyə verilməsi prosesində bunu hiss edirik.



**– Heyvanların himayəyə verilməsi proseduru necədir?**

– Mərkəzə gətirilən bəzi heyvanları himayə bölməsində yerləşdirib, qısırlaşdırırıq. Onlara daha sonra peyvənd vurulur, mikroçiplənir və gələcək sahibləri üçün tam hazır vəziyyətdə saxlanılır. Hər həftə 10-a yaxın ev heyvanını sahibləndiririk. Uşaqları ilə gələn valideynlər heyvanı götürərkən onun da ailənin bir üzvü olduğunu başa düşürlər. Himayəyə verəndə də deyirik ki, bu və ya digər səbəblərdən saxlaya bilməyəcəklərsə, onu küçəyə atmasınlar, mütləq bizə geri qaytarsınlar. Allergiya və digər səbəblərdən qaytaran olsa da, bu, nadir hallarda olur. Yəni götürənlərin əksəriyyəti heyvanlara sahib çıxır.

Bakı Zooloji Parkı ilə layihəmiz var. Hər ayın sonunda maarifləndirmə tədbiri keçirir, uşaqlarla heyvanlar arasında təmas yaradırıq. Küçədə yaşamağa məcbur olan itlər onunla pis rəftar edildiyi və qorxduğu üçün aqressiv reaksiya verə bilər. Çünki əksər hallarda itlərin 7-9 yaşlı uşaqların üzərinə hücum çəkməsinin, yaxud onları dişləməsinin şahidi oluruq. Deməli, uşaqların heyvanlarla davranışına dair maarifləndirmə tədbirləri daha çox keçirilməlidir. Heyvanlara qarşı qorxu hissini uşaqlardan yox etmək vacibdir. Valideynlər heyvanlarla uşaqlar arasında boşluq yaratmamalıdırlar.

İnsanlar heyvanlara qarşı nə qədər mərhəmətli davranarlarsa, onlar da cəmiyyət üçün o qədər zərərsiz olarlar. Başqa sözlə desək, cəmiyyət heyvanlara bəslədiyi münasibətin qarşılığını görər.

***Leyla QURBANOVA***
***XQ***


## Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin Su və Meliorasiya Kompleksinin Layihələndirilməsi İnstitutu

### 2024-cü il üçün fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya qəbul elan edir

Qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 mart 2024-cü il tarixli, 163s nömrəli sərəncamı ilə təsdiq olunmuş Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların 2024-cü il üçün doktorantura hazırlığı üzrə qəbul planına əsasən aparılacaqdır.

Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya (ali təhsili olan, ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan mütəxəssislər) Azərbaycan Respublikasının vətəndaşları müsabiqə əsasında qəbul olunurlar.

İnstitutda fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya qəbul aşağıdakı ixtisaslar üzrə aparılacaqdır:

| İxtisasların şifri | İxtisasların adları | Fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya qəbul planı |
|---|---|---|
| | | Qiyabi (büdcə hesabına) |
| 2518.01 | Hidrogeologiya | 1 |
| 3305.05 | Mühəndis-kommunikasiya sistemləri | 1 |
| 3308.01 | Ətraf mühitin texnologiyası və mühəndisliyi | 1 |
| 5406.01 | Hidrologiya | 1 |
| Yekun | | 4 |

Fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər 2024-cü il aprelin 16-dan mayın 15 -dək Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin https://portal.edu.az/ saytına daxil olmaqla "Ali və orta ixtisas təhsil müəssisələrinə təhsilalan qeydiyyatı" xidmətini seçərək təlimatlara uyğun şəkildə qeydiyyatdan keçməlidirlər.

Qəbul qaydaları haqqında məlumatı Doktorantura şöbəsindən almaq olar.
Telefon: (+99412) 430-08-25/35 (daxili 2503, 2743).
E-mail: Pervane.Xidirova@azersu.az
Ünvan- AZ1012, Bakı şəhəri, Moskva prospekti 73.

## Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutu

### Fəlsəfə doktoru hazırlığı ilə əlaqədar aşağıdakı ixtisas üzrə dissertanturaya (büdcə hesabına)

### QƏBUL ELAN EDİR

1. 2426.01- Ekologiya (elm sahələri üzrə) - 1 yer.
2. 3305.07-İnşaat materialları və məmulatları -1 yer.

Fəlsəfə doktoru proqramı üzrə dissertanturaya qəbul üçün aşağıdakı sənədlər instituta təqdim edilməlidir:
- ərizə (institut direktorunun adına ərizə);
- kadrların şəxsi-qeydiyyat vərəqəsi;
- tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);
- iş yerindən xasiyyətnamə;
- əmək kitabçasından çıxarış;
- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikası vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması barədə şəhadətnamə);
- şəxsiyyəti təsdiq edən sənədin surəti;

Fəlsəfə doktoru proqramları üzrə dissertanturaya sənəd qəbulu 2024-cü il aprelin 16-dan mayın 15-dək həyata keçiriləcəkdir.

Müsabiqədə iştirak etmək istəyənlər əlavə məlumatı institutun "Elmi-texniki informasiyalar və doktorantura" şöbəsindən ala bilərlər.

Əlaqə telefonu - 012 - 596- 37- 60 (215).
Ünvan- Bakı, Füzuli küçəsi 65.

## "Qaradağ Tikinti Materialları" ASC səhmdarlarının nəzərinə!

31 may 2024-cü il saat 11.00-da "Qaradağ Tikinti Materialları" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:
1. Səhmdar cəmiyyətin 2023-cü ilin maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.
2. Səhmdar cəmiyyətin səhmdarları tərəfindən yeni investorların cəlb edilməsi istiqamətində müvafiq tədbirlərin görülməsinin müzakirəsi.
3. Səhmdar cəmiyyətin fəaliyyətinin genişləndirilməsi məqsədilə gələcəkdə görüləcək işlər barədə müzakirələrin aparılması.
4. Digər məsələlər.

Ünvan- Bakı şəhəri, Qaradağ rayonu, Qaradağ Lahmacun kafesi (Salyan şossesi 30-cu km).

***İdarə heyəti***


İDMAN



## "Paris–2024"ün məşəli alovlandırıldı

**Parisdə Yay Olimpiya Oyunlarının məşəli alovlandırılıb. Ənənəyə görə, məşəl antik Yunanıstanda oyunlara evsahibliyi edən Hera məbədində yandırılıb.**

Olimpiya məşəli Akropoldan Fransa Polineziyasına qədər səyahət edərək iyulun 26-da Parisdə Oyunların açılış mərasiminə çatdırılacaq.

Tədbirdə Yunanıstan Respublikasının Prezidenti Katerina Sakellaropulu, Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax, Yunanıstan Milli Olimpiya Komitəsinin rəhbəri Spiros Kapralos və digər rəsmi şəxslər iştirak ediblər. Mərasimlə Olimpiya Oyunlarının startına gerisayım başlayıb.

Qeyd edək ki, Olimpiya Oyunları iyulun 26-dan avqustun 11-dək keçiriləcək.

## Yeniyetmələrin minifutbol turniri



**Bakıda paytaxt rayonlarını əhatə edən məhəllələrarası minifutbol turniri başlayıb.**

Yarışlar Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə paytaxtın qəsəbə və yaşayış məntəqələrində həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində yaradılan abad məhəllələrdəki minifutbol stadionlarında keçirilir. Olimpiya sistemi üzrə, 2012-2013-cü il təvəllüdlü yeniyetmələr arasında keçirilən yarışda, ümumilikdə 1152 gənc idmançının yer aldığı 96 komanda iştirak edir.

Respublika səviyyəli hakimlərin iştirakı ilə təşkil edilən turnirə mayın 3-də final oyunları ilə yekun vurulacaq.

## Taekvondoçularımız 2 medal qazanıblar



**Belqradda keçirilən Serbiya açıq çempionatında Azərbaycan taekvondoçuları 2 medal qazanıblar.**

Komandamızın üzvlərindən G2 kateqoriyalı turnirdə Taleh Süleymanov (+87 kq) gümüş medal alıb. Səyyad Dadaşov (54 kq) isə bürünc medala sahib olub.

***Leyla SABİRQIZI***
***XQ***


## "Rabitəbank" ASC səhmdarlarının nəzərinə!

"Rabitəbank" ASC –nin müşahidə şurasının 16 aprel 2024-cü il tarixli, 35 nömrəli qərarına əsasən 17 may 2024-cü il saat 17.00-da bankın səhmdarlarının növbədənkənar ümumi iclası keçiriləcəkdir.

Yığıncağın gündəliyi:
1. Yaradılması və tərkibinin dəyişdirilməsinə aid qərarvermə səlahiyyəti müşahidə şurasına həvalə edilmiş idəretmə orqanları istisna olmaqla, bankın digər idarəetmə orqanlarının tərkiblərinin və əsasnamələrinin yeni redaksiyada təsdiq edilmiş "Banklarda Korporativ İdarəetmə Standartları"nın tələblərinə uyğunlaşdırılması məqsədilə yenidən baxılması.
2. Təşkilati və cari məsələlər.

Ünvan- Bakı şəhəri, 28 may küçəsi 33.

## B İ L D İ R İ Ş

"ENES" QSC-nin səhmdarının 5 aprel 2024-cü il tarixli qərarına əsasən ASC "Xalq" Bankı ilə kredit müqavilələrinin bağlanması və "ENES" QSC-yə məxsus olacaq "ALFA ROMEO GİULİA" markalı avtomobilin girov qoyulması təmin edilsin.

**"ENES" QSC-nin səhmdarı:**
**Samir Nazim oğlu İbrahimov.**

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

### ASCO-nun tabeliyindəki idarələrə tələb olunan qaynaq tutqaclarının (derjatel) satın alınması məqsədilə

### MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il aprelin 23-ü saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (012) 404-37-00, daxili – 1263.

Ünvan – Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

## "Hədiyyələr" ASC səhmdarlarının nəzərinə!

4 iyun 2024-cü il saat 11.00-da "Hədiyyələr" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçirələcəkdir.

Gündəlikdəki məsələlər:
1. 2023-cü ilin yekunları üzrə cəmiyyətin icra orqanının hesabatının dinlənilməsi və balansın təsdiqi.
2. Cəmiyyətin müşahidə şurasının və onun sədrinin seçilməsi.
3. Müfəttişin təyin edilməsi.

Səhmdarların ümumi yığıncağının gündəliyinin materialları ilə 2024-cü il mayın 29-da cəmiyyətin inzibati binasında tanış olmaq mümkündür.

Telefon- 012-560-09-71.

Ünvan- Bakı şəhəri, Nəsimi rayonu, A.Salamzadə küçəsi 31.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 76 (30480) 17 aprel 2024-cü il, çərşənbə

# “...Başı bəlalıdır, yalnızdır eşqim”

## Müşfiqin Xızıdakı ev muzeyinin də taleyi bəlalıdır





**Bu günlərdə tanınmış alim, filologiya üzrə fəlsəfə doktoru, publisist Firudin Qurbansoy böyük şairimiz Mikayıl Müşfiqin Xızı rayonunun Sayadlar kəndində yerləşən ev-muzeyinin ötən ilin yayında Tuğ çayının daşması nəticəsində bərbad vəziyyətə düşməsi ilə bağlı tənqidi qeydlərini redaksiyamıza göndərib. Orada yazılır:**

“Mikayıl Müşfiqin Azərbaycan ədəbiyyatında tutduğu yüksək mövqe haqqında danışmağa, düşünürəm ki, ehtiyac yoxdur. O, hər bir azərbaycanlının ürəyində yaşayan böyük söz ustadlarının sırasında yaşamaqdadır. Bu sevginin nəticəsidir ki, böyük şairimizin həyat və yaradıcılığı ilə bağlı elmi və bədii əsərlər ərsəyə gəlib, adını əbədiləşdirmək üçün büstləri qoyulub, Müşfiqabad qəsəbəsi, Mikayıl Müşfiq küçələri var. O cümlədən Xızı bölgəsinin boş qalmış Sayadlar (Səyyadlar) kəndindəki köhnə oba yerində müşfiqsevərlər 1988-ci ildə “Müşfiq ocağı” adında kiçik birotaqlı ev tikdilər. M.Müşfiqin 80 illiyi ərəfəsində bu, şairə son dərəcə kövrək bir məhəbbət nümunəsi idi.

2001-ci ildə Müşfiq ocağının ətrafında abadlıq işləri aparıldı, ictimai əsaslarla “Xatirə muzeyi” yaradıldı. Şairin doğum və anım günləri – 5 iyun və 6 yanvar tarixlərində ölkənin sayılıb -seçilən qələm sahibləri, alimlər buranı ziyarət etməyə başladılar. Həmin obyekt 2004-cü ildə o vaxtkı nazir Polad Bülbüloğlunun sərəncamı ilə Mədəniyyət Nazirliyinin balansına verildi. Muzeyin qarşısında elin köməyilə şairin tuncdan tökülmüş büstü qoyuldu. Repressiyaya uğramış böyük şairlərimiz Hüseyn Cavid və Əhməd Cavadın rəsmləri çəkilmiş lövhə bu məkanın siqlətini daha da artırdı.

Nakam şairin “Oxu tar!” şeirinə illüstrasıya olaraq, muzeylə üzbəüz dağın yamacında Azərbaycan tarına abidə qoyuldu. Muzeyin çevrəsində ağaclar və güllər əkildi, zəvvarların dincəlməsi üçün söhbətgah quruldu. Onu da xatırladaq ki, bu, Müşfiqin adı ilə bağlı yeganə muzeydir. Muzeyə gediş-gəlişi asanlaşdırmaq üçün qarşıdan axan Tuğ çayının üstündən kiçicik körpü salındı.

Muzey binasının yenidən qurulmağa böyük ehtiyacı olmasına baxmayaraq, rayon rəhbərliyi daşın üstünə daş belə qoymağa cəhd etmədi. Müşfiqsevərlər və muzey əməkdaşlarının səylərilə qarşıya çıxan çətinliklərin öhdəsindən gəlindi. Həqiqətən, çox işlər görüldü. Müşfiqşünas rəhmətlik Xalq şairimiz Gülhüseyn Hüseynoğlunun oğlu Toğrul Abdullayev büstün ətrafındakı plitə örtüyü şəxsi vəsaiti hesabına yenilədi.

Təəssüf ki, 2023-cü il avqustun 23-də muzeyin qarşısından keçən Tuğ çayı birdən-birə aşıb-daşaraq körpünün dayaqlarını qoynuna alaraq 10 metr aşağı aparıb atdı. Bir anın içində büstə qədər olan məsafədə bütün tikililər selin qurbanı oldu. Yeddinci aydır ki, bu gözlənilməz təbiət hadisəsi baş verib. Amma nə Xızı Rayon İcra Hakimiyyətinin, nə də Mədəniyyət Nazirliyinin rəhbərliyi bu istiqamətdə heç bir iş görməyib. Ən azı körpünü yerinə qoyub bərkitmə işləri icra oluna bilərdi, mən hələ muzeyin vəziyyətini yaxşılaşdırmaq üçün əlavə tədbirlərin görülməsinin vacibliyini demirəm. Hazırda hər iki qurum özünü görməməzliyə vurub.

Adətən, sısqa axan Tuğ çayı hər 20 – 25 ildən bir böyük təlatümlə sellənir. Xatırladaq ki, “Ədəbiyyat qəzeti”nin 2 fevral 2001-ci il tarixli sayında Xalq şairi Nəbi Xəzri həmin hadisə ilə bağlı “Müşfiq evi” adlı şeirini çap etdirib. Şeir belə bir qeydlə başlayır: “Payız vaxtı dağlar qoynunda Müşfiq evinə gedən körpünü sellərin uçurduğunu gördüm”.

***Əziz Müşfiqimi***
***Bu doğma dağdan***
***Dünən qanlı-qanlı əllər ayırdı.***
***Bu gün bura gələn dostdan, qonaqdan***
***Çağlayan dalğalar, sellər ayırdı.***

***Qumral saçlarını***
***Daradı külək,***
***Xoşbəxtlik gəzərkən dərd çəkdi burda.***
***... Qəbrin yox, qəbrinə səcdəyə gələk***
***El sənə kiçicik ev tikdi burda.***

***İnamı məhəbbət,***
***Andı həqiqət,***
***Onun nə dəhşətli taleyi vardı.***
***Zəngin saraylara sığmayan şöhrət***
***Bu kiçik komaya necə sığardı?***

***O ilham dağında***
***Zirvəyə çatdı,***
***Vətən səcdə qıldı məğrur sözünə.***
***O, min-min ürəyə körpülər saldı,***
***Təbiət qəsd etdi son körpüsünə.***

***Ev də yetim qaldı***
***Sahibi kimi,***
***Durdu yerin-göyün***
***Qalibi kimi.***

***Burdadır məhəbbət,***
***Hörmət yolları,***
***Yenə görüşərik yaz səhərində.***
***Gələr dəstə-dəstə el oğulları,***
***Saxlayar körpünü çiyinlərində.***



Şairin bu sözü vaxtında ünvanına çatdı, “dəstə-dəstə el oğulları” körpünü yenidən qurdular.

Amma bu gün Xızı rayonunun rəhbərliyi Müşfiqin bərbad günə düşən ev muzeyinin vəziyyətinə acımır və bu istiqamətdə heç bir iş görmək istəmir. Yeri gəlmişkən, son vaxtlara qədər Xızıda 3 muzey olub; 1959-cu ildə qurulan Cəfər Cabbarlının ev muzeyi, Müşfiqin xatirə muzeyi və 2008-ci ildən fəaliyyət göstərmiş Xızı Rayon Tarix-Diyarşünaslıq Muzeyi. İndi bu rayonda cəmi 2 muzey qalıb.

Səbəbi isə budur ki, 2012 – ci ildən Xızı RİH başçısı vəzifəsində işləyən Xəzər Aslanov öz “missiyasına” Xızı Rayon Tarix – Diyarşünaslıq Muzeyini sökdürməklə başlayıb. Bəli, o, hakimi–mütləq kimi hökmünü göstərmək üçün tez-tez hikkə ilə dediyi “mən bu binanı sökdürəcəyəm” – cümləsini gerçəkləşdirib. Cəmi 4 il əvvəl tikilmiş və hökumət komissiyası tərəfindən qəbul edilən muzeyin, guya yararsız olduğunu bəhanə göstərilərək 2012-ci ildə muzey binası sökdürülüb, 1001 əziyyətlə toplanmış tarixi əhəmiyyətli əşyalar muzeydən pərən-pərən düşüb.

Xızı ziyalıları hələ də başa düşə bilmirlər ki, cənab Xəzər Aslanov Xızı Tarix – Diyarşünaslıq Muzeyindən nə yamanlıq görmüşdür? Fərz edək ki, həqiqətən də, 2012-ci ildə muzey yararsız halda olub, sökülməsindən 12 il sonra belə, yəni Xızıda bu məqsədlə yeni bir bina tikmək olmazdımı? Mədəniyyətimizə, mədəni ocaqlarımıza belə münasibət göstərən icra başçısından Müşfiq muzeyinin abadlığını gözləmək nə dərəcədə doğru olardı?”

PS. Ümid edirik ki, müvafiq qurumlar dəyərli ziyalımız Firudin Qurbansoyun redaksiyaya ünvanladığı müraciətində səsləndirdiyi və hər birimizdə haqlı olaraq ciddi narahatlıq doğuran bu iradlarını mütləq nəzərə alacaq, xalqımızın sevimli, nakam şairinin ruhu dolaşan bu mədəniyyət ocağında tezliklə bərpa-təmir işlərinin aparılmasına göstəriş verəcəklər. Biz isə “Xalq qəzeti” olaraq öz növbəmizdə bu məsələni diqqətdə saxlayacağıq.

***Yazını təqdim etdi:***
***Kəmalə ABDİNOVA***
***XQ***

Texnologiya yenilikləri

# “WhatsApp” onlayn siyahını genişləndirir

**Dünyanın ən məşhur mesajlaşma proqramı olan “WhatsApp” istifadəçilərə daha bir yeni funksiya təqdim edəcək. Belə ki, yeni funksiya sayəsində onlayn istifadəçilərin siyahısı görünəcək.**




İstifadəçilər proqramda kontaktlar menyusuna daxil olduqda “WhatsApp”da son vaxtlar onlayna qoşulanların siyahısını görəcəklər. “WhatsApp”da kontakt aktivdirsə, o, siyahının yuxarısında görünəcək. Beləliklə, istifadəçilər insanların son görünmə vaxtını yoxlamaq məcburiyyətində qalmayacaqlar.

Bu funksiya ilə “WhatsApp” istifadəçiləri aktiv insanlarla əlaqə saxlamağa təşviq edərək qarşılıqlı əlaqəni artırmaq istəyir. Artıq yenilik bəzi istifadəçilər üçün əlçatandır.

Ən son onlayn kontaktların siyahısı funksiyası “Google Play Store”dan Android üçün WhatsApp beta proqramının ən son versiyasını quraşdırmış bəzi beta testçiləri üçün təqdim edilib.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

# OpenAI ChatGPT-nin zəka yürüşü

**OpenAI tərtibatçıları GPT-4 Turbo dil modelinin yenilənmiş versiyasını buraxdıqlarını elan ediblər. GizmoChina xəbər verir ki, yeni versiya artıq ChatGPT chatbotunun premium istifadəçiləri üçün əlçatandır.**



OpenAI-ə görə, GPT-4 Turbo əvvəlki versiya ilə müqayisədə təkmilləşdirilmiş yazı, kodlaşdırma və məntiq imkanlarını nümayiş etdirir. Olimpiada səviyyəsində riyazi məsələlərin həllində irəliləyiş xüsusilə nəzərə çarpır.

Süni intellekt həm də daha aktual məlumatları bilir: GPT-4 2021-ci ilin sentyabr ayına qədər məlumatlara malik olsa da, Turbo 2023-cü ilin dekabrına qədər ictimaiyyətə açıq məlumatlar üzrə təlim keçib. Bu, istifadəçilərin ən aktual nəticələr və məlumatları almasını təmin edir. Digər bir üstünlük kontekst ölçüsünün 50 səhifədən 300 səhifəyə qədər artırılmasıdır.

Qeyd etmək lazımdır ki, ChatGPT-nin əsas rəqibi Microsoft Copilot da daha böyük GPT-4 Turbo dil modelindən istifadə edir, üstəlik, o, pulsuz versiyada da mövcuddur. Doğrudur, o, yalnız sistemdə yük olmayan dövrlərdə istifadə edilə bilər.

Süni intellekt sahəsində inqilab vəd edən ChatGPT-5-in 2024-cü ilin sonuna qədər işə salınması gözlənilir. Söhbət süni ümumi intellekt (AGI) konsepsiyasından gedir. Bu, o deməkdir ki, süni intellekt insanların həll edə biləcəyi istənilən problemi öyrənə biləcək. Bu həm də onu insandan az fərqlənməsinə imkan verəcək.

***XQ***

Sağlamlıq

# Qatıq – şəfalıdır hər şeydən artıq

**Türkiyəli dietoloq Bərna Ərtuğ qatığın faydalarından danışıb. Onun fikrincə, bu ağartı həzmi asanlaşdırır və bağırsaqların işləməsinə kömək edir. Tərkibindəki laktoza və probiotiklər sayəsində həzmlə yanaşı, orqanizmin immunitetini də dəstəkləyir.**

Qatıq tərkibindəki kalsium sayəsində sümükləri gücləndirir və qoruyur. Buna görə də osteoporozun qarşısının alınmasında böyük rol oynayır. Kalsiumun ən mühüm funksiyası sümük və dişlərin sağlamlığını qorumaq və inkişafını təmin etməkdir. Odur ki, sürətli böyümə, hamiləlik və ana südü ilə qidalanma dövrlərində kalsiuma ehtiyac daha da artır. Qatıq həm də fosforla zəngindir. Fosfor isə hüceyrələrdə DNT və RNT molekullarının əsas tikinti bloklarıdır. Hüceyrədəki bütün enerji dövranını təmin edir.

Qatıq bakteriyaları B1, B2, B3 vitaminlərini sintez edirlər. Bu vitaminlər bədəni dəri sağlamlığında da dəstəkləyir. 200 qram, yəni bir kasa yarı yağlı qatıqda 36 faiz karbohidrat, 32 faiz zülal və 32 faiz yağ, orta hesabla 100 kalori var.

Dietoloq qeyd edib ki, qatıq günün hər satında istehlak edilə bilər: “Əsas yemək və ya qəlyanaltı kimi ona üstünlük vermək olar. Gündə ən azı bir kasa qatıq yeyin. Əgər başqa süd məhsulları yeyilmirsə, qatığın miqdarı artırılmalıdır. Gün ərzində süd və pendir istehlak edilirsə, gündə ən az bir kasa qatıq yemək kifayətdir”.



***Z.HÜSEYNLİ***
***XQ***

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC

“Bibiheybət” Gəmi Təmiri Zavodunun ərazisinə, velosiped yollarına və avtodayanacağa asfalt-beton örtüyünün salınması işlərinin (material və işçi qüvvəsi ilə birlikdə) satın alınması üçün

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il aprelin 23-ü saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində,2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1047.

Ünvan – AZ1003 Bakı, Mikayıl Useynov küşəsi 2.

Hava

# Yenə də yağmursuz və dumanlı...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən aprelin 17-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq. Əsasən, yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq.**

Mülayim cənub küləyi əsəcək. Gecə 9-14°, gündüz 19-24° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 762 mm civə sütunu, nisbi rütubət gecə 60-65, gündüz 45-55 faiz olacaq. Azərbaycanın rayonlarında hava, əsasən, yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək, bəzi şərq rayonlarında arabir güclənəcək. Havanın temperaturu gecə 9-14°, gündüz 22-27°, dağlarda gecə 5-10°, gündüz 15-20° isti olacaq.

***Q. QASIMOV***
***XQ***

**ALLAH RƏHMƏT ELƏSİN**

Zaqataladan Mübariz Əhmədzadə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədova qardaşı

**KAMİL MƏMMƏDOVUN**

vəfatından kədərləndirdiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3880
SİFARİŞ 823
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00